ISNN 2413-7235

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİNİN

İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

*ELMİ ƏSƏRLƏR TOPLUSU*
*XX BURAXILIŞ*



BAKI - 2020

**ISSN 2413-7235**

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİNİN
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

*ELMİ ƏSƏRLƏR TOPLUSU*
***XX BURAXILIŞ***

**BAKI - 2020**

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun*
*Elmi Şurasının qərarı əsasında nəşr olunur*

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən*
*Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir: № 4271, 19.11.2019*

**“Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” elmi əsərlər toplusunun redaksiya heyəti**

**Baş redaktor**
***Arzu Doğru qızı Hüseynova,*** *iqtisad elmləri doktoru*

**Məsul katib**
***Sayalı Zal qızı Abbasəliyeva***

**Üzvlər**
***Vilayət Məmməd oğlu Vəliyev****, iqtisad elmləri doktoru, professor*
***Oruc İbrahim oğlu İbrahimov,*** *iqtisad elmləri namizədi, dosent*
***Ədalət Bayraməli oğlu Əliyev,*** *iqtisad elmləri doktoru, texnika elmləri doktoru, professor*
***Zakir Məcid oğlu Nəcəfov,*** *iqtisad elmləri doktoru*
***Gülənbər Arif qızı Əzizova,*** *iqtisad elmləri doktoru, professor*
***Vəfa Hüseynağa qızı Rzayeva,*** *texnika elmləri namizədi*
***Arzu Sahib oğlu Süleymanov,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Fərhad Qamboy oğlu Mikayılov,*** *iqtisad elmləri namizədi*
***Malik Məmməd oğlu Mehdiyev,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Vladimir Dmitriyeviç Parxomenko,*** *Ukrayna Pedoqoji Elmlər Akademiyasının müxbir üzvü, professor (Ukrayna)*
***Yelena Borisovna Lençuk,*** *iqtisad elmləri doktoru, professor (Rusiya)*
***İqor Germanoviç Mantsurov,*** *iqtisad elmləri doktoru, professor (Ukrayna)*
***Aleksandr Nikolayeviç Stratan,*** *iqtisad elmləri doktoru, professor (Moldova)*
***Saylau Bayzakoviç Bayzakov,*** *iqtisad elmləri doktoru, professor (Qazaxıstan)*

Elmi əsərlər toplusu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı”nın iqtisad elmləri bölməsinə daxil edilmişdir.

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
AZ 1122, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70; Faks: (+99412) 430 03 06
Elektron poçt: journal.isrer@gmail.com

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2020

## MÜNDƏRİCAT

**İNTERNETDƏ QARABAĞ HADİSƏLƏRİ İLƏ BAĞLI MƏLUMATLARIN REALLIQ İNDEKSİ**
*Arzu HÜSEYNOVA, Elnur ƏLƏKBƏROV* 5

**QEYRİ-NEFT SEKTORUNA MÜXTƏLİF İQTİSADİ TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ (QEYRİ-NEFT EMALI SƏNAYESİ TİMSALINDA)**
*Arzu SÜLEYMANOV* 17

***ƏMƏK RESURSLARININ BEYNƏLXALQ MOBİLLİYİNƏ ELMİ BAXIŞLARIN İCMALI***
*Elnurə HÜSEYNOVA* 27

**QLOBAL-İQTİSADİ ÇAĞIRIŞLARIN TƏHLİLİ VƏ İQTİSADİ BƏRPA MEYİLLƏRİ**
*Elmir EYVAZ-ZADƏ* 35

**AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ BİZNES FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VE İNVESTİSİYA MÜHİTİ ARASINDA ƏLAQƏ**
*Yusif MƏMMƏDOV* 49

**ÖLKƏNİN MİLLİ SƏRVƏTİNİN YARADILMASINDA İNTELLEKTUAL MÜLKİYYƏTİN QORUNMASI PROBLEMLƏRİ**
*Şəfiqə MƏMMƏDOVA* 59

**AZƏRBAYCANIN CƏNUBİ QAFQAZ REGİONUNUN İSTEHSAL VƏ İSTEHLAKININ BALANSLAŞDIRILMASINDAKI YERİ VƏ ROLU**
*Samir TACİRZADƏ* 67

**ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN İQTİSADİ İSLAHATLARIN YERLİ SAHİBKARLARIN FƏALİYYƏTİNƏ BİRBAŞA TƏSİRİ**
*Cavid KƏRİMOV* 77

**AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAFININ TƏHLİLİ**
*Səfər HÜSEYNOV* 85

**AZƏRBAYCANIN QEYRİ-NEFT İXRACATI POTENSİALI, ÜTT-NA ÜZVLÜK KONTEKSTİNDƏ TƏSİRLƏRİN TƏHLİLİ**
*Ramil ABAKAROV* 105

**RƏQƏMSALLAŞMA, XÜSUSİYYƏTLƏRİ VƏ İQTİSADİ TƏSİRLƏRİ**
*Günay ABBASOVA* *112*

**SƏNAYENİN QEYRİ-NEFT SEKTORUNA ÖZƏL İNVESTİSİYALAR ÜÇÜN DÖVLƏT TƏŞVİQLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ**
*Elnur İBRAHİMLİ* *119*

**REGİONAL XƏRC-BURAXILIŞ MODELLƏRİNİN TƏDQİQİ (AZƏRBAYCAN NÜMUNƏSİ)**
*Elnur RÜSTƏMOV* *131*

**AZƏRBAYCANDA İCTİMAİ NƏQLİYYAT TARİFLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ MƏSƏLƏLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**
*Fuad ƏMİRHÜSEYNOV* *145*

**İNSANA YÖNƏLİK İNVESTİSİYALARIN GERİ DÖNÜŞ SƏVİYYƏSİ VƏ DÜNYA ÖLKƏLƏRİNDƏKİ MÜQAYİSƏLİ TƏHLİLİ**
*Könül ƏHMƏDOVA* *154*

**MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR** *164*

*UOT 330.47*

# *İNTERNETDƏ QARABAĞ HADİSƏLƏRİ İLƏ BAĞLI MƏLUMATLARIN REALLIQ İNDEKSİ*

*Arzu HÜSEYNOVA,*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru v.i.e., i.e.d.,*
*eim09@rambler.ru*

*Elnur ƏLƏKBƏROV,*
*İİETİ, Makroiqtisadi tədqiqatlar şöbəsinin müdiri,*
*alekberov.elnur@gmail.com*

**Xülasə**

*Məqalədə rəqəmsallaşmanın inkişaf etdyi dövrdə informasiya həcminin böyüməsi və böyük həcmli məlumatların emalının yeni üsullarının tətbiqi məsələlərinə baxılmış, müasir proqram təminatından istifadə edilərək böyük həcmli məlumatlar intellektual üsullar vasitəsi ilə təhlil edilmiş, Azərbaycanda intellektual üsulların tətbiqi problemləri göstərilmişdir. Təhlil obyekti olaraq Azərbaycan üçün aktual olan Qarabağ mövzusu götürülmüşdür. Müxtəlif ntellektual təhlil proqramlarından stifadə edərək göstərilən mövzuda informasiya axını, axtarış nəticələri və s. təhlil edilmiş, “İnternetdə məlumatın reallıq indeksi” hesablanmışdır.*

***Açar sözlər:*** *intellektual təhlil üsulları, mətni təhlil, informasiya, informasiya müharibəsi, reallıq indeksi*

## GİRİŞ

Günü-gündən qloballaşan müasir dünyada informasiyanın rolu danılmazdır. Hazırda dünyada informasiya elə bir xarakter almışdır ki, informasiyaya əlyetərlik və onu əldə etmək üçün böyük bir ehtiyac vardır.

Bir neçə onillik əvvəldən fərqli olaraq günümüzdə müharibələr hibrid xarakter almışdır ki, onların da bir komponenti məhz “informasiya”dır.

Azərbaycan dövləti cari ilin sentyabr ayının 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin təxribat xarakterli hücumlarının qarşısını almaq, həmçinin 30 ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarını işğaldan azad etmək məqsədilə əks həmlə əməliyyatları başlatmışdır. Hazırda bir aydan artıqdır ki, davam edən müharibə həm ön cəbhədə artilleriya və ordu ilə həm də, arxa cəbhədə informasiya və diplomatiya sahəsində davam etdirilir.

Yuxarıda qeyd olunduğu kimi, dövlətimizin müharibəsi bir neçə istiqamətdə aparılır ki, bu istiqamətlərdən biri də “informasiya” istiqaməti və ya “informasiya” cəbhəsidir. Bu baxımdan, məhz belə bir həssas dönəmdə Azərbaycan - Ermənistan Dağlıq Qarabağ münaqişəsinin informasiya təhlili mühüm əhəmiyyət kəsb edir. Çünki bu gün “realıq” İNTERNET səhifələrindən alınan məlumatlarla qiymətləndirilir. Digər tərəfdən isə mətn təhlili getdikcə elmi və professional aləmdə daha çox populyarlaşır.

Arayışda müxtəlif axtarış platformalarda üç dildə - “Qarabağ”, “Karabakh” və “Карабах” açar sözləri ilə axtarış aparılmış və “mətn analizi” proqramları ilə onlar emal edilmişdir.

Google axtarış sistemindən “Qarabağ”, “Karabakh” və “Карабах” açar sözlərini daxil etdikdə təqribən 50 saniyə ərzində hər biri üzrə orta hesabla təqribən 20 milyon ətrarında ünvanlar tapılır. Lakin qrafik 1-dən göründüyü kimi rus və ingilis dilində

inforasiya səhifələrinin sayı çoxdur. Düzdür, bu məlumatlarn içində **“qarabax atlar”**, **“qarabax futbol klubu”** və s. siyasi vəziyyətlə əlaqəli olmayan məlumatlar da var.

Hər üç dildə axtarışı daha da dəqiqləşdirsək, bu gün gedən Vətən Müharibəsi haqqında olan informasiya axtarışı verildikdə yenə rus və ingilis dillərində olan məlumatların sayı çoxluq təşkil edir. Bu bir tərəfdən yaxşıdır, ona görə ki, informasiya müxtəlif dillərdə daha çox auditoriyaya yayılır, lakin digər tərəfdən bu “informasiyanın reallığı nə qədər doğru təsvir etməsi” sualını qarşıya çıxarır.

Bir il ərzində “Qarabağ” hadisələrinə olan marağı təhlil edək.




**Qrafik 1. “Qarabağ” kəlməsinin 3 dildə axtarışı**




**Qrafik 2. Mövcud müharibə ilə bağlı axtarış nəticəsi**




**məlumat Google Trends vasitəsi ilə emal olunub*

**Qrafik 3. Müxtəlif vaxtlarda “Qarabağ” ifadəsinin 3 dildə axtarışı və trendi**

Müxtəlif vaxtlarda “Qarabağ” ifadəsinin Azərbaycan, rus və ingilis dillərində axtarışı münaqişənin nisbətən alovlandığı vaxtlarda daha çox artmışdır. Qrafik 3-dən görünür ki, cari ilin 27 sentyabrından, yəni münaqişənin başladığı ilk gündən pik nöqtəsinə çatmışdır. Sonrakı günlərdə nisbətən azalsa da, əvvəlki dövrlərdən yüksək olaraq qalmışdır. Sorğu sayının artması ilə birgə informasiyanın sayı da artır.

Ən çox sorğuda istifadə edilən açar sözləri və onların axtarış domenləri cədvəldə təqdim edilir.

**Cədvəl 1. Ən çox sorğu verilən açar sözləri**

| Acar sözü | Tezlik | Sosial domenlər |
|---|---|---|
| **karabakh** | 880 | wikipedia, tripadvisor,twitter |
| **karabakh war** | 210 | wikipedia, amazon |
| **karabakh fc** | 170 | instagram, wikipedia, facebook, youtube |
| **nagorno karabakh map** | 30 | tripadvisor, pinterest, wikipedia, reddit, amazon |
| **karabakh fk** | 20 | twitter, linkedin, facebook, instagram, wikipedia |
| **karabakh conflict** | 20 | wikipedia, amazon, slideshare |
| **karabakh map** | 20 | wikipedia, pinterest, tripadvisor, amazon |
| **karabakh am** | 10 | wikipedia, tripadvisor |
| **karabakh carpet** | 10 | tumblr, linkedin, facebook, pinterest, wikipedia |

*https://serpstat.com/ proqramı tərəfindən emal olunub

Təhlil zamanı “Qarabağ” münaqişəsi ilə bağlı lider mənbələr cədvəl 2-də müəyyən edilmişdir.

**Cədvəl 2. “Qarabağ” münaqişəsi ilə bağlı lider səhifələr**

| **URL** | **Açar sözləri** | **Paylaşılıb Facebook** | **Trafik*** |
|---|---|---|---|
| https://wikitravel.org/en/Nagorno-Karabakh | 22 | 1 | 303 |
| https://www.aljazeera.com/indepth/inpictures/nagorno-karabakh-silent-war-door-180215082611944.html | 15 | 17 | 35 |
| https://blogs.kent.ac.uk/carc/2018/04/15/the-nagorno-karabakh-conflict/ | 15 | 9 | 67 |
| https://www.lonelyplanet.com/azerbaijan/nagorno-karabakh | 14 | 0 | 20 |
| https://cabmin.gov.az/en/page/69/ | 14 | 9 | 7 |
| https://www.cfr.org/interactive/global-conflict-tracker/conflict/nagorno-karabakh-conflict | 11 | 5 | 21 |
| https://theculturetrip.com/europe/armenia/articles/the-20-best-attractions-in-stepanakert-nagorno-karabakh/ | 10 | 1 | 0 |
| https://www.researchgate.net/figure/Top-Map-of-Armenia-and-Nagorno-Karabakh-Republic-Artsakh-and-surrounding-countries_fig5_255483837 | 10 | 0 | 4 |
| https://freedomhouse.org/report/freedom-world/2019/nagorno-karabakh | 9 | 1 | 0 |
| https://carto.com/blog/map-of-the-month-landmine-removal-nagorno-karabakh/ | 9 | 12 | 1 |

** Trafik - kompüter şəbəkələrindəki istifadəçi (giriş) və geri (çıxış) istiqamətində müəyyən bir müddət ərzində ötürülən məlumat həcmi. *https://serpstat.com/ proqramı tərəfindən emal olunub*

Qarabağ münaqişəsi ilə maraqlanan və bu barədə informasiya yerləşdirən dövlətlər arasında Ermənistan və Azərbaycan çoxluq təşkil edir. Lakin digər dövlətlər də bu və ya digər dərəcədə Qarabağla bağlı maraqlanır və öz auditoriyaları üçün informasiya təmin edirlər. Göründüyü kimi İnternetdə informasiya nə qədər xarici dildə yerləşdirilsə, bir o qədər reallıqlar daha geniş paylaşar.




** Google Trends*

**Qrafik 4. Qarabağla bağlı hadisələrə ən çox maraq göstərən ölkələr**

Qrafik 5-dən göründüyü kimi digər ölkələrdə Azərbaycan dilində informasiya axtarışı ilə məşğul olan azərbaycanlılar var. Digər dövlətlərdə yaşayan azərbaycanlılar o dölətlərdə reallığın tərənnümçüləri kimi böyük qüvvə ola bilər. Onlar Azərbaycan həqiqətlərini o dövlətlərdə paylaşa bilərlər.




** Google Trends*

**Qrafik 5. Müxtəlif dillərdə və ölkələrdə Qarabağla bağlı axtarış nəticəsi, %**

Mətn təhlilində **“Aylıq təəssüratlar”** və **“Regional Populyarlıq”** terminlərindən istifadə olunur.

Burada:

**“Aylıq təəssüratlar”** - müəyyən bir bölgədən gələn istəklər üçün mütləq səhifə təəssüratlarıdır.

**“Regional Populyarlıq”** - bir bölgə üzrə verilmiş bir açar söz üçün təəssüratların faiz nisbətidir və bu bölgəyə gələn axtarış nəticələrinin bütün təəssüratlarının faizinə bölünür.

Göstəricilər **100% -neytral**, **<100% əhəmiyyəti yoxdu**, **>100% əhəmiyyətli** intervalında ola bilər.

**Cədvəl 3. Dövlətlər arasında aylıq populyarlıq**

| «karabakh» açar sözünün populyarlığı: 14820 | | | «карабах» açar sözünün populyarlığı: 5540163 | | |
|---|---|---|---|---|---|
| **Ölkə** | **Aylıq təəssüratlar** | **Regional populyarlıq** | **Ölkə** | **Aylıq təəssüratlar** | **Regional populyarlıq** |
| Avrasiya | 14313 | 97% | Avrasiya | 5 519 897 | 99% |
| Rusiya | 8670 | 64% | Rusiya | 4 982 956 | 98% |
| Azərbaycan | 1347 | 11073% | Belarusiya | 95 721 | 71% |
| Ermənistan | 1251 | 9946% | Ermənistan | 88 141 | 1874% |
| Qazaxıstan | 610 | 163% | Azərbaycan | 71 876 | 1580% |
| ABŞ | 394 | 2239% | Qazaxıstan | 67 788 | 48% |
| Almaniya | 335 | 1916% | Ukrayna | 58 245 | 91% |
| Gürcüstan | 199 | 2423% | Gürcüstan | 17 440 | 568% |
| Belarusiya | 181 | 50% | ABŞ | 14 893 | 226% |
| Fransa | 165 | 2886% | Almaniya | 14 715 | 225% |
| Özbəkistan | 156 | 246% | Kareliya Resb. | 11 887 | 69% |
| Ukrayna | 145 | 85% | Özbəkistan | 11 135 | 46% |
| Türkiyə | 85 | 445% | Türkiyə | 9 584 | 134% |
| Türkmənistan | 84 | 1181% | Türkmənistan | 8 409 | 316% |
| Polşa | 75 | 1259% | Tacikistan | 8 358 | 127% |
| Hollandiya | 69 | 1368% | Moldova | 7 605 | 86% |
| Çin | 55 | 1274% | Qırğızıstan | 6 947 | 55% |
| Moldova | 52 | 222% | İsrail | 4 948 | 207% |
| Çex | 51 | 321% | Fransa | 4 765 | 223% |
| Kanada | 45 | 2033% | İsveç | 4 438 | 106% |
| Litva | 44 | 1357% | Çin | 3 088 | 191% |
| Latviya | 42 | 732% | Latviya | 2 997 | 139% |
| Tacikistan | 42 | 239% | Hollandiya | 2 769 | 146% |
| Bolqarıstan | 38 | 1931% | İspaniya | 2 499 | 189% |
| Belçika | 36 | 3629% | Çex | 2 105 | 35% |
| İsveç | 35 | 313% | Kanada | 2 095 | 253% |
| İspaniya | 33 | 933% | Estoniya | 1 935 | 130% |
| İtaliya | 28 | 802% | Litva | 1 923 | 158% |
| B.Ə.Ə. | 24 | 1940% | Polşa | 1 833 | 82% |
| Serbiya | 24 | 2098% | Afrika | 1 732 | 72% |
| İsrail | 23 | 360% | Bolqarıstan | 1 710 | 232% |
| Xorvatiya | 23 | 9606% | Kipr | 1 457 | 344% |
| Slovakiya | 18 | 3137% | İtaliya | 1 404 | 107% |
| Estoniya | 16 | 403% | Finlandiya | 1 231 | 126% |
| Avstriya | 14 | 1241% | Belçika | 1 090 | 293% |
| Macarıstan | 13 | 1888% | Cənubi Koreya | 946 | 88% |
| Hindistan | 13 | 213% | Avstriya | 891 | 211% |
| Cənubi Koreya | 12 | 420% | İsveçrə | 734 | 178% |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İndoneziya | 11 | 78% | | Yunanıstan | 687 | 223% |
| Kareliya Resb. | 11 | 24% | | Serbiya | 651 | 152% |
| Yunanıstan | 10 | 1215% | | B.Ə.Ə. | 628 | 135% |
| Yaponiya | 9 | 805% | | Norveç | 611 | 190% |
| Danimarka | 8 | 1798% | | Misir | 489 | 78% |
| Norveç | 7 | 817% | | Avstraliya | 368 | 163% |
| Finlandiya | 7 | 269% | | Hindistan | 361 | 15% |
| İsveçrə | 7 | 635% | | Macarıstan | 303 | 117% |
| Rumıniya | 6 | 877% | | Portuqaliya | 260 | 95% |
| Avstraliya | 5 | 830% | | Danimarka | 250 | 150% |
| Argentina | 4 | 477% | | Slovakiya | 243 | 113% |
| Braziliya | 4 | 89% | | Tayland | 235 | 12% |
| Meksika | 3 | 233% | | Meksika | 191 | 39% |
| Yeni Zelandiya | 3 | 1710% | | Rumıniya | 180 | 70% |
| Portuqaliya | 3 | 412% | | Braziliya | 175 | 10% |
| Misir | 2 | 120% | | Xorvatiya | 123 | 137% |
| Sloveniya | 2 | 815% | | Argentina | 95 | 30% |
| Kipr | 1 | 88% | | Yeni Zelandiya | 72 | 109% |
| | | | | İngiltərə | 38 | 364% |

* *https://wordstat.yandex.ru proqramı ilə emal olunub*

Qarabağla bağlı 1 il ərzində ən çox populyar olan açar sözləri rus, ingilis və Azərbaycan dillərində aşağıdakı qrafiklərdə verilmişdir.




**Qrafik 6. Qarabağla bağlı ən populyar açar sözləri (rus dilində)**




**Qrafik 7. Qarabağla bağlı ən populyar açar sözləri (ingilis dilində)**




**Qrafik 8. Qarabağla bağlı ən populyar açar sözləri (Azərbaycan dilində)**

Bütün proqramlarla emal olunan ən populyar açar sözləri ümumiləşdirsək qrafik 9-dakı nəticəni alarıq.




**Qrafik 9. Regonal tanınma**




**https://wordstat.yandex.ru/*

**Qrafik 10**

Qrafik 11-də Rusiyada aylıq təəssürat göstəricisi o biri ölkələrdən kəskin fərqləndiyindən onu qrafikə salmaq mümkün deyil.




**Qrafik 11. Aylıq təəssüratları yüksək olan ölkələr**

**Mangools** (https://app.kwfinder.com/) proqramı vasitəsi ilə açar sözləri emal olunaraq populyar informasiya mənbələri müəyyən edilmişdir.

**Cədvəl 4. Mangools proqramı vasitəsi ilə müxtəlif dillərdə “Qarabağ” hadisələri ilə bağlı axtarış nəticələri**

| Açar sözləri | Axtarışın orta aylıq həcmi |
|---|---|
| artsakh | 25000 |
| nagorno karabakh | 22100 |
| karabakh | 19000 |
| qarabağ | 13000 |
| karabag | 7100 |
| nagorno karabakh war | 5200 |
| nagorno karabaj | 2600 |
| górski karabach | 2100 |
| berg karabach | 2000 |
| nagorny karabach | 1900 |
| nagorno karabakh map | 1000 |
| karabakh armenia | 990 |
| armenia karabakh | 990 |
| nagorno | 960 |
| karabakh map | 930 |
| nagorno karabakh republic | 870 |
| artsakh news | 450 |
| karabakh news | 330 |
| dağlık karabağ haritası | 190 |
| armenia nagorno karabakh | 160 |
| nagorno karabakh region | 160 |

Bəzi açar sözlərini geniş təhlil edək. Ən yüksək axtarışın aylıq orta həcminə malik olan "Artsakh" acar sözünün çox rast gəlindiyi səhifələrıi müəyyən edək.

**Cədvəl 5. "Artsakh" sözü ilə ən şox oxunan internet səhifələri**

| № | İnternet saytının adı | URL |
|---|---|---|
| 1 | Republic of Artsakh - Wikipedia | en.wikipedia.org/wiki/Republic_of_Artsakh |
| 2 | Artsakh (historic province) - Wikipedia | en.wikipedia.org/wiki/Artsakh_(historic_province) |
| 3 | Serj Tankian on the threat of genocide in Artsakh \| The FADER | www.thefader.com/2020/10/30/serj-tankian-on-the-threat-of-genocide-in-artsakh |
| 4 | Artsakh Republic: History and Current Reality - Armenia - The . | www.president.am/en/Artsakh-nkr/ |
| 5 | Armenian Babies Become Military Targets As Azerbaijan | greekcitytimes.com/2020/10/30/armenian-babies-artsakh/ |
| 6 | Artsakh & Azerbaijan Conflict Resource Page \| Glendale ... | www.glendale.edu/academics/special-programs/student-equity-programs/cultural-diversity/artsakh-azerbaijan-conflict-resource-page?fbclid=IwAR0Z0HlQbYw3rWVosYeje-NQfibs90fpeaWgd5-zt5HlDlNa5qVxfGM1_G4 |
| 7 | Proposal to Launch Armenia-Artsakh Reconstruction Bonds ... | mirrorspectator.com/2020/11/01/proposal-to-launch-armenia-artsakh-reconstruction-bonds-open-letter-to-pm-pashinyan/ |
| 8 | Artsakh Travel \| Political Holidays | www.politicalholidays.com/artsakh-tours |
| 9 | How to Visit Artsakh, the Country That Doesn't Exist - A . | www.bucketlistly.blog/posts/how-to-visit-artsakh-nagorno-karabakh-backpacking-guide |
| 10 | EAFJD Artsakh Timeline | www.eafjd.eu/nkr.html |
| 11 | U.S. Policy on Artsakh \| Peace & Freedom - Armenian ... | anca.org/issue/u-s-policy-on-artsakh-peace-freedom/ |
| 12 | Artsakh - MassisPost | massispost.com/armenia/artsakh/ |
| 13 | Nagorno Karabakh (Artsakh): Historical and Geographical ... | www.nkrusa.org/country_profile/history.shtml |
| 14 | Artsakh (Nagorno Karabakh) and Azerbaijan – ANCA Western ... | ancawr.org/resources/artsakh/ |
| 15 | Republic of Artsakh \| Rotary Club of Westbrook-Gorham | portal.clubrunner.ca/6948/Stories/republic-of-artsakh |
| 16 | Arayik Harutyunyan \| Artsakh President (@Pres_Artsakh ... | twitter.com/pres_artsakh |
| 17 | MFA of Artsakh (@mfankr) \| Twitter | twitter.com/mfankr |
| 18 | Proposal to Launch Armenia-Artsakh Reconstruction Bonds ... | mirrorspectator.com/2020/11/01/proposal-to-launch-armenia-artsakh-reconstruction-bonds-open-letter-to-pm-pashinyan/ |

**Cədvəl 6. “Karabakh” sözü ilə ən şox oxunan internet səhifələri**

| № | Sayt | URL |
|---|---|---|
| 1 | Karabakh - Wikipedia | en.wikipedia.org/wiki/Karabakh |
| 2 | Nagorno-Karabakh - Wikipedia | en.wikipedia.org/wiki/Nagorno-Karabakh |
| 3 | Azerbaijan says Armenia used cluster bombs in deadly Barda ... | www.aljazeera.com/news/2020/10/28/azerbaijan-says-21-dead-in-armenia-attack-near-nagorno-karabakh |
| 4 | Hospital, residential areas hit in Nagorno-Karabakh fighting | apnews.com/article/europe-azerbaijan-armenia-2a63dad13bcdb456030e19221bdfbd2d |
| 5 | Live updates: Day 32 of Nagorno-Karabakh fighting - OC Media | oc-media.org/live-updates-day-32-of-nagorno-karabakh-fighting/ |
| 6 | Nagorno-Karabakh \| History, Map, & Conflict \| Britannica | www.britannica.com/place/Nagorno-Karabakh |
| 7 | Nagorno-Karabakh - BBC News - BBC.com | www.bbc.com/news/topics/cvenzmgyg88t/nagorno-karabakh |
| 8 | Nagorno-Karabakh Conflict \| Global Conflict Tracker | www.cfr.org/global-conflict-tracker/conflict/nagorno-karabakh-conflict |
| 9 | Karabakh says Azerbaijan forces closing in on key town of ... | www.france24.com/en/live-news/20201029-karabakh-says-azerbaijan-forces-closing-in-on-key-town-of-shusha |
| 10 | Nagorno-Karabakh: news, videos, reports and analysis ... | www.france24.com/en/tag/nagorno-karabakh/ |
| 11 | Nagorno-Karabakh: Searching for a Solution \| United States ... | www.usip.org/publications/1998/12/nagorno-karabakh-searching-solution-0 |
| 12 | Armenian and Azerbaijani Fighters in Nagorno-Karabakh ... | foreignpolicy.com/2020/10/29/fighters-say-no-political-solution-nagorno-karabakh-armenia-azerbaijan-war/ |
| 13 | At Front Lines of Armenia-Azerbaijan Fighting, Death and Fear ... | www.nytimes.com/2020/10/18/world/europe/Nagorno-Karabakh-war-Armenia-Azerbaijan.html |
| 14 | The Nagorno-Karabakh Conflict: A Visual Explainer \| Crisis ... | www.crisisgroup.org/content/nagorno-karabakh-conflict-visual-explainer |
| 15 | The wheel turns - The fighting in Nagorno-Karabakh reflects ... | www.economist.com/europe/2020/10/29/the-fighting-in-nagorno-karabakh-reflects-decades-of-conflict |
| 16 | Karabakh.org - Karabakh conflict and history | karabakh.org/ |

**Mangools** (https://app.kwfinder.com/) proqramı vasitəsilə müəyyən olunmuş populyar informasiya mənbələrində məlumatların hər biri reallığa **“neqativ”**, **“pozitiv”** və **“neytral”** nöqteyi-nəzərindən təhlil edilib. Bu təhlildən məlum olur ki, “neytral” hesab edilən informasiyaların çox hissəsi də reallıqdan daha çox neqativliyə yönümlüdürlər. Ona görə də qiymətləndirmədə 4 şkala: “-1”, “-0,5”, “1”, “0,5” istifadə edilib.

Hər səhifədə “Qarabağ” hadisələrinə aid olan məlumatları bir-bir qiymətləndirdikdən sonra “İnternetdə məlumatın reallıq indeksi” hesablanmışdır.




**Qrafik 12. İnternetə məlumatın reallıq indeksi**

Burdan da göründyü kimi "İnternetdə məlumatın reallıq indeksi", b.s. məlumatlar reallıqdan çox uzaqdırlar.

## ƏDƏBİYYAT


1. Автоматическая обработка текстов на естественном языке и анализ данных : учеб. пособие / Большакова Е.И., Воронцов К.В., Ефремова Н.Э., Клышинский Э.С., Лукашевич Н.В., Сапин А.С. — М.: Изд-во НИУ ВШЭ, 2017. — 269 с.
2. Sumathy K. L. Chidambaram M. Text Mining: Concepts, Applications, Tools and Issues — An Overview // International Journal of Computer Applications. — 2013. — October. — Vol. 80, no. 4. — P. 29–32
3. https://trends.google.com
4. https://serpstat.com/
5. https://app.kwfinder.com/
6. https://wordstat.yandex.ru/


## *ИНДЕКС РЕАЛЬНОСТИ ИНФОРМАЦИИ О КАРАБАХСКИХ СОБЫТИЯХ В ИНТЕРНЕТЕ*


*Арзу ГУСЕЙНОВА,*
*Эльнур АЛЕКПЕРОВ*



***Резюме***

*В статье рассмотрены вопросы увеличения объема информации в период развития цифровизации и применения новых методов обработки больших объемов информации с использованием современного программного обеспечения, с помощью интеллектуальных методов проанализированы большие объемы информации, показаны проблемы применения интеллектуальных методов в Азербайджане. Предметом анализа является актуальная для Азербайджана тема Карабаха. Используя различные программы интеллектуального анализа, был проанализирован поток информации по*

*заданной теме, результаты поиска и т.д. и рассчитан "Индекс реальности информации в Интернете".*

***Ключевые слова:*** *методы интеллектуального анализа, анализ текста, информация, информационная война, индекс реальности*

## *REALITY INDEX OF INFORMATION ABOUT KARABAKH EVENTS ON THE INTERNET*

*Arzu HUSEYNOVA,*
*Elnur ALEKBEROV*

**Abstract**

*The article discusses the issues of increasing the volume of information during the development of digitalization and the application of new methods of processing large amounts of information, using modern software, using intelligent methods, analyzing large amounts of information, showing the problems of using intelligent methods in Azerbaijan. The subject of analysis is the topic of Karabakh, which is topical for Azerbaijan. Using a variety of programs of intellectual analysis, the flow of information on a given topic, search results, etc. was analyzed and the "Internet information reality index" was calculated.*

***Key words:*** *intelligent methods of analysis, text analysis, information, information warfare, reality index*

UOT 330.43

# *QEYRİ-NEFT SEKTORUNA MÜXTƏLİF İQTİSADİ TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ (QEYRİ-NEFT EMALI SƏNAYESİ TİMSALINDA)*

***Arzu Sahib oğlu SÜLEYMANOV***
*Azərbaycan Texniki Universitetinin İqtisadiyyat və Statistika kafedrasının müdiri,*
suleymanov.arzu@gmail.com

***Xülasə***

*Məqalədə qeyri-neft emalı sənayesində iqtisadi təsirlərin qiymətləndirilməsi və təhlili məsələlərinə baxılmışdır. Məqalənin məqsədini Azərbaycan iqtisadiyyatında qeyri-neft emalı sənayesi üzrə ümumi tarazlıq modellərindən istifadə etməklə sahəvi təsirlərin qiymətləndirilməsi və təhlillərin aparılması təşkil edir. Tədqiqatın obyekti Azərbaycan iqtisadiyyatında qeyri-neft emalı sənayesi və Sosial Hesablar Matrisindən ibarətdir. Tədqiqatın predmeti Azərbaycan iqtisadiyyatında qeyri-neft emalı sənayesi üzrə inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və SHM vasitəsilə qiymətləndirmələrin aparılmasıdır. Tədqiqat işində riyazi modelləşdirmə, müqayisəli təhlil, sintez, analiz, qrafik təsvir, funksional təhlil kimi tədqiqat üsullarından istifadə olunmuşdur.*

***Açar sözlər:*** *emal sənayesi, qeyri-neft emalı sənayesi, kapital qoyuluşları, balans modelləri, multiplikator modelləri, Sosial Hesablar Matrisi, sahəvi təsirlər, ekonometrik qiymətləndirmə.*

## GİRİŞ

Cari dövrdə Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun davamlı və dayanıqlı inkişafının prioritet seçilmişdir. Qeyri-neft sektorunun inkişafı dedikdə isə, əlaqədar istiqamətlərin inkişafına nail olmaq vəzifələrinin qarşıya qoyularaq yerinə yetirilməsi tələbi yaranır. Bu istiqamətlərdən biri kimi qeyri-neft emalı sənayesinin iqtisadi baxımdan təhlil edilərək qiymətləndirilməsi ilə inkişaf etdirilməsi önəm kəsb edir. Qeyri-neft emalı sənayesinin daha da inkişaf etdirilməsi yerli istehsalın artmasına, idxaldan asılılığın azalması ilə ixracın artmasına, iş yerlərinin yaranmasına və s müsbət təsirlər göstərə bilər. O cümlədən də, digər iqtisadi sahələrin inkişafı üçün zəmin yarada bilər.

Qeyd olunanlar əsas götürüldükdə, Qeyri-neft sektoruna müxtəlif iqtisadi təsirlərin qiymətləndirilməsi (Qeyri-neft emalı sənayesi timsalında) mövzusunda yerinə yetirilən tədqiqat işinin aktual olduğunu söyləmək mümkündür.

Məqalənin nəzəri əhəmiyyəti makroiqtisadi səviyyədə qeyri-neft emalı sənayesi üzrə SHM əsasında sahəvi təsirlərin qiymətləndirilməsi imkanlarının inkişaf etdirilməsindən, praktiki əhəmiyyəti isə, ondan alınmış nəticələrin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun İş Planında müvafiq olaraq qeyd olunmuş istiqamət üzrə yerinə yetirilmiş olmasıdır.

Məqalədə sahəvi təsirlərin qiymətləndirilməsində istifadə olunan SHM modeli Azərbaycan Respublikasının Milli Hesablar Sisteminin göstəricilərinə əsaslanmaqla, Birləşmiş Millətlər Təşkilatının qeyd olunan məsələlərlə bağlı təlimat və qaydalarına uyğun tərtib olunmuşdur. Bu əsasda Azərbaycan iqtisadiyyatı üzrə hazırlanmış SHM əsasında emal sənayesi iqtisadi sahəsi neft və qeyri-neft olmaq üzrə ayrılmışdır. Daha sonra isə, multiplikator modeli qurularaq simulyasiyalar yerinə yetirilmişdir.

**Emal sənayesi iqtisadi sahəsi üzrə Azərbaycanda mövcud vəziyyətin təhlili**

Ümumilikdə sənaye iqtisadi sahəsinin inkişaf etdirilməsi ölkənin iqtisadi inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Azərbaycan sənaye bir neçə əsas makroiqtisadi göstəriciyə nəzər salaq. İlk öncə sənaye üzrə əlavə dəyər və əsas kapitala investisiyaların 2005-2019-cu illər üzrə dinamikalarını təhlil edək (şəkil 1).




*Mənbə: ARDSK-nın məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.*

**Şək. 1. Sənaye üzrə əlavə dəyər və əsas kapitala investisiyalar**

Sənaye üzrə 2014-cü ildə 2005-ci illə müqayisədə əlavə dəyər 3.9, əsas kapitala investisiyalar isə 1.8 dəfə artmışdır. Şəkildən də göründüyü kimi, dinamikada azalmalar əsas olaraq 2009 və 2015-ci illərdə müşahidə olunmuşdur. 2009-cü ildəki azalmaya səbəb dünyada maliyyə böhranının nəticəsidir. Həmin proseslərdə Azərbaycan iqtisadiyyatı stabilliyini qorusa da dünya ölkələrində qeyd olunan təsirlər ciddi hiss olunmuşdur ki, bu da ölkə iqtisadiyyatına az da olsa dolayısı ilə təsir etmişdir. 2015-ci ildəki azalma isə dünya bazarında neft qiymətlərinin kəskin aşağı düşməsi səbəbindən baş vermişdir. Azərbaycan iqtisadiyyatı daha çox neft sektoru və ondan gələn gəlirlərə əsaslandığından baş vermiş bu qiymət azalmaları ölkə iqtisadiyyatına müəyyən təsirlər etmişdir. 2015-ci ildən başlayaraq ciddi artım dinamikası göstərərək 2018-ci ildə müşahidə olunan aralıqda ən yüksək qiymətini almışdır.

Xüsusən də cari dövrdə qeyri-neft sektorunun və ixrac qabiliyyətli məhsul və xidmətlərin istehsal edilməsi prioritet istiqamət seçilmişdir ki, bu da öz növbəsində sənayenin inkişafından müəyyən qədər asılıdır. Qeyd edilməlidir ki, sənaye özü müxtəlif hissələrə ayrılır. Bu hissələrdən emal sənayesi ölkədə iqtisadiyyatın diversifikasiyasına xidmət edir.

Aşağıdakı şəkildə emal sənayesi iqtisadi sahəsi üzrə ÜDM istehsalı 2001-2019-cü illəri əhatə etməklə verilmişdir.




*Mənbə: ARDSK-nın məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.*

**Şək. 2. Emal sənayesi üzrə ÜDM istehsalı (2005-ci ilin qiymətləri ilə)**

Şəkil 3-də isə emal sənayesi üzrə ÜDM istehsalının ÜDM-də payı hesablanaraq qrafik olaraq təsvir edilmişdir.




*Mənbə: ARDSK-nın məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.*

**Şək. 3. Emal sənayesi üzrə ÜDM istehsalının cəmi ÜDM-də payı**




*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şək. 4. Emal sənayesi iqtisadi sahəsində məcmu tələbin neft və qeyri-neft sektorları üzrə faiz bölgüsü**

Emal sənayesi tərkibində neft və qeyri-neft sektoru üzrə təhlilin aparılması xüsusi əhəmiyyət kəsb edir. Şəkil 4-də 2011-ci ilin rəsmi statistik məlumatları, Milli Hesablar Sisteminin göstəriciləri və məhsul və xidmətlərin ehtiyat istifadə cədvəlləri əsasında hazırlanmış SHM rəqəmləri əsasında emal edilmiş neft məhsulları və qeyri-neft emalı üzrə faiz payı göstərilmişdir.

**Metodologiya**

Qeyri-neft emalı sənayesi üzrə iqtisadi təsirlərin qiymətləndirilməsi məqsədilə Sosial Hesablar Matrisi (SHM) və onun əsasında hazırlanmış multiplikator modeli vasitə olaraq seçilmişdir. ARDKS iqtisadi sahələr üzrə məhsul və xidmətlərin sahələrarası balansını 19 iqtisadi sahə üzrə təqdim etdiyini nəzərə alaraq, emal sənayesi iqtisadi sahəsi neft və qeyri-neft üzrə ayrılaraq SHM-ə daxil edilmişdir. Bu halda, qeyri-neft emalı sənayesi üzrə iqtisadi təsirləri SHM və onun multiplikator modeli vasitəsilə qiymətləndirmək mümkün olmuşdur.

Eyni zamanda, ümumilikdə sənaye üzrə ÜDM istehsalı və ÜDM arasındakı münasibət ekonometrik üsullardan istifadə edilərək qiymətləndirilmişdir.

**Qiymətləndirmələrin aparılması**

**SHM multiplikator modelindən istifadə etməklə iqtisadi təsirlərin qiymətləndirilməsi.** SHM əsasında qurulmuş ümumi multiplikator modeli vasitəsilə neft və qeyri-neft emalı sənayesi üzrə ekzogen tələbin artırılmasının 20 iqtisadi sahə üzrə və ümumilikdə məcmu tələbə təsirləri simulyasiya edilmişdir. İlk öncə neft emalı sənayesi üzrə ekzogen tələb 20% artırılmışdır (şəkil 5). Verilmiş şok nəticəsində 20 iqtisadi sahə üzrə artımlar şəkildə təsvir olunur.




*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şək. 5. Neft emalı sənayesi üzrə ekzogen tələbin 20% artımı**

Nəticələr göstərir ki, neft emalı iqtisadi sahəsi üzrə ekzogen tələbin 20% artımı nəticəsində həmin iqtisadi sahənin məcmu tələbi 7.03% artmışdır. Cəmi məcmu tələbi isə, 0.448% artmışdır.

Eyni qayda ilə qeyri-neft sənayesi iqtisadi sahəsi üzrə simulyasiyalar aparılır. Belə ki, qeyri-neft emalı sənayesi iqtisadi sahəsində ekzogen tələb 20% artırılır (şəkil 6). Bu halda, qeyri-neft sənayesi iqtisadi sahəsi üzrə məcmu tələbin 7.61%, cəmi məcmu tələbin isə, 1.343% artmışdır. Eyni ilə şəkil 6-da verilmiş artımın digər sahələrdə yaratdığı təsirlər faiz olaraq verilmişdir.

Aparılmış hər iki artım qarşılıqlı təhlil edilərsə, qeyri-neft emalı sənayesinin daha çox məcmu tələbin artırdığını söyləmək mümkündür. Buna səbəb olaraq qeyri-neft sənayesinin cəmi emal sənayesində payının yüksək olması ilə bağlıdır. Hansı sahənin daha yüksək əmsalla məcmu tələbin təsir etdiyini hesablamaq ehtiyacı yaranır. Bu məqsədlə ekzogen tələbin vahid artımına uyğun olaraq hər iki sahə üzrə mltiplikator

əmsallarını hesablayaq. Neft emalı sənayesi üzrə multiplikator əmsalı 2.2, qeyri-neft emalı sənayesi üzrə isə, 1.5 alınır. Bu isə, neft emalı sənayesinin qeyri-neft emalı sənayesi ilə müqayisədə məcmu tələbə daha çox təsir etdyini söylməyə imkan verir.




*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

**Şək. 6. Qeyri-neft emalı sənayesi üzrə ekzogen tələbin 20% artımı**

Qeyri-neft emalı sənayesi iqtisadi sahəsi üzrə kapital qoyuluşlarının həmin sahənin ekzogen tələbində payı 85.05% təşkil edir. Bu isə, qeyd olunan iqtisadi sahəyə kapital qoyuluşlarının kifayət qədər yüksək olması deməkdir. Lakin, neft emalı sənayesi iqtisadi sahəsi üzrə kapital qoyuluşları mövcud deyildir. Bu baxımdan da, həmin sahə üzrə simulyasiya qiymətləndirməsinin aparılması nəticə baxımından effektli hesab olunmur. Multiplikator əmsalları ümumi multiplikator modelində olduğu kimidir.

Şərh olunan fikirləri əsas götürərək şəkil 7-də qeyri-neft emalı sənayesi iqtisadi sahəsi üzrə kapital qoyuluşlarının 20% artırılması əsasında simulyasiya həyata keçirilmişdir.




*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

**Şək. 7. Qeyri-neft emalı sənayesi üzrə kapital qoyuluşlarının 20% artımı**

Nəticələr göstərir ki, qeyri-neft emalı iqtisadi sahəsi üzrə kapital qoyuluşlarının 20% artırılması cəmi məcmu tələbi 1.14% artırmışdır. Sahənin özündə isə, məcmu tələb 6.47% artmışdır. Şəkil 7-də qeyd olunan artımın 20 iqtisadi sahə üzrə təsirləri əks olunur.

**Ekonometrik qiymətləndirmə nəticələri**

Tədqiqat işində ümumilikdə emal sənayesi üzrə ÜDM istehsalı (man_ind) və ÜDM (gdp) arasındakı münasibət ekonometrik qiymətləndirilmişdir. Bu məqsədlə 2001-ci ildən başlamaqla 2016-cı ilin ikinci rübünə qədər olan rüblük məlumatlar istifadə olunmuşdur. Ekonometrik qiymətləndirmə modeli EViews proqram paketi vasitəsilə yerinə yetirilmişdir.

İstifadə olunan məlumatlar: emal sənayesi üzrə ÜDM istehsalı, ÜDM.

Modeldə istifadə olunan məlumatlar ÜDM deflyatoru vasitəsilə real ifadəyə çevrilmişdir.




*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

**Şək. 8. Real ifadədə məlumatların qrafik təsviri**

Qrafik təsvirlər zaman sıralarında mövsümü təsirlərin olduğunu göstərir. Bu məqsədlə, həmin təsirlər aradan qaldırılır. emal sənayesi üzrə ÜDM istehsalı (man_ind_sa) və ÜDM (gdp_sa) (sa-seasonal adjustment (mövsümü təsirlər)).




*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

**Şək. 9. Mövsümi təsirlərin aradan qaldırılması**

Beləliklə, sıralardan mövsümi təsirlər aradan qaldırılmışdır. Növbəti mərhələdə sıralardan stasionarlıq probleminin təmin olunmasına ehtiyac vardır. İlk öncə Dickey Fuller və Philips Perron testlərini yoxlayaq.

**Cədvəl 1. Modeldə istifadə olunan dəyişənər üzrə vahid kök testinin yoxlanılması**

| | ADF testi | | | PP testi | | |
|---|---|---|---|---|---|---|
| Dəyişənlər | İntercept | intercept və trend | none | İntercept | intercept və trend | none |
| man_ind_sa | -1.71 | -2.20 | -0.36 | -1.61 | -2.18 | -0.34 |
| gdp_sa | -2.11 | -2.40 | 0.23 | -2.05 | -2.39 | 0.25 |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

Nəticələr sıralarda stasionarlığın təmin olunmadığını əks etdirir. Bu məqsədlə sıralarda birinci tərtib fərqlərin tapılmasına gərək vardır. Növbəti cədvəldə sıralarda birinci tərtib fərqləri tapmaqla yenidən qeyd olunan testləri yoxlayaq.

**Cədvəl 2. Vahid kök testi, birinci tərtib fərqlərlə**

| | ADF testi | | | PP testi | | |
|---|---|---|---|---|---|---|
| Dəyişənlər | İntercept | intercept və trend | none | İntercept | intercept və trend | None |
| man_ind_sa | -8.47*** | -8.40*** | -8.54*** | -8.48*** | -8.41*** | -8.56*** |
| gdp_sa | -8.00*** | -7.94*** | -8.01*** | -8.00*** | -7.95*** | -8.01*** |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

Alınmış nəticələr sıralarda tam olaraq stasionarlığın təmin olunduğunu göstərir. Beləliklə, alınmış sıralar ekonometrik olaraq reqresiya modelini qurmağa imkan verir. Nəticələri daha da yaxşılaşdırmaq məqsədilə 2009-cu ilin birinci rübündə kənara çıxmanı aradan qaldırmaq lazımdır. Fiktiv dəyişən (dummy variable) əlavə etməklə model nəticələrini daha da yaxşılaşdırmaq mümkün olur. 2009-cu ildə yaranmış kənarlaşmanın səbəbi həmin dövrdə dünyada baş vermiş maliyyə böhranı ilə əlaqədardır.

Qeyd olunanları nəzərə alaraq ekonometrik model qurulur. Xətti reqresiya modelinin nəticələri aşağıdakı kimi alınmışdır.

Dependent Variable: D_GDP_SA
Method: Least Squares
Date: 12/07/16 Time: 18:32
Sample (adjusted): 2001Q2 2015Q4
Included observations: 59 after adjustments

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| D_MAN_IND_SA | 13.72398 | 1.710303 | 8.024299 | 0.00000 |
| D2009Q1 | -1444.037 | 151.5773 | -9.526742 | 0.00000 |
| C | 1444.97 | 150.2148 | 9.619358 | 0.00000 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.766495 | Mean dependent var | 23.30583 |
| Adjusted R-squared | 0.758155 | S.D. dependent var | 301.7781 |
| S.E. of regression | 148.4075 | Akaike info criterion | 12.88731 |
| Sum squared resid | 1233388 | Schwarz criterion | 12.99295 |
| Log likelihood | -377.1756 | Hannan-Quinn criter. | 12.92855 |
| F-statistic | 91.91173 | Durbin-Watson stat | 1.781454 |
| Prob(F-statistic) | 0.000000 | | |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

**Şək. 10. Emal sənayesinin ÜDM-yə təsirinin ekonometrik qiymətləndirilməsi modelinin nəticələri**

Statistik testlər qurulmuş modelin adekvat olduğunu göstərir. Belə ki, model real əlaqəni 76.6% (R-squared=0.766) əks etdirir. O cümlədən Durbin-Vatson əmsalı da 2-yə yaxın rəqəmdir. İndi isə keçək əmsallara. Hər iki izahedici dəyişən və sabit statistik olaraq əhəmiyyətlidir.

Beləliklə, model nəticəsi riyazi formada aşağıdakı kimidir:

$$\Delta gdp_sa = 13.72 * \Delta man_ind_sa - 1444.04 * D2009Q + 1444.97$$

Emal sənayesi üzrə ÜDM istehsalının artımın vahid artımı ÜDM artımının 13.72 vahid artmasına səbəb olur. Bu isə kifayət qədər kifayət qədər mühüm rəqəmdir.

Beləliklə həm SHM multiplikator, həm də ekonometrik qiymətləndirmələr əsasında alınmış nəticələr iqtisadi proseslərdə təsir analizlərinin aparılmasında istifadə oluna bilər.

**Nəticə və təkliflər**

Aparılmış təhlil və yerinə yetirilmiş qiymətləndirmələrdən aşağıdakı nəticələr əldə edilmişdir:

- Neft emalı iqtisadi sahəsi üzrə ekzogen tələbin 20% artımı nəticəsində həmin iqtisadi sahənin məcmu tələbi 7.03%, cəmi məcmu tələbi isə, 0.448% artır;
- Qeyri-neft sənayesi iqtisadi sahəsi üzrə ekzogen tələbin 20% artımı nəticəsində həmin sahənin məcmu tələbi 7.61%, cəmi məcmu tələb isə, 1.343% artır;
- Qeyri-neft emalı iqtisadi sahəsi üzrə kapital qoyuluşlarının 20% artırılması həmin sahənin məcmu tələbinin 6.47%, cəmi məcmu tələbin isə, 1.14% artmasına səbəb olur;
- Neft emalı sənayesi üzrə multiplikator əmsalı 2.2, qeyri-neft emalı sənayesi üzrə isə, 1.5 alınır;
- Emal sənayesi üzrə ÜDM istehsalının artımın vahid artımı ÜDM artımının 13.72 vahid artmasına səbəb olur.

## ƏDƏBİYYAT


1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il №800 nömrəli Fərmanı.
2. “Azərbaycanın Milli Hesabları” statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2013.
3. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun “Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin hazırlanması üzrə görülmüş işlər barədə” hesabatı, Bakı 2012, 120 s.
4. Mehdiyev M.M. Sosial hesablar matrisi və iqtisadiyyatda multiplikativ effektlərin hesablanması modeli // İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Əsərlər Toplusu, 2012, XII buraxılış, s.236-264.
5. Süleymanov A.S., Ələkbərov E.E, Rüstəmov E.Ş. Azərbaycan iqtisadiyyatı üçün kapital qoyuluşlarının sahəvi təsirlərinin qiymətləndirilməsi // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Əsərlər Toplusu, 2016, №3, s.55-63.
6. Сулейманов А.С., Рустамов Э.Ш. Оценивание Мультипликативных Эффектов Капитальных Вложений На Основе Матрицы Социальных Счетов // Фундаментальные исследования, 2016, № 9, ч. 1, с.192-197.
7. www.stat.gov.az ARDSK-nın rəsmi internet səhifəsi
8. www.economy.gov.az AR İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi

**Əlavə 1**

SHM əsasında qeyri-neft emalı sənayesi üzrə simulyasiya aparmağa imkan verən ümumi multiplikator modeli

**SAM ümumi multiplikator MODELİ (SAM-ın tam xərclər matrisi) Z=(I-M)^-1* E**

| | | E Ekzogen tələb vektoru | Z məcmu tələb vektoru | SAM Ümumi multiplikator modelinin simulyasiya hissəsi | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | E Ekzogen tələb vektorunun artım faizi | E Ekzogen tələb vektorunun artımı | Z məcmu tələb vektorunun alınan nəticəsi | Z məcmu tələbin artımı | Z məcmu tələbin artım %-lə |
| ƏMTƏLƏR | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 618401 | 5004615 | 1.000 | 618401 | 5004615 | 0.000 | 0.00 |
| | Mədənçıxarma sənayesi | 24877872 | 26986490 | 1.000 | 24877872 | 26986490 | 0.000 | 0.00 |
| | Emal edilmiş neft məhsulları | 853530 | 2915562 | 1.000 | 853530 | 2915562 | 0.000 | 0.00 |
| | Emal sənayesi (qeyri-neft) | 3799819 | 11530677 | 1.000 | 3799819 | 11530677 | 0.000 | 0.00 |
| | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 118702 | 1686106 | 1.000 | 118702 | 1686106 | 0.000 | 0.00 |
| | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 36.024 | 197929 | 1.000 | 36 | 197929 | 0.000 | 0.00 |
| | Tikinti | 7283802 | 10405813 | 1.000 | 7283802 | 10405813 | 0.000 | 0.00 |
| | Ticarət; nəqliyyat vasitələrinin təmiri | 191431 | 5111125 | 1.000 | 191431 | 5111125 | 0.000 | 0.00 |
| | Nəqliyyat və anbar təsərrüfatı | 1492208 | 4777270 | 1.000 | 1492208 | 4777270 | 0.000 | 0.00 |
| | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 497067 | 1544984 | 1.000 | 497067 | 1544984 | 0.000 | 0.00 |
| | İnformasiya və rabitə | 55007 | 1405569 | 1.000 | 55007 | 1405569 | 0.000 | 0.00 |
| | Maliyyə və sığorta fəaliyyəti | 470.642 | 958260 | 1.000 | 471 | 958260 | 0.000 | 0.00 |
| | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 237154 | 1359678 | 1.000 | 237154 | 1359678 | 0.000 | 0.00 |
| | Peşə, elmi və texniki fəaliyyət | 402269 | 2903597 | 1.000 | 402269 | 2903597 | 0.000 | 0.00 |
| | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 92424 | 558453 | 1.000 | 92424 | 558453 | 0.000 | 0.00 |
| | Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 2253156 | 2277392 | 1.000 | 2253156 | 2277392 | 0.000 | 0.00 |
| | Təhsil | 1621757 | 1839915 | 1.000 | 1621757 | 1839915 | 0.000 | 0.00 |
| | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 849178 | 1168107 | 1.000 | 849178 | 1168107 | 0.000 | 0.00 |
| | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 148354 | 515148 | 1.000 | 148354 | 515148 | 0.000 | 0.00 |
| | Digər sahələrdə xidmətlərin göstərilməsi | 15280 | 668432 | 1.000 | 15280 | 668432 | 0.000 | 0.00 |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur*

## *ОЦЕНКА РАЗЛИЧНЫХ ЭКОНОМИЧЕСКИХ ВОЗДЕЙСТВИЙ НА НЕНЕФТЯНОЙ СЕКТОР (НА ПРИМЕРЕ НЕНЕФТЕПЕРЕРАБАТЫВАЮЩЕЙ ОТРАСЛИ)*

*Арзу СУЛЕЙМАНОВ*

### *Резюме*

*В статье рассматривается оценка и анализ экономических последствий в ненефтяной обрабатывающая промышленность. Целью статьи является оценка и анализ отраслевых воздействий на ненефтеперерабатывающую промышленность в экономике Азербайджана с использованием моделей общего равновесия. Объектом исследования является ненефтяная промышленность и Матрица социальных счетов в экономике Азербайджана. Предметом исследования является определение направлений развития ненефтяной нефтеперерабатывающей промышленности в экономике Азербайджана и проведение оценок через SHM. В исследовании использовались такие методы*

*исследования, как математическое моделирование, сравнительный анализ, синтез, анализ, графическое описание, функциональный анализ.*

***Ключевые слова:*** *обрабатывающая промышленность, ненефтяная обрабатывающая промышленность, капитальные вложения, модели баланса, модели мультипликаторов, матрица социальных счетов, отраслевые эффекты, эконометрическая оценка.*

## *ASSESSMENT OF VARİOUS ECONOMİC İMPACTS ON THE NON-OİL SECTOR (ON THE EXAMPLE OF THE NON-OİL REFİNİNG İNDUSTRY)*

*Arzu SULEYMANOV*

### *Abstract*

*The article discusses the assessment and analysis of economic impacts in the non-oil refining industry. The purpose of the article is to assess and analyze sectoral effects in the Azerbaijani economy using general equilibrium models for the non-oil refining industry. The object of research is the non-oil refining industry and the Social Accounts Matrix in the Azerbaijani economy. The subject of the research is to determine the development directions of the non-oil refining industry in the economy of Azerbaijan and to conduct assessments through SHM. Research methods such as mathematical modeling, comparative analysis, synthesis, analysis, graphical description, functional analysis were used in the research.*

***Keywords:*** *refining industry, non-oil refining industry, capital investments, balance models, multiplier models, Social Accounts Matrix, sectoral effects, econometric valuation.*

*UOT 331.91*

# *ƏMƏK RESURSLARININ BEYNƏLXALQ MOBİLLİYİNƏ ELMİ BAXIŞLARIN İCMALI*

*Elnurə İlqar qızı HÜSEYNOVA,*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, doktorant*
*elnuraziyali@gmail.com*

**Xülasə**

*Məqalənin məqsədi əmək resurslarının beynəlxalq mobilliyinə dair nəzəri yanaşmaları təhlil edib bu sahədə istifadə edilən iqtisadi terminləri dəqiqləşdirməkdir. Məqalədə əmək resurslarının beynəlxalq mobilliyinə dair müxtəlif alimlərin yanaşmaları təhlil edilərək “əmək resursları”, “işçi qüvvəsi”, “əmək resurslarının mobilliyi”, “əmək resurslarının miqrasiyası” və "əməkçi-miqrant" kimi terminlərə fərqli yanaşmalar açıqlanmış, “əmək resurslarının mobilliyi”nə müxtəlif alimlərin nəzəri yanaşmaları təhlil edilərək sistemləşdirilmişdir.*

*Məqalədə həmçinin əmək resurslarının beynəlxalq mobilliyini yaradan səbəblər və miqrasiya axınlarının iqtisadi konteksti müəyyən edilmişdir. Məqalədə müəllif tərəfindən əmək resurslarının beynəlxalq mobilliyinin xüsusiyyətləri şərh edilmiş, alimlərin bu sahədə fikirləri qruplaşdırma üsulu ilə müqayisə edilmişdir. Tədqiqat nəticəsində əmək resurslarının beynəlxalq mobilliyinə dair müxtəlif tər
iflər təhlil edilərək ümumiləşdirilmə aparılmışdır.*

***Açar sözlər:** əmək resursu, əmək resurslarının mobilliyi, miqrasiya, əmək bazarı,beynəlxalq mobillik*

## GİRİŞ

Əmək miqrasiyası və əmək resurslarının beynəlxalq mobilliyinin elmi tədqiqi keçən əsrin ortalarından artmışdır. Tədqiqatçılar əmək bazarı problemlərinin müxtəlif aspektlərini araşdırmaqla diqqəti cəlb edən nəticələr əldə etmişlər. Onların əsərlərində beynəlxalq əmək miqrasiyanın növləri və formaları, əmək resurslarının beynəlxalq mobilliynin inkişaf mərhələləri, sosial-iqtisadi və ictimai-siyasi nəticələri, “beyin axını” fenomeni, qanunsuz əmək miqrasiyasına qarşı mübarizə problemləri, əmək resurslarının beynəlxalq mobilliynin tənzimlənməsi üsulları, dövlətin bu problemləri tənzimləməsi məsələləri təhlil edilmişdir. Məqalədə bu işlərə istinad edilmişdir. Beynəlxalq əmək bazarında miqrasiya proseslərinin öyrənilməsinə, əmək resurslarının beynəlxalq mobilliynin tənzimlənməsinə və təhlilinə, əmək resurslarının beynəlxalq mobilliynin tənzimlənməsi sahəsində xarici təcrübənin öyrınilməsinə həsr olunmuş xeyli sayda əsərin olmasına baxmayaraq, problemin təhlili indiki mərhələdə kifayət görünmür.

**Əmək resurslarının beynəlxalq mobilliyinə dair elmi-nəzəri yanaşmaların sistemləşdirilməsi**

Dünya praktikasında əmək resurslarının beynəlxalq mobilliyi proseslərinin səbəblərini, istiqamətini və nəticələrini, əmək miqrantlarının ölkədən getməsi və ya başqa ölkəyə daxil olmasını izah edən çox sayda ziddiyyətli nəzəriyyələr mövcuddur. Bir çox yerli və xarici tədqiqatçılar onilliklər boyu əmək ehtiyatlarının miqrasiyası problemlərini öyrənir və bu proses hazırki dövrdə daha geniş vüsət almağa başlamışdır.

Əsas problem isə "əmək resursları" və "işçi qüvvəsi", "əmək resurslarının mobilliyi" və "əmək resurslarının miqrasiyası" kimi terminlərinə fərqli yanaşmaların olması ilə bağlıdır.

"Əmək ehtiyatları (resursları)" anlayışı 1922-ci ildə akademik Stanislav Strumilin məqalələrindən birində ifadə edilmişdir. Xarici ədəbiyyatda "insan resursları" termini bu anlayışı ilə əvəz edilir. O, əmək mobilliyinə (ingiliscə Labour mobility) - hərəkətlilik, istehsal şəraitinə, yeni texnologiyaya uyğunlaşma, ünsiyyətcil olmaq anlamını verir.

T.Ə.Quliyev bildirir ki,"... iş qüvvəsi dedikdə üstün olaraq məşğul olanlar, işləyənlər, əmək ehtiyatları dedikdə isə yalnız məşğul olanlar deyil, olmayanlar da nəzərdə tutulur. Həm də əmək ehtiyatları real deyil, potensial işçi qüvvəsi kimi təzahür edir. Bir sözlə, əmək ehtiyatları həm fəaliyyət göstərən və həm də potensial iş qüvvəsini özündə inteqrasiya edir. Bundan başqa, "iş qüvvəsi" anlayışı "əmək ehtiyatları" anlayışı ilə müqayisədə daha çox sosial məzmun kəsb edir. Məsələn, bir qayda olaraq iş qüvvəsinin alqı-satqısı deyilir, amma əmək ehtiyatları haqqında bu ifadə işlədilmir" [8].

Ş.M.Muradov isə hesab edir ki,"əmək ehtiyatları" "iş qüvvəsi"nə nisbətən geniş məfhumdur. Yəni "əmək ehtiyatları" işləmək qabiliyyətinə malik olub, həm ictimai istehsalda işləyənlər, həm də şəxsi yardımçı və ev təsərrüfatında məşğul olanlar daxildirsə, "iş qüvvəsi"nə bütün əmək ehtiyatlarından yalnız ictimai istehsalda məşğul olanlar daxildir. [12]

B.V.İsmayılov qeyd edir ki, "Əmək resursları dedikdə əmək prosesində iştirak etmək üçün zəruri fiziki və mənəvi qabiliyyətlərin məcmusuna malik olan ölkə əhalisinin bir hissəsi başa düşülür." [7]

Əliyeva Ş.T. əmək potensialının sosial–iqtisadi mahiyyəti və məzmunu təhlil edərkən qeyd edir ki, P.P.Litvyakov əmək ehtiyatlarının sosial-iqtisadi mahiyyətini iş qüvvəsinin təşkil etdiyi fikrini irəli sürmüş və "əmək ehtiyatları" ilə "iş qüvvəsi" anlayışlarının eyni məzmuna malik olduğunu qeyd etmişdir [4, 19]. Həmçinin A.E.Kotlyar, M.Y.Sonin, P.P.Litvyakov da "əmək ehtiyatlan" ilə "iş qüvvəsi" anlayışlarını eyniləşdirmişlər [3].

Qeyd etməliyik ki, müxtəlif ədəbiyyatda əmək fəaliyyəti ilə məşğul olan şəxslərin dövlətlərin hüdudlarından kənara çıxması prosesi fərqli adlanır: "beynəlxalq əmək bazarı", "beynəlxalq əmək birjası", "əmək resurslarının beynəlxalq hərəkəti" və s. [15]. Aydındır ki, nəzərdən keçirilmiş bütün terminoloji uyğunsuzluqlar, ilk növbədə, əmək mobilliyi fenomeninin elm adamları tərəfindən müxtəlif elmi bilik sistemləri baxımından öyrənilməsindən qaynaqlanır. [27]

Əlbəttə bu yanaşmalara diqqət yetirərək əmək miqrasiyası və əmək mobilliyinə dair elmi-nəzəri baxışları qeyd etmək zəruridir.

Y.E.İqnatovanın bu mənada fikri ilə tam razılaşmaq olar. O qeyd edir ki, "miqrasiyanın öyrənilməsinin intensivləşməsi bir çox fərqli terminlərin istifadəsinə səbəb olmuşdur. Miqrasiya ərazi, coğrafi, məkan fenomeni adlandırılmağa başladı, bəzən mövcud olmayan yerlərdə semantik fərqləri müəyyənləşdirməyə çalışırdı. Miqrasiya mobillik (latın dilində "mobilis") və ya milli analoqda - hərəkətlilik, köçürülmə və s kimi müəyyən edilir. Terminoloji qarışıqlıq elmi aparatda nizamın qurulmasını tələb edirdi." [17]

Beynəlxalq Əmək Təşkilatının (BƏT) Miqrasiya Sahəsindəki Terminologiya Təlimatında "miqrasiya insanların beynəlxalq sərhəddə və ya ölkə daxilində hərəkət etməsi prosesidir". Təlimatda deyilir ki, "miqrasiya, müddətindən, tərkibindən və

səbəblərindən asılı olmayaraq hər hansı bir hərəkət növünü əhatə edir; miqrasiya qaçqınların, köçkünlərin, ölkədən qovulanların və iqtisadi miqrantların hərəkətini əhatə edir" [24].

Maraqlı fikirlərdən biri E.M.Nəsibova məxsusdur. O bildirir ki, “miqrasiya anlayışının tərifləri (məzmununu təşkil edən komponentlərin aşkarlanması, müəyyən olunmasından meydana gələn konseptual sistemli ifadə bütövləri) anlayışın dövlətin çoxtərəfli fəaliyyətinin ifadəsindən meydana gəlir. Ölkəyə daxil olan miqrant, gəlmə səbəblərindən asılı olmayaraq, ölkənin müvafiq strukturlarının və cəmiyyətin üzvünə çevrilir. Sanki, insan olaraq öz dəyərləri ilə digər üzvlərə qarışır, təmaslar meydana gəlir. Bu baxımdan da sosial-siyasi-mədəni tərkibi təşkil edir. İmmiqrant ölkənin daxili siyasətində iştirak edir və cəmiyyətin üzvünə çevrilir.”[10]

Əliquliyev R.M. və Ələkbərova İ.Y. bildirirlər ki, “müxtəlif sosial qruplarda mobillik eyni deyil. Cəmiyyətin inkişafına təsir edən əsas amillərdən biri insanların miqrasiyasıdır. Əmək qabiliyyətli insanların miqrasiyası hər bir dövlət üçün mənfi haldır və “əmək miqrasiyası” adlanır. Bilik daşıyıcılarının, yüksəkixtisaslı mütəxəssislərin miqrasiyası isə “beyin axını” adlanır və ölkənin sosial-iqtisadi durumuna, gələcək inkişafına təsir edir.” [2]

T.R.Maltus insanların iqtisadi rifahı ilə sosial-demoqrafik problemlər arasında əlaqə izlənildiyini bildirərək miqrasiyanın iqtisadi tənzimləyici kimi istifadə edilməsi təklif edir. [20]

R.M.Ağasiyev qeyd edir ki, “əmək miqrasiyası dedikdə müəyyən ərazidə daimi yaşayan insanların qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə yaşadığı dövlətin ərazisindən digər dövlətin ərazisinə könüllü olaraq gəlməsi başa düşülür [1]”

Y.V.Jiltsova görə də "xarici əmək miqrasiyası xarici bir dövlətdə pullu fəaliyyətlə məşğul olmaq üçün müvəqqəti yaşayış yerinin dəyişdirilməsidir". [16]

Bəzi ədədbiyyatlarda “əməkçi-miqrant” anlayışına rast gəlinir. Qeyd edək ki, "əməkçi-miqrant" anlayışına beynəlxalq konvensiyalarda yanaşma bir qədər fərqlidir. Misal üçün, "əməkçi-miqrant" terminin izahına ilk dəfə 1924-cü ildə Romada keçirilmiş konfransda cəhd olunmuşdur. Bu konfransda immiqrasiya və emiqrasiya məsələləri araşdırılarkən bu kateqoriyadan olan subyektlər şəxsi kapitala malik olmayan sənaye, ticarət və kənd təsərrüfatı sahələrində işləmək məqsədilə xarici ölkəyə gedib, daimi və ya müvəqqəti əmək fəaliyyəti ilə məşğul olan şəxslər kimi başa düşülürdü. İkinci dəfə bu kateqoriyalı subyektlər barədə Beynəlxalq Əmək Təşkilatının (BƏT) 1949-cu il tarixli 97 saylı Konvensiyasında baxılmışdır. Konvensiyanın 11-ci maddəsində "əməkçi-miqrant" terminінə belə anlayış verilmişdir: "Bir dövlətdən digər dövlətə iş tapmaq məqsədilə miqrasiya edən və müvafiq qanunun əməkçi-miqrant qismində çıxış etməsinə imkan verən bütün şəxslər əməkçi-miqrantdır". [9]

R.J.Erenberg və R.S. Smit "əmək mobilliyi" və ya "iş qüvvəsi axını" anlayışını ya yaşayış yerinin dəyişdirilməsi ilə əlaqəli olmayan və ya ərazi hərəkətləri ilə müşayiət olunan iş yerinin könüllü dəyişməsi kimi şərh edir (bu vəziyyətdə müəlliflər "miqrasiya" ifadəsini istifadə edirlər) [26].

B.D.Breev miqrasiyaya üç fərqli aspekt - ərazi, sahə və peşə miqrasiyası baxımından baxıla biləcəyini müəyyən edərək "mobillik" anlayışını "miqrasiya" (lat. Migratio, yəni köçürmə) termini ilə əvəz etmişlər. [13]

Əmək resurslarının mobilliyi əmək miqrasiyası, yeni cəlbedici əmək bazarlarının yaranması və müəyyən bir mütəxəssisin hədəfə alınaraq bu bazarlara cəlb edilməsi ilə əlaqəli çətin prosesləri əks etdirən bir termindir. [22] Professor S.M.Muradovun

qənaətinə görə “əmək bazarı dedikdə - ən ümumi halda işverenlərlə muzdlu fəhlələr, iş qüvvəsi alıcıları ilə onun satıcıları arasında birincilərin əməyə olan tələbləri ilə ikincilərin işə olan təkliflərinin ödənilməsi üzrə formalaşan iqtisadi münasibətlər sistemi başa düşülür” [6]. Lakin “əmək bazarları - milli iş qüvvəsindən və immiqrantlardan ibarət əmək bazarları, inteqrasiya etməmiş ola bilir. Bu paradiqma xarici və milli əmək resurslarının fərqli əmək məhsuldarlığına əsaslanır. Yeni bir paradiqmanın meydana gəlməsinə ehtiyac var və bunu göstərən əlamətlərin siyahısına bəzi nəzəri “narahatlıq”, hadisələri səthi, qurulmuş sxemlər çərçivəsində izah etmək kimi məqamları aid etmək olar.» [14]

Neoklassik nəzəriyyənin nümayəndələri [28], ən aşağı qiymətə maksimum fayda əldə etmək üçün miqrasiya axınlarının əmək bazarındakı tələb və tələb ilə tənzimlənməli olduğunu qeyd edirlər. Miqrasiya ilə bağlı qərar, hadisələrin inkişafının pessimist ssenariləri nəzərə alınmadan (məsələn, işə qəbul edilməmə və ya əməkhaqqının aşağı səviyyədə olması) subyektiv olaraq qəbul edilir [28, 29].

Tretyakova L.A., Qrudkina T.I. isə bildiri ki, “əmək resurslarının mobilliyi işçinin əmək potensialının səriştəli profilinin keyfiyyət xüsusiyyətidir ki, onun əmək tətbiqi üçün iqtisadiyyatın müxtəlif sahələrində və istiqamətində həqiqi və ya potensial hərəkətini müəyyən edir [25].

Onu da bildirməliyik ki, iş qüvvəsini həm ixrac edən ölkədə, həm də idxal edən ölkədə müəyyən institusional şərait mövcud olduqda, miqrasiya prosesi baş verir [23].

O.O.Kotova “əmək resurslarının mobilliyi”nə müxtəlif alimlərin nəzəri yanaşmalarının təhlil edərək [18] onları aşağıdakı formada sistemləşdirmişdir:

1. əmək resurslarının mobilliyi bir işçinin iş yerinin dəyişdirilməsi prosesidir (R.A.Fatxutdinov, M.R.Bogatryova, A.A.Samoxvalova);
2. əmək resurslarının mobilliyi psixoloji hazırlıq (hərəkət etmək qabiliyyəti) (T.V. Novikova, A. Safonova), yeni iş şəraitinə uyğunlaşmaq bacarığıdır(A.A.Suxov);
3. əmək resurslarının mobilliyi peşəkar statusun dəyişdirilməsidir və imkanların reallaşmasıdır (V.M.Bexteryov, S.L.Rubinşteyn);
4. əmək resurslarının mobilliyi işçinin sosial statusunun dəyişməsidir (Y.A.Makuşeva);
5. əmək resurslarının mobilliyi bazar mexanizminin bir elementidir (I. Maltsev, A.V.Menjerez);
6. əmək resurslarının mobilliyi məşğulluq baxımından son məqsədə nailolma nəticəsidir (A.I.Maskayeva);
7. əmək resurslarının mobilliyi istehsal dəyişiklikləri ilə şərtlənən prosesdir (L.S.Blyaxman);
8. əmək resurslarının mobilliyi işçilərin rəqabət qabiliyyətinin göstəricisidir (L.V.Jdanova, V.I.Aleşnikova, T.Y.Terekova);
9. əmək resurslarının mobilliyi ərazinin rəqabət qabiliyyətinin inkişaf amilidir (G.K.Lapuşinskaya).

Ölkədaxili əmək miqrasiyası əsasən əmək haqqındakı ölkələrarası fərqlərlə müəyyən olunduğunu əsas götürən K.Marks əmək haqqı səviyyəsinin əmək məhsuldarlığının səviyyəsindən asılı olmağını qeyd edir və məhsuldarlığın yüksək olduğu yerlərdə əmək haqqının daha yüksək olmasını bildirir. [21]

Miqrasiyanın klassik nəzəriyyəsinə görə [33], əmək ehtiyatları ixrac edən ölkələrdə işçi qüvvəsini ölkədən kənara axmasına təsir edən daxili iqtisadi amillər var ki, bu da işsizlik, əhalinin yoxsulluğu və s.-dir. Lakin biz “işsizlik nəticəsində əmək resurslarının məqsədsiz xərclənməsinə daha çox iqtisadi problem kimi yanaşırıq. Eyni

zamanda bu problem sosial xarakter daşıyır... İşsizliyin iqtisadi ziyanı, sözsüz ki, çoxdur, lakin onun yaratdığı sosial itkilər daha böyükdür!" [11, 12].

Yeni miqrasiya iqtisadiyyatı konsepsiyasına görə [30, 31, 32], insan miqrasiya ilə bağlı qərarı müstəqil və fərdi deyil, ailə daxilindəki müzakirələr nəticəsində qəbul edir.

Bu səbəbdən "miqrasiya axınlarının iqtisadi konteksti nisbətən daha universal yanaşma tələb edir. Təsadüfi deyil ki, miqrasiya uzun illər məhz iqtisadi-sosial mahiyyətli fenomen kimi təhlil edilmişdir. İqtisadi yöndən təhlil edilərkən miqrasiya dövlətin insan ehtiyatlarının, əmək bazarlarının, insan qüvvəsinin sağlam rəqabəti və təbii inkişaf qanunauyğunluqlarını təmin edən obyektiv nizamlayıcı amil hesab olunur" [5].

Yuxarıda qeyd etdiyimiz nəzəri yanaşmaları bir araya gətirərək qeyd edə bilərik ki, əmək resurslarının beynəlxalq mobilliyi - iş tapmaq üçün daimi yaşayış yerinin dəyişdirilməsi və ya əvvəlki yaşayış yerinə qayıtması nəticəsində insanların müəyyən ərazilərin (ölkələrin) hüdudlarından kənara çıxmasıdır.

**Nəticə**

Beləliklə, "əmək resurslarının beynəlxalq mobilliyi" termini bir çox mənbələrdə "beynəlxalq əmək miqrasiyası" termini kimi verilir. Elmi ədəbiyyatda "əmək resurslarının mobilliyi" anlayışlarının müxtəlif tərifləri bizə aşağıdakı nəticələr çıxarmağa imkan verir:

- birincisi, əmək resurslarının mobilliyi çox funksiyalı, çox amilli xarakterə malikdir;
- ikincisi, əsas xüsusiyyətləri kimi hər hansı bir ərazinin (ölkə xarici və ya ölkə daxili) yenidən qurulmasında, təşkilində iştirak payı təhlil edilir,
- üçüncüsü, səbəbləri kimi köçmə məqsədi və hansı müddətə köçməsi götürülür.

Ölkənin inkişafı üçün əmək resurslarının beynəlxalq mobilliyinin nəzəri yanaşmaların təhlili bu prosesin kortəbii şəkildə həyata keçdiyini deyil, tənzimləndiyini bir daha açıqladı.

## ƏDƏBİYYAT

1. Ağasiyev R.M. (2018)Azərbaycan Respublikasında Əcnəbilərin və vətəndaşlığı olamayan şəxslərin hüquqi statusu. Bakı, "Elm" nəşriyyatı, 2018., s. 128
2. Əliquliyev R.M., Ələkbərova İ.Y. (2019) Sosial informatika: sosial proseslərin analizində informasiya texnologiyalarının tətbiqi, İnformasiya cəmiyyəti problemləri, 2019, №2, 3–17, https://jpis.az/uploads/article/az/2019_2/SOCIAL_INFORMATICS_APPLICATION_OF_INFORMATION_TECHNOLOGY_IN_THE_ANALYSIS_OF_SOCIAL_PROCESSES.pdf
3. Əliyev T.Q., Əliyeva Ş.T., Əliyev R.T.(2012)İnsan resurslarının idarə edilməsi Bakı, ADNA. 2012, 303 səh., s. 26
4. Əliyeva Ş.T.(2013)Əmək potensialının sosial–iqtisadi mahiyyəti və məzmunu, Odlar yurdu universitetinin elmi və pedaqoji xəbərləri 2013 - № 35, S.6.
5. İbrahımova G.İ., Yaqubova N. (2013 )Miqrasiya anlayışı, əsas növlərı və sosıal-sıyası təhlılı. Tarix və onun problemləri, № 3 2013, səh.218.
6. İqtisadiyyatın davamlı inkişafı problemlər perspektivlər. Beynəlxalq elmi konfransın materialları 27-28 aprel 2016 – cı il Sumqayıt 2016,s. 140

7. İsmayılov B.V.(2018)«Strateji menecment». Dərs vəsaiti. Bakı, «Təhsil», 2018, 296 s., səh.181

8. Quliyev T.Ə. (2003)Əməyin iqtisadiyyatı. Bakı, 2003, səh.97

9. Məmmədov Ç. N.(2011)Əməkçi-miqrantların statusunu tənzim edən beynəlxalq hüququn prinsipləri, «Qanun».-2011.-№.05(205).-S.29-33

10. Nəsibov E.M. (2014) Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2014, 240 səh., səh.32

11. Rəsulov F., İbadoğlu Q. (2004) «İqtisadiyyatın əsasları». «Elm». 2004, səh.200, səh.132

12. Sadıqova A.N. (2019)Əmək miqrasiyasının anlayışı, prinsipləri və onun hazırki vəziyyəti ilə bağlı problemlər. ЮРИДИЧЕСКИЕ НАУКИ И ОБРАЗОВАНИЕ. 2019 № 58, http://www.iolr.org/wp-content/uploads/2019/03/Sadıqova-A.N.-Əmək-miqrasiyasının....pdf

13. Бреев Б. Д. Подвижность населения и трудовые ресурсы. – М., 1977.

14. Гребеник В.В.(2012) Парадигма в современной науке и её роль в обеспечении экономической и военной безопасности России // Интернет-журнал Науковедение, 2012. - №3 (12). http://cyberleninka.ru/article/n/paradigma-v-sovremennoy-nauke-i-eyo-rol-v-obespechenii-ekonomicheskoy-i-voennoy-bezopasnosti-rossii

15. Давлетгильдеев Т. Ш.(1997) К вопросу об определении понятия «внешняя трудовая миграция» в российском праве // Российский юридический журнал. – 1997. – № 4. – С. 15–16

16. Жильцова Ю. В. (2002)Правовое регулирование трудовых отношений рабочих-мигрантов: автореф. дис. … канд. юрид. наук. – Екатеринбург, 2002. – С. 4.

17. Игнатова Ю. Е. (2010)Трудовая миграция: к вопросу об уточнении понятия // Вестник ВолГУ. Серия 9: Исследования молодых ученых. 2010. №8-1. URL: https://cyberleninka.ru/article/n/trudovaya-migratsiya-k-voprosu-ob-utochnenii-ponyatiya

18. Котова О.О. (2016) Анализ различий в подходах к определению «мобильности трудовых ресурсов». Вестник ТвГУ. Серия "Экономика и управление". 2016. №3.С.144–150, http://eprints.tversu.ru/6695/1/Вестник%20ТвГУ.%20Серия%20Экономика%20и%20управление.%202016.%203.%20С.%20144-150.pdf

19. Литвяков П.П. (1969)Научные основы использования трудовых ресурсов. М., 1969, səh.10

20. Мальтус Т.-Р. (2012)Опыт закона о народонаселении / пер. И. А. Вернера. — М.: Тикс-литография О. И. Лашкевич и Ко, 1895. 252 с. http://demoscope.ru/weekly/knigi/maltus/maltus.pdf , с. 50–52

21. Маркс К. (1957)Вынужденная эмиграция. Т. 8. — М.: Просвещение, 1957, с. 571. URL:http://www.slideshare.net/ssuser9fc5af/ss-9690673

22. Мобильность трудовых ресурсов как предмет университетских штудий.https://www.goodnewsfinland.com/ru/mobilnost-trudovyh-resursov-kak-predmet-universitetskih-shtudij/

23. Нестерова А.(2010) Ретроспективный взгляд на теории международной миграции рабочей силы // Международное право и

международные отношения. — 2010. — № 1. URL: http://evolutio.info/content/view/1671/232/)

24. Справочник по терминологии в области миграции. – М.: Международная организация по миграции, 2011. – 165 с. , с. 66

25. Третьякова Л.А., Грудкина Т.И. (2016) Мобильность трудовых ресурсов в контексте инвестиционной привлекательности регионов ЦФО // Национальные интересы: приоритеты и безопасность. 2016. №12 (345). URL: https://cyberleninka.ru/article/n/mobilnost-trudovyh-resursov-v-kontekste-investitsionnoy-privlekatelnosti-regionov-tsfo

26. Эренберг, Рональд Дж., Смит, Роберт С. (1996)Современная экономика труда. Теория и гос. политика: [Учебник] / Пер. с англ. под ред. Р. П. Колосовой и др. - М.: Изд-во МГУ, 1996. 777 с., s. 363-364

27. Юрченко В. В. (2004)«Трудовая мобильность» и «трудовая миграция» в различных системах теоретических знаний**,** Социальная экономика, 2004, 3

28. Harris J., Todaro M. (1970)Migration, unemployment, and development: a two-sector analysis // The American Economic Review. — 1970. — 60. — Pp.126–142. https://www.aeaweb.org/aer/top20/60.1.126–142.pdf

29. Hicks J. R. (2002)The Theory of Wages: Its place in the history of neo-classical distribution theory // Economics Murdoch University. — 2002. — February. http://wwwbusiness.murdoch.edu.au/econs/wps/187.pdf

30. Katz E., Stark O.(1986) Labor Migration and Risk Aversion in Less Developed Countries // Journal of Labor Economics.— 1986. — 4, Is. 1 . — Pp. 134–149. http://commons.lib.niu.edu/.../katz1986b.pdf

31. Stark O. (1984) Rural-to-urban Migration in LDCs: a Relative Deprivation Approach // Economic Development and Cultural Change. — 1984. — 3. — Pp. 475–486. http://dx.doi.org/10.1086/451401

32. Stark O., Bloom D. E. The new economics of Labour Migration // Frontiers in demographic economics. — 1985.— 35. — Pp. 173–178. http://www.ppge.ufrgs.br/giacomo/arquivos/eco02268/stark-bloom-1985.pdf

33. Tobler W. (1995). Migration: raven stein, thorntwaite, and beyond. Urban Geography, 16(4), 327–343. http://blog.lib.umn.edu/globerem/main/Tobler.pdf

## *ОБЗОР НАУЧНЫХ ВЗГЛЯДОВ НА МЕЖДУНАРОДНУЮ МОБИЛЬНОСТЬ ТРУДОВЫХ РЕСУРСОВ*

*Эльнура Ильгар гызы ГУСЕЙНОВА*

**_Резюме_**

*Цель исследования - проанализировать теоретические подходы к международной мобильности трудовых ресурсов и уточнить экономические термины, используемые в этой области. В исследовательской работе используются методы сравнения и группировки. Автор описывает особенности международной мобильности трудовых ресурсов в исследовании, сравнивает взгляды различных ученых в этой области. В исследовании анализируются подходы различных ученых к международной мобильности трудовых ресурсов и раскрываются различные подходы к терминам «трудовые ресурсы», «рабочая сила», «трудовая миграция», «трудовой мигрант».*

*В исследовании были определены причины международной мобильности рабочей силы и экономический контекст миграционных потоков. Практическая значимость исследования заключается в анализе и обобщении различных определений международной мобильности трудовых ресурсов и выдвижении предложений по правильному применению терминов в законодательстве.*

***Ключевые слова:*** *трудовые ресурсы, мобилизация трудовых ресурсов, миграция, трудовой рынок, мигрант*

## *OVERVIEW OF SCIENTIFIC VIEWS ON İNTERNATİONAL MOBİLİTY OF LABOR*

*Elnura İlqar HUSEYNOVA*

***Abstract***

*The purpose of the study is to analyze theoretical approaches to the international mobility of labor resources and to clarify the economic terms used in this area. The research uses comparison and grouping methods. In the study, the author commented on the features of the international mobility of labor resources, compared the views of different scientists in this field. The study analyzes the approaches of various scholars on the international mobility of labor resources and reveals different approaches to the terms "labor resources", "labor force", "labor resource mobility" and "labor migration", "labor-migrant", "labor resource mobility" analyzed and systematized the theoretical approaches of various scientists.*

*As a result of the study, the causes of international labor mobility and the economic context of migration flows were identified. The practical significance of the research is to analyze and generalize the various definitions of international labor mobility and to make suggestions on the correct application of the terms in the legislation.*

***Keywords:*** *labor resource, labor resource mobility, migration, labor market, migrant*

# *QLOBAL-İQTİSADİ ÇAĞIRIŞLARIN TƏHLİLİ VƏ İQTİSADİ BƏRPA MEYİLLƏRİ*

*Elmir Tahir oğlu EYVAZ-ZADƏ,*
*İN İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun doktorantı*
eyvazzadeelmir@gmail.com

***Xülasə***

*Bu tədqiqatda koronavirus pandemiyası ilə əlaqədar dünya iqtisadiyyatında formalaşmış qlobal çağırışlar qiymətləndirilmiş, o cümlədən Azərbaycan iqtisadiyyatına təsirlər ilə bağlı əsas tendensiyalar araşdırılmışdır. Məqalədə pandemiya və digər əlaqəli proseslərin makroiqtisadi sabitlik üzərindəki təsirləri həm dünya həm də ölkə iqtisadiyyatı baxımından bir sıra statistik məlumatlardan istifadə edilərək qiymətləndirilmişdir. Ümumilikdə ölkə iqtisadiyyatının əsas meyilləri real sektor, monetar və fiskal sektor olmaqla ayrı-ayrı əsas parametrlər üzrə qarşılıqlı əlaqədə təhlil edilmiş, o cümlədən bir sıra beyəlxalq maliyyə təşkilatlarının dünya və Azərbaycan iqtisadiyyatı üçün gözlənilən proqnozlarından istifadə edilərək müqayisəli təhlil aparılmışdır.*

*Eyni zamanda ortamüddətli dövrdə iqtisadi inkişafın bərpa meyillərinin sürətləndilməsi fonunda hazırki sosial-iqtisadi dəstək tədbirlərinin önəmi qeyd olunmuş, kontrtsiklik fiskal siyasətin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır. Təqdim edilən işdə makroiqtisadi sabitlik qarşısında formalaşan təhdidlər öz əksini tapmış, həmçinin postpandemiya dövründə dayanıqlı inkişafı təmin etmək üçün başlıca prioritet istiqamətlər göstərilmişdir.*

***Açar sözlər**: Koronavirus (COVID-19), qlobal-iqtisadi çağırışlar, makroiqtisadi təsirlər, kontrtsiklik fiskal siyasət, Azərbaycan iqtisadiyyatı*

## Giriş

Məlum olduğu kimi qlobal iqtisadi resessiya fonunda demək olar ki, bütün ölkələrin iqtisadiyyatında pandemiyanın təsirləri müşahidə olunur, həmçinin qlobal əmtəə, fond və birjalarda geniş volatillik davam edir.

Dünya ölkələrində koronavirus (COVID-19) infeksiyasının sürətlə yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən sosial təcrid və karantin tədbirləri əhalinin sağlamlığının qorunmasına xidmət etsə də iqtisadiyyatın bir sıra əsas sahələrində iqtisadi inkişaf meyillərinin mənfi məcraya yönəlməsi ilə nəticələnmişdir.

Qeyd olunmalıdır ki, qlobal xarici şoklar və mürəkkəb çağırışlar şəraitində Azərbaycan iqtisadiyyatında bir çox sektorlarda geriləmə qeydə alınsa da ümumilikdə makroiqtisadi sabitlik qorunmuş, əhalinin sosial rifahı prioritet olaraq saxlanmışdır. Bu onu deməyə imkan verir ki, ortamüddətli dövrdə də makroiqtisadi sabitliyin təmin olunması məqsədilə kontr-tsiklik fiskal siyasətin davam etdirilməsi, habelə ölkə iqtisadiyyatının xarici şoklara hazırlığının təmin edilməsi ilə paralel olaraq aztəminatlı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və məşğulluq səviyyəsinin artırılması kimi məsələlərə xüsusi diqqət yetiriləcəkdir.

## Koronavirus (COVID-19) pandemiyasının qlobal iqtisadiyyata davam edən təsirləri və neqativ təsirlərin aradan qaldırılması tədbirləri

2020-ci ilin əvvəlindən başlayaraq indiyə qədər Koronavirus (COVID-19) infeksiyasının əhatəsinin genişlənməsi, qlobal enerji bazarlarında məcmu tələbin azalması və pandemiyanın bitmə müddətinin gözləniləndən daha uzun müddət çəkməsi nəticəsində cari ildə qlobal iqtisadiyyatda tənəzzül davam etməkdədir. Bununla

əlaqədar, cari ilin oktyabr ayında Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən yenilənmiş proqnozlara əsasən 2020-ci ilin sonuna qlobal iqtisadiyyatda 4,4 faiz geriləmə olacağı gözlənilir. 2021-ci ildə böhrandan sonra enerji bazarında qiymətlərin stabilləşməsi və dünya iqtisadiyyatında məcmu tələbin artması nəticəsində iqtisadi aktivliyin bərpa edilməsi sayəsində 5,2 faiz qlobal iqtisadi artım proqnozlaşdırılır. Cari illə müqayisədə 2021-ci ildə nisbətən yüksək artım proqnozuna baxmayaraq, proqnozun reallaşması bir sıra amillərdən, o cümlədən pandemiyanın davam etmə müddətindən, Çin, ABŞ və Avropa ölkələri kimi qlobal dəyər zəncirlərinin bərpasından, habelə geosiyasi sabitlikdən asılı olacaqdır.

Proqnozlara əsasən 2020-ci ildə inkişaf etmiş ölkələrdə iqtisadi azalmanın 5,8 faiz, inkişaf etməkdə olan ölkələrdə isə 3,3 faiz olacağı gözlənilsə də, 2021-ci ildə böhrandan sonra iqtisadi artımın bərpası sayəsində müvafiq olaraq 3,9 faiz və 6,0 faiz artım proqnozlaşdırılır. 2020-ci ilin ötən dövründə iqtisadi fəaliyyətə gözləniləndən daha çox ziyan dəyməsi ortamüddətli dövrdə bərpa müddətinin daha tədricən olacağını söyləməyə imkan verir.




*Mənbə: Beynəlxalq Valyuta Fondunun "Qlobal İqtisadi İcmal" hesabatının (oktyabr 2020) məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

**Qrafik 1. Qlobal iqtisadi artımın illər üzrə dinamikası**

Qeyd olunmalıdır ki, qlobal iqtisadi resessiya fonunda dünya üzrə enerji daşıyıcılarına olan tələbin aşağı səviyyədə qalması volatil neft qiymətlərini də şərtləndirir. Burada OPEC+ sazişi çərçivəsində tərəfdaş ölkələrin hasilatın azaldılması ilə bağlı öhdəlikləri hansı səviyyədə yerinə yetirməsi də neft bazarında mühüm rol oynayır. Belə ki, cari ilin mart ayının 5-6-da Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və digər tərəfdaş ölkələr tərəfindən neft qiymətlərinin kəskin enişinin qarşısını almaq məqsədilə keçirilən toplantıda istehsalın azaldılması ilə bağlı razılığın əldə edilməməsi nəticəsində qısa müddətdə neftin qiymətində kəskin eniş müşahidə edilmişdi. Pandemiya şəraitində başlıca əmtəə məhsulları, xüsusilə də əsas enerji daşıyıcılarından olan neftə tələbin azalması cari ildə qiymətlərin azalmasıyla nəticələnsə də, növbəti ildən tələbin artmasına dair gözləntilər neftin qiymətində artımı dəstəkləyəcəkdir.

Belə ki, ABŞ-ın Enerji İnformasiya Agentliyi (EIA) tərəfindən oktyabr ayında yenilənmiş proqnoza əsasən cari və növbəti ildə brent neftinin orta qiymətinin müvafiq olaraq 41,2 və 47,1 ABŞ dolları səviyyəsində olacağı gözlənilir. Beynəlxalq Valyuta Fondu (BVF) isə 2020-ci il üzrə neftin[1] bir barelinin satış qiyməti 41,69 dollar (ötən

---

[1] Brent, Dubay Fateh və Qərbi Texas aralıq xam neft qiymətləri ortalaması

illə müqayisədə 32,1% az) 2021-ci ildə isə 46,7 dollarına bərabər olacağını proqnozlaşdırır.




*Mənbə: Enerji İnformasiya Agentliyinin (EIA) Qısamüddətli enerji icmalı hesabatının (2020 oktyabr) məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

**Qrafik 2. Qlobal neft bazarı, milyon barrel/rüb**

BVF-in proqnozlarına əsasən aşağı neft qiymətləri fonunda **Neft ixrac edən ölkələrin** ümumi iqtisadiyyatının 2020-ci ildə 6,0 faiz daralacağı gözlənilir. Bununla yanaşı, proqnozlara detallı nəzər yetirdikdə aydın olur ki, bütün bunlara baxmayaraq **Azərbaycan iqtisadiyyatı** nəinki neft ixrac edən ölkələr arasında hətta digər bir çox ölkələrlə müqayisədə pandemiyadan daha az təsirlənən ölkələrdən biridir. Aşağıdakı qrafikdən də göründüyü kimi mövcud iqtisadi vəziyyət demək olar ki, bütün dünya ölkələrində ciddi itkilərə yol açmış, ümumilikdə isə ilin sonunda ölkələrdən asılı olaraq təxminən real ifadədə 5-10 faiz həcmində geriləmə ilə nəticələcəkdir.




*Mənbə: Beynəlxalq Valyuta Fondunun “Qlobal İqtisadi İcmal”hesabatının (oktyabr 2020) məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

**Qrafik 3. Azərbaycan və digər ölkələr üzrə 2020-ci ilin sonuna iqtisadi artım proqnozlarının müqayisəsi, %**

Burada bir məqamı qeyd etmək lazımdır ki, Azərbaycan nəinki region ölkələri arasında hətta bir çox dünya ölkələri ilə müqayisədə pandemiyadan daha az təsir görən

ölkələrdəndir. Sosial təcrid və karantin tədbirlərinin vaxtında həyata keçirilməsinin virusun sürətlə yayılmasının qarşısının alınmasında mühüm rol oynadığını qeyd edə bilərik. Dünya iqtisadiyyatında baş verən neqativ təsirlər digər ölkələrdə olduğu kimi, Azərbaycan iqtisadiyyatına da təsir etsə də Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar post-pandemiya dövründə iqtisadi aktivliyin daha qısa müddət ərzində bərpa edilməsinə imkan verəcəkdir.

Bu məqamda ölkə iqtisadiyyatının inkişaf meyillərinin bərpası və makroiqtisadi sabitliyin qorunması ilə yanaşı məşğulluq və sosial rifahın qorunması da ön plandadır. Bu istiqamətdə görülən işlərin məntiqi davamı olaraq büdcə siyasəti çərçivəsində xərclərin prioritetləşdirilməsi və həmçinin büdcə xərclərində səmərəliliyinin artırılması ortamüddətli dövr ərzində iqtisadi inkişafa artırıcı təsir göstərəcəkdir. Beynəlxalq Valyuta Fondu tərəfindən aprel və oktyabr ayında dərc olunan hesabatlara görə mürəkkəb xarici mühit və qeyri-müəyyən iqtisadi şəraitdə bir çox region ölkələrindən fərqli olaraq Azərbaycanın iqtisadi inkişaf dinamikasını L şəkilli yox, V şəkilli inkişaf variantına uyğun olacağını söyləmək olar.




*Mənbə: Beynəlxalq Valyuta Fondunun aprel və oktyabr hesabatının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

**Qrafik 4. Pandemiyasının təsirlərinin artması ilə əlaqədar ÜDM-in müxtəlif dövrlər üzrə dinamikası**

**Pandemiya fonunda Azərbaycanda formalaşan makro-fiskal mühit və görülən iqtisadi bərpa tədbirləri**

Qlobal və regional iqtisadiyyatda gedən proseslər bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün də mənfi təsirlərə malik çağırışlarla səciyyələnən xarici mühit formalaşdırmışdır. Yeni növ koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar resessiya dünya iqtisadiyyatına inteqrasiya olmuş Azərbaycan iqtisadiyyatı üçün də təsirsiz ötüşməmişdir. Bir tərəfdən neftin qiymətinin kəskin azalması birbaşa olaraq xarici valyuta gəlirlərinin kəskin azalmasına, bununla da nəticədə dolayısıyla monetar sektorda dollarlaşma meyillərinin artması ilə müşahidə olunmuşdu. Digər bir tərəfdən isə tətbiq edilən xüsusi karantin rejimi əhalinin sağlamlığının qorunmasına xidmət etsə də iqtisadiyyatın real sektorunda iqtisadi aktivliyin azalması və geriləmə meyillərinin müşahidə olunması ilə nəticələnmişdir. Bu kimi bir-biri ilə qarşılıqlı əlaqədə baş verən zəncirvari proseslər ölkə iqtisadiyyatında müəyyən risklər yaratması ehtimalı olduğuna görə daha həssas yanaşmanı tələb edir.




*Mənbə: Şəkil müəllif tərəfindən tərtib olunmuşdur.*

**Şəkil 1. Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsir mexanizmləri**

**Real sektor**

Qeyd olunduğu kimi cari ildə COVID-19 pandemiyası ilə bağlı yaranmış qlobal risk şəraiti ölkədə iqtisadi aktivliyin daralmasına, gəlirlərə və investisiya mühitinə mənfi təsir göstərmişdir. Cari ilin 9 ayı ərzində neft və qeyri-neft sektorunda əlavə dəyər istehsalı müvafiq olaraq 6,4 faiz və 2,4 faiz azalmaqla, bütövlükdə iqtisadiyyatda 52,1 milyard manat dəyərində (ötən ilin eyni dövrü ilə müqayisədə 3,9 faiz az) ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Qeyri neft-qaz sektorunda yaradılan əlavə dəyər 2019-cu ilin müvafiq dövrünə nisbətən real ifadədə 2,4 faiz azalmış və nominal olaraq 35,9 milyard manat təşkil etmişdir.




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

**Qrafik 5. 2017-2020-ci illərin yanvar-sentyabr ayları üzrə ÜDM-in strukturu (milyon manatla) və real artım tempi (faizlə)**

Dövlət Statistika komitəsinin məlumatına əsasən cari ilin yanvar-sentyabr aylarında iqtisadiyyatın bir sıra sektorlarında (nəqliyyat və anbar təsərrüfatında 5,5 %, kənd təsərrüfatında 1,5 % və informasiya-rabitə sektorunda isə 2,7 %) artım müşahidə olunduğuna baxmayaraq, digər sahələrdə ciddi geriləmə qeydə alınmışdır. 2020-ci ilin

mart ayından başlayaraq ölkədə COVID-19 infeksiyasının sürətli yayılmasının qarşısını almaq üçün tətbiq olunan xüsusi karantin rejimi və digər preventiv tədbirlər ölkəmizdə işgüzar fəallığın azalmasına səbəb olmuş, o cümlədən xüsusilə iqtisadiyyatın səyahət, otel, əyləncə və turizm kimi əksər sahələrinə öz mənfi təsirini göstərmişdir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk səkkiz ayında turizm və ictimai iaşə sektorunda 2 dəfə geriləmə qeydə alınmışdır. 2020-ci ilin 9 ayı ərzində ÜDM-in pay bölgüsündə tikinti sektorunda 3,3 milyard manatlıq (2019-cu ilə nisbətən 9,6 faiz az) əlavə dəyər istehsal edilmişdir.

Hesabat dövrü ərzində digər zərər görmüş sahə ticarət sektoru olmuşdur ki, burada ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz azalaraq ÜDM-in 11,4%-ni (5 960,7 mln. manat) təşkil etmişdir. Azalmanın əsas səbəbi koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının qarşısının alınması məqsədilə insanların həyat fəaliyyəti üçün zəruri olan fəaliyyət sahələrindən başqa digər istiqamətlər üzrə müəyyən dövrlərdə ticarət obyektlərinin fəaliyyətinə qoyulan məhdudiyyətlər ilə bağlı olmuşdur. 2019-cu ilin eyni dövrü ilə müqayisədə ÜDM-in tərkibində başlıca rola malik **sənayedə 4**,5% geriləmə müşahidə edilməklə 18,1 milyard manat həcmində (xüsusi çəkisi 34,7 faiz) əlavə dəyər istehsal olunmuşdur.

2020-ci ilin yanvar-sentyabr aylarında **pərakəndə ticarət dövriyyəsi** 28,1 milyard manat olmuşdur ki, bu da ötən illə müqayisədə 1,6 faiz azdır. Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi bu sahədə xüsusilə qeyri-ərzaq mallarının satışı sahəsində işgüzar fəallığın zəifləməsinə səbəb olmuş və nəticədə son illərdə ilk dəfə olaraq qeyri-ərzaq məhsulları üzrə azalma qeydə alınmışdır. Əmtəə dövriyyəsin azalması qeyri-ərzaq malları üzrə pərakəndə ticarət dövriyyəsinin 6,3 faiz azalması hesabına baş vermişdir.

Məlum olduğu kimi 2014-2015-ci illərdə neft bazarlarındakı əlverişsiz konyuktur nəticəsində yaşanmış xarici şoklarların nəticəsində inflyasiya səviyyəsi kifayət qədər qalxmışdı. Növbəti illərdə ölkədə makroiqtisadi sabitlik bərqərar olunmuş və orta illik inflyasiyanın azalması davam etmişdir. Cari ildə qlobal əmtəə, fond və birjalarda volatil qiymətlər hökm sürsə də tələbin aşağı səviyyəsi nəticəsində cari ilin yanvar-sentyabr aylarında istehlak qiymətləri indeksi (inflyasiya) mülayim olmuş və 2,9 faiz təşkil etmişdir.




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*
**2020-ci ilin yanvar-sentyabr ayları*

**Qrafik 6. 2016-2020-ci illər üzrə inflyasiya səviyyəsi (faizlə)**

Bütün bunların fonunda iqtisadiyyatda yarana biləcək mənfi təsirlərin neytrallaşdırılması üçün preventiv tədbirlər həyata keçirilir. Qlobal dünyada olan neqativ iqtisadi meyillər çərçivəsində belə Azərbaycanın maliyyə imkanları məhdud deyil və makroiqtisadi sabitliyin təmin olunması istiqamətində lazımi tədbirlər davam etdirilir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq qeyd etmək olar ki, ümumiyyətlə pandemiya dövründə iqtisadiyyatın real sektorunda iqtisadi aktivlik xeyli azalsa da bərpa prosesinin daha sürətli olması üçün ölkəmizin iqtisadi patensialı böyükdür. Burada texnoloji yenilikləri özündə ehtiva edən islahatların həyata keçirilməsi, iqtisadiyyatda innovativ dəyərin xüsusi çəkisinin artırılması və sair kimi amillər iqtisadi bərpa prosesinin lokomotivi hesab oluna bilər.

**Monetar sektor**

2020-ci ildə bir sıra ölkələrin valyuta məzənnəsindəki dalğalanmalara, o cümlədən xüsusilə mart ayından başlayaraq milli valyutaya qarşı təzyiqin artmasına baxmayaraq, cari ildə daxili bazarın likvidliyi qorunmuş və manatın məzənnəsində sabitlik olmuşdur. Başqa sözlə makroiqtisadi sabitliyin qorunması məqsədilə fiskal və monetar siyasətlərin qarşılıqlı əlaqələndirilməsinin gücləndirilməsi milli valyutanın mübadilə məzənnəsinin ötən illərdə olduğu kimi cari ildə də sabit olmasını dəstəkləmişdir. Belə ki, 2020-ci ilin yanvar-oktyabr aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,7 manata bərabər olmuşdur.

Digər tərəfdən 2020-ci ilin 9 ayı ərzində kredit təşkilatları tərəfdən iqtisadiyyata 14,9 milyard manat kredit qoyuluşu edilmişdir. Kredit qoyuluşlarında bu ilin aprel-may aylarında ciddi azalma qeydə alınmışdır ki, bu da lisenziyası ləğv edilmiş banklarla əlaqədar olmuşdur.

Eyni zamanda iqtisadi bərpa prosesini sürətləndirilmək məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankı uçot faiz dərəcəsini 6,75 faizdən 6,5 faizə endirmişdir. Belə ki, bu da öz növbəsində inflyasiyanı hədəf diapazonunda (4±2 faiz) saxlamaqla məcmu tələbin dəstəklənməsinə və beləliklə də bərpa prosesinin sürətləndirilməsinə xidmət edəcəkdir.




*Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Qrafik 7. 2017-2020-ci illər üzrə kredit qoyuluşları**

Qeyd olunmalıdır ki, qlobal xarici şoklar və mürəkkəb çağırışlar şəraitində maliyyə sabitliyinin təmin edilməsi, effektiv risk idarəetmə siyasətinin həyata keçirilməsi sayəsində kredit aktivliyinin qorunub saxlanması təmin edilib, kredit portfelinin

keyfiyyətində ciddi dəyişikliklər qeydə alınmamışdır. Ümumilikdə ötən ilin müvafiq dövrü ilə müqayisədə kredit portfelində 6 faizə qədər artım olmasına baxmayaraq, kredit risklərinin məqbul diapazonda idarəolunan səviyyədə olmasına nail olunmuşdur.

Digər tərəfdən ötən ildə enerji daşıyıcıları üzrə əlverişli qiymət səviyyəsi, qeyri-neft məhsulları üzrə ixracın payında artım, həmçinin kapital və maliyyənin hərəkəti hesabında müsbət meyllərin olması tədiyə balansında ümumilikdə 5,1 milyard ABŞ dolları profisitin formalaşmasında əsas rol oynamışdı. Bunun əksinə olaraq cari ildə koronavirus infeksiyasının dünya iqtisadiyyatına mənfi təsirlərinin artması fonunda bu ilin 6 ayı üzrə cari əməliyyatlar hesabının profisiti 2019-cu ilin müvafiq dövrünə nisbətən 5,1 dəfə azalmasına baxmayaraq müsbət saldonu (598,2 mln.$ həcmində) qoruyub saxlamışdır. Eyni zamanda neft-qaz sektoru üzrə cari əməliyyatlar balansının (CƏB) profisiti 1,9 dəfə azalması ilə yanaşı, qeyri-neft sektorunda CƏB kəsiri isə 12,1 faiz azalmışdır ki, nəticədə neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə kəsiri bütövlükdə örtmüşdür.

Qeyd edək ki, mövcud iqtisadi şəraitlər daxilində Mərkəzi bankın valyuta ehtiyatları əvvəlki səviyyəsini qorumaqla yanaşı hətta ilin əvvəli (6 258,0 mln. dollar) ilə müqayisədə 233,4 mln ABŞ dolları və ya 3,7 faiz artaraq oktyabr ayının əvvəlinə 6 491,4 mln. dollara yüksəlmişdir.




*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Qrafik 8. Mərkəzi Bankın valyuta ehtiyatları və tədiyyə balansı ilə bağlı göstəricilər**

Neft qiymətlərinin müxtəlif ssenariləri üzrə proqnozlara əsasən cari il və növbəti ildə cari hesab balansında kəsirin olacağı proqnozlaşdırılsa da ortamüddətli dövr ərzində profisit olması gözlənilir ki, bu da öz növbəsində manatın məzənnəsindəki sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Onu da nəzərə alsaq ki, cari əməliyatlar balansında profisitin azalması birbaşa daha çox neftin qiymətindəki azalma ilə əlaqədardır, bu nöqteyi nəzərdən postpandemiya dövründə qeyri-neft sektorunda inkişafın bərpa edilməsi, qeyri-neft ixracının coğrafiyası və nomenklaturasının genişlənməsi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi və institusional islahatların daha da sürətlənəcəyi, biznes və investisiya mühitinin daha da yaxşılaşması üzrə tədbirlərin həyata keçiriləcəyini söyləmək olar.

**Fiskal sektor və fiskal siyasət üzrə yeni çağırışlar**

Məlum olduğu kimi dünyada yaranmış qeyri-müəyyənliklər və xarici şoklar ölkəmizin də fiskal sektoruna təsirsiz ötüşməmiş, gəlirlərdə geniş diapazonlu volatilliyin artması ilə müşahidə olunmuşdu. Bununla əlaqədar cari ildə büdcənin xarici valyutada olan gəlirlərinin (xüsusilə neft gəlirləri) azalması şəraitində büdcənin gəlir və xərcləri arasından tarazlığın pozulması təhlükəsi yaranmışdı.

Qeyd olunmalıdır ki, qlobal enerji qiymətlərində müşahidə edilən dalğalanmalar nəticəsində "Azəri Layt" markalı xam neftin bir barelinin dünya bazarlarında satış qiyməti 2020-ci ilin 9 ayında orta hesabla 43,1 ABŞ dolları səviyyəsində qərarlaşmış və ilin əvvəlinə nisbətən 38,0 faiz az olmuşdur. COVID-19 pandemiyasının dünyada sürətlə yayılması və OPEC+ razılığının əldə olunmaması nəticəsində "Azəri Layt" markalı neftin bir barrelinin ən aşağı qiyməti (15,81$) cari ilin aprel ayının 21-də qeydə alınmışdır. Lakin OPEC və qeyri-OPEC ölkələri arasında aprelin 12-sində neft hasilatının mərhələlərlə azaldılması barədə razılığın əldə olunması ilə bağlı "Əməkdaşlıq Bəyannamə"si təsdiqləndikdə və növbəti mərhələlərdə dünya iqtsadiyyatında iqtisadi aktivliyin nisbətən bərpa edilməsi sayəsində cari ilin may ayından etibarən enerji bazarında qiymətlər nisbətən stabilləşməyə başlamışdır.




*Mənbə: S&P Global Platts Crude Oil Marketwire nəşrinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

**Qrafik 9. Pandemiyanın neqativ təsirləri və OPEC+ razılığı fonunda "Azərilayt" neftinin qiymətlərinin dəyişməsi**

Aşağı neft gəlirləri ilə bərabər digər tərəfdən səhiyyə sahəsində xərclərin artırılması zərurəti, pandemiyanın mənfi təsirlərinin azaldılması məqsədilə sosial-iqtisadi dəstək tədbirləri, o cümlədən sahibkarlıq subyektlərinə dəstək üçün müvafiq maliyyə təminatının formalaşdırılması kimi faktorlar cari ilin birinci yarısında dövlət büdcəsində proqnozlaşdırılmamış əlavə xərcləri yaratmışdı. Belə ki, koronavirusla mübarizədə nəzərdə tutulan tədbirlərin maliyyələşməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Dövlət büdcəsindən ayrılan vəsaitdən (20 milyon manat) əlavə fiziki və hüquqi şəxslərin könüllü ödəmələri əsasında formalaşan Fondun vəsaitin ümumi həcmi hal-hazırda 113,8 milyon manat təşkil edir. Ümumdünya

Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən səhiyyə sisteminin artan yükünün azaldılması məqsədilə dünyada yaradılmış belə fondların sayı 40-dan çoxdur.

Koronavirusla mübarizə fondlarından əlavə sosial-iqtisadi dəstək paketlərinin hazırlanması daha genişmiqyaslı mübarizə tədbirlərinin maliyyələşdirilməsi üçün daha məqsədəuyğun hesab olunur. Bu əsasda BVF-in məlumat bazası 189 ölkəni özündə ehtiva etməklə 2020-ci il sentyabrın 11-dək qəbul edilmiş bütün fiskal dəstək paketlərini özündə əks etdirir. Sözügedən sosial-iqtisadi dəstək paketlərinin əsas istiqamətləri, o cümlədən dəstək paketinin həcmi müxtəlif ölkələr üzrə bir-birindən fərqlənir. Aşağıdakı xəritədən də göründüyü kimi ölkəmizdə büdcə vəsaiti hesabına həyata keçirilən dəstək paketinin həcmi 2,5%-5% aralığında göstərilmişdir.

Daha dəqiq desək məlum olduğu kimi 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamla koronavirusla mübarizə tədbirlərini özündə birləşdirən tədbirlər planı təsdiq edildi. Dövlət büdcəsindən və digər büdcədənkənar fondlardan maliyyə resursları səfərbər edilərək ümumi dəstək paketinin ÜDM-də xüsusi çəkisi 4,7% məbləğində nəzərdə tutulmuşdur. Sözügedən sərəncamda qeyd edilən tədbirlərlə yanaşı digər dəstək tədbirlərin həyata keçirilməsi ümumilikdə 3,0 milyon nəfərə yaxın vətəndaşı əhatə etmişdir.




***Mənbə:*** *Beynəlxalq Valyuta Fondunun "Fiskal monitor" məlumat bazası (oktyabr 2020)*

**Şəkil 2. Sosial-iqtisadi dəstək paketinin ölkələr üzrə həcmi, ÜDM-də xüsusi çəkisi %**

Hazırlanmış sosial-iqtisadi dəstək paketi yalnız pandemiya dövründə neqativ meyillərin neytrallaşmasına deyil, həm də strateji istiqamətdə post-pandemiya dövründə iqtisadi aktivliyin bərpa edilməsinə xidmət edir. Bu nöqteyi nəzərdən, sahibkarlıq subyektlərinə verilmiş vergi güzəştləri və həmçinin güzəştli kreditlərə çıxış imkanının genişləndirilməsi sahibkarlara sözügedən güzəştlərdən istifadə edərək xərclərini minimumlaşdırmaqla iqtisadi aktivliyi daha qısa müddətdə bərpa etmək imkanını yaradır. Başqa sözlə qeyd etmək lazımdır ki, pandemiya zamanı təsərrüfat subyektləri birbaşa dövlət maliyyə dəstəyi ilə yanaşı, onların xərclərinin minumuma endirilməsi məqsədilə kredit resurslarına çıxışın artırılmasını özündə ehtiva edən sosial-iqtisadi dəstək paketi icra olunur.

Çox istiqamətli tədbirləri özündə əks etdirən dəstək paketinin maliyyələşdirilməsi baxımından ilk öncə fiskal siyasət ilə bağlı yeni çağırışlar formalaşmışdı. Başqa sözlə pandemiyanın təsirləri fonunda dövlət büdcəsinin gəlirləri azaldığına görə büdcədə xərcləri azaltmaq, yaxud dövlət borclanmasına getmək dilemması mövcud idi. Belə ki, 2018-ci ildə büdcə sistemi haqqında qanunvericiliyə edilmiş dəyişikliyə əsasən icmal büdcə xərclərinin və Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi büdcə qaydasına əsasən, xalis maliyyə aktivləri və proqnozlaşdırılan neft gəlirləri əsasında müəyyən edilirdi. Lakin cari ildə mövcud iqtisadi şərait daxilində aşağı neft qiymətləri büdcə qaydasının tətbiqi ilə bağlı çətinliklər formalaşdırmışdı.

Belə ki, büdcə qaydasına uyğun olaraq hesablandıqda icmal büdcənin xərcləri və Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin gözlənilən həcmləri cari ildə təqribən 2,5 milyard manat azaldılmalı idi. Bununla kəskin daraldıcı fiskal siyasət də öz növbəsində iqtisadi fəallığın və məşğulluğun kəskin azalmasına və tənəzzülün dərinləşməsinə səbəb ola bilərdi. Pandemiyanın təsiri çərçivəsində iqtisadi aktivliyin zəifləməsi ilə bağlı qeyri-neft gəlirlərinin həcminin azalması nəticəsində dövlət büdcəsi qarşısında öhdəliklərin vaxtında icrasını təmin etmək məqsədilə transfertin kəskin azaldılmaması mühüm əhəmiyyət kəsb edirdi.

Məhz sözügedən məsələlərin həlli baxımından dövlət büdcəsi qarşısında öhdəliklərin ödənilməsi məsələlərinin təmin olunması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanuna əsasən büdcə qaydasının tətbiqi 2022-ci il 1 yanvar tarixindək dayandırılmış və Dövlət Neft Fondundan transfertin məbləği və büdcə kəsirinin genişləndirilməsi hesabına dövlət büdcəsinin xərcləri artırılmışdır. Post-pandemiya dövründə potensial fiskal risklərin yaranmaması istiqamətində növbəti illərdə transfertin mərhələli şəkildə azaldılması fiskal siyasətin uzunmüddətli dayanıqlılığının təmin edilməsinə xidmət edəcəkdir.

Makroiqtisadi sabitliyin təmin olunması məqsədilə kontr-tsiklik fiskal siyasətin davam etdirilməsi, habelə ölkə iqtisadiyyatının xarici şoklara hazırlığının təmin edilməsi ilə paralel olaraq aztəminatlı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və məşğulluq səviyyəsinin artırılması kimi məsələlərə xüsusi diqqət yetirilməkdədir.

Fiskal siyasətin əsas məqsədi pandemiyanın iqtisadiyyata təsirinin minimuma endirilməsi və iqtisadi bərpa proseslərinin sürətləndirilməsi, xüsusilə real sektorun inkişafının bərpası üçün məcmu tələbin dövlət xərcləri vasitəsilə müəyyən səviyyədə stimullaşdırılmasına, ölkədə makroiqtisadi sabitliyin qorunmasına xidmət etməyə yönəldilməlidir. Post-pandemiya dövründə neft-qaz sektorundan əldə olunan gəlirlərin azalması fonunda gəlir və xərclərin ahəngdarlığının təmin edilməsi üçün qeyri-neft sektoru üzrə gəlirlərin dövlət büdcəsi gəlirlərində xüsusi çəkisinin ardıcıl surətdə artırılması üzrə tədbirlərin həyata keçirilməsi vacibdir. Dövlətin büdcə siyasətində gəlirlərin şaxələndirilməsi, vergi bazasının genişləndirilməsi, balanslaşdırılmış gəlir-xərc strukturu, habelə gəlirlərin sabitliyinin təmin edilməsi strateji əhəmiyyət daşıyır.

Qeyd olunanlarla yanaşı ortamüddətli dövrdə gözlənilən iqtisadi artım templəri regionda geosiyasi sabitlikdən də müəyyən qədər asılı olacaqdır. Belə ki, ölkəmizin regional iqtisadi inkişaf təşəbbüslərinə baxmayaraq, Ermənistanın işğalçılıq siyasəti regionda iqtisadi əməkdaşlığın hərtərəfli inkişafına maneələr yaradır. Cari ilin sentyabr ayının 27-də Azərbaycana qarşı edilmiş növbəti təxribat bunun bariz nümunəsidir. Lakin güclü iqtisadiyyat və güclü ordunun vəhdəti sayəsində bu məsələ tezliklə öz

həllini tapacaq və bütün işğaldan azad edilmiş ərazilərdə abadlıq-quruculuq işləri görüləcək, iqtisadiyyatın bəzi sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Ümumiyyətlə postpandemiya dövründə qeyri-neft sektoru daxilində emal sənayesinin genişlənməsi, kənd təsərrüfatı, neft-kimya, nəqliyyat-logistika, turizm, ticarət, rəqəmsal iqtisadiyyat və İKT sahələrinin inkişafı əsas prioritetlərdən hesab edilir.

Cari ildə olduğu kimi növbəti ildə də zərər çəkmiş iqtisadi subyektlərə dövlət dəstəyinin göstərilməsi ilə yanaşı əhalinin sosial yaşayış səviyyəsinin yaxşılaşdırılması, səhiyyə, təhsil, o cümlədən bunları özündə ehtiva edən prioritet dövlət programları və layihələri üzrə maliyyələşmənin davam etdirilməsi ümumilikdə əhalinin sosial rifahının qorunmasına xidmət edəcək və iqtisadi artımın bərpa edilməsini dəstəkləyəcəkdir.

Bu əsasda dövlətin əsas funksiyalarının həyata keçirilməsi məqsədilə 2021-ci ildə dövlət büdcəsin xərcləri ilkin olaraq 25 847,5 mln. manat məbləğində proqnozlaşdırılır. Dövlət büdcəsi xərclərinin tərkibində cari xərclər 18 106,6 mln manat (xüsusi çəkisi 70,1 %), əsaslı xərclər 5 389,1 milyon manat (xüsusi çəkisi 20,8 faizi), dövlət borcuna xidmətlə bağlı xərclər isə 2 351,8 mln. manat (xüsusi çəkisi 9,1 %) təşkil edəcəkdir. Qeyd edilməlidir ki, növbəti ilin dövlət büdcəsini əsas səciyyəvi xüsusiyyətlərindən biri sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərində xüsusi çəkisinin təxminən 42 faiz təşkil etməsidir.




*Mənbə: "Azərbaycan Respublikasının 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama"*

**Qrafik 10. Dövlət büdcəsinin xərclərinin strukturu**

Belə ki, bu məqsədlə sosial-iqtisadi dəstək tədbirlərinin həyata keçirilməsinin davam etdirilməsinin əsas prioritet istiqamətlərdən olacağını söyləmək olar. Bununla yanaşı ölkədə qeyri-rəsmi məşğulluq səviyyəsinin, o cümlədən kölgə iqtisadiyyatının azaldılması, şəffaflığın artırılması istiqamətində görülən tədbirlər, digər tərəfdən də qeyri-neft sektoru üzrə vergi güzəştləri və azadolmaları nəticəsində növbəti ildən etibarən qeyri-neft sektorunun bərpası və dinamik inkişafı 2021-ci il və ortamüddətli dövrdə dövlət büdcəsi gəlirlərinin formalaşmasının əsas hərəkətverici qüvvəsi olacaqdır. Postpandemiya dövründə kontr-tsiklik fiskal siyasətin həyata keçirilməsi ölkə iqtisadiyyatında real sektorun inkişaf meyllərinin bərpa edilməsinə, həmçinin büdcənin gəlir və xərcləri arasında tarazlığın pozulması təhlükəsinin aradan qalxmasına, habelə dövlət büdcəsinin icrasında ahəngdarlığın təmin edilməsinə xidmət edəcəkdir.

**Nəticə**

Yuxarıdakı təhlilləri nəzərə alaraq yekun olaraq deyə bilərik ki, pandemiyanın dünya miqyasında çox episentirli hal alması və bununla bərabər volatil neft qiymətlərinin neqativ təsirlərinin digər ölkələrlə yanaşı Azərbaycanda da bu ilin sonuna qədər davam edəcəyi ehtimal olunur. Lakin aşağı neft qiymətləri fonunda neft ixrac edən ölkələrin ümumi iqtisadiyyatında kəskin geriləmələrə baxmayaraq Azərbaycan iqtisadiyyatı nəinki neft ixrac edən ölkələr arasında hətta digər bir çox ölkələrlə müqayisədə pandemiyadan daha az təsirlənən ölkələrdən biridir. Bu çalışmanın yekun nəticəsi həmçinin digər bir sıra başqa tədqiqatların da nəticələri ilə üst-üstə düşməkdədir. Belə ki, əvvəl edilən bəzi araşdırmalarda da iqtisadiyyatın bir sıra əsas sahələrində geriləmənin hətta 8-9 aylıq müddətdə mütəmadi hal alması, istirahət və otelçilik sferasının demək olar ki, iflic olması vurğulanır. Lakin bütün bunların fonunda iqtisadi inkişaf meyillərinin yenidən bərpası isə ölkələrin bir sıra milli xüsusiyyətlərindən, sosial-iqtisadi dəstək paketlərinin keyfiyyətcə yeni mühitdə hansı dərəcədə reallaşmasından asılı olacaqdır.

Beləliklə, aparılmış tədqiqat nəticəsində belə qənaətə gəlmək olur ki, post-pandemiya dövründə neft-qaz sektorundan əldə olunan gəlirlərin azalması fonunda gəlir və xərclərin ahəngdarlığının təmin edilməsi üçün qeyri-neft sektoru üzrə gəlirlərin dövlət büdcəsi gəlirlərində xüsusi çəkisinin ardıcıl surətdə artırılması üzrə tədbirlərin həyata keçirilməsi vacibdir. Fiskal siyasətin əsas məqsədi pandemiyanın iqtisadiyyata təsirinin minimuma endirilməsi və iqtisadi bərpa proseslərinin sürətləndirilməsi, xüsusilə real sektorun inkişafının bərpası üçün məcmu tələbin dövlət xərcləri vasitəsilə müəyyən səviyyədə stimullaşdırılmasına, ölkədə makroiqtisadi sabitliyin qorunmasına xidmət etməyə yönəldilməlidir. Burada texnoloji yenilikləri özündə ehtiva edən islahatların həyata keçirilməsi, iqtisadiyyatda innovativ dəyərin xüsusi çəkisinin artırılması və sair kimi amillər iqtisadi bərpa prosesinin lokomotivi hesab oluna bilər.

Cari ildə olduğu kimi növbəti ildə də zərər çəkmiş iqtisadi subyektlərə dövlət dəstəyinin göstərilməsi ilə yanaşı əhalinin sosial yaşayış səviyyəsinin yaxşılaşdırılması, səhiyyə, təhsil, o cümlədən bunları özündə ehtiva edən prioritet dövlət proqramları və layihələri üzrə maliyyələşmənin davam etdirilməsi ümumilikdə əhalinin sosial rifahının qorunmasına xidmət edəcək və iqtisadi artımın bərpa edilməsini dəstəkləyəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı https://www.stat.gov.az/

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyi - “2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama” http://www.maliyye.gov.az/static/253/ilkin-budce-gostericileri

3. Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi saytı, https://www.cbar.az/

4. EIA (2020), "Short-Term Energy Outlook – October 2020", https://www.eia.gov/outlooks/steo/

5. International Monetary Fund. World Economic Outlook: The Great Lockdown. Washington, DC, October 2020 https://www.imf.org/en/publications/weo

6. International Monetary Fund (IMF). Fiscal Monitor: Policies for the Recovery. Washington, October 2020 https://www.imf.org/en/Publications/FM

7. S&P Global Platts Crude Oil Marketwire, https://www.spglobal.com/platts

# *АНАЛИЗ ГЛОБАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ВЫЗОВОВ И ТЕНДЕНЦИЙ ВОССТАНОВЛЕНИЯ ЭКОНОМИКИ*

*Эльмир ЭЙВАЗ-ЗАДЕ*

**Резюме**

*В этом исследовании оцениваются глобальные вызовы, создаваемые пандемией коронавируса для мировой экономики, а также изучаются ключевые тенденции воздействия на экономику Азербайджана. В статье оценивается влияние пандемий и других связанных с ними процессов на макроэкономическую стабильность с использованием ряда статистических данных как с глобальной, так и с национальной экономической точки зрения. В целом, были проанализированы основные тенденции экономики страны по различным ключевым параметрам, включая реальный сектор, денежно-кредитный и фискальный секторы, а также проведен сравнительный анализ с использованием прогнозов ряда международных финансовых институтов для мировой и азербайджанской экономики.*

*При этом отмечена важность текущих мер социально-экономической поддержки на фоне ускорения восстановления экономического развития в среднесрочной перспективе, а также подчеркнута важность проведения антициклической фискальной политики. Представленная работа отражает угрозы макроэкономической стабильности, а также основные приоритеты устойчивого развития в постпандемический период.*

***Ключевые слова:*** *Коронавирус (COVID-19), глобальные экономические проблемы, макроэкономические последствия, антициклическая фискальная политика, экономика Азербайджана.*

# *ANALYSIS OF GLOBAL-ECONOMIC CHALLENGES AND TRENDS OF ECONOMIC RECOVERY*

*Elmir EYVAZ-ZADA*

**Abstarct**

*This study assesses the global challenges posed by the coronavirus pandemic in the world economy, as well as examines key trends in the impact on the Azerbaijani economy. The article assesses the impact of pandemics and other related processes on macroeconomic stability using a number of statistics from both the global and national economies. In general, the main trends of the country's economy, including the real sector, monetary and fiscal sectors, were analyzed in relation to various key parameters, including a comparative analysis using forecasts of a number of international financial institutions for the world and Azerbaijani economies.*

*At the same time, the importance of the current socio-economic support measures against the background of accelerating the recovery of economic development in the medium term was mentioned, and the importance of the implementation of countercyclical fiscal policy was emphasized. The presented work reflects the threats to macroeconomic stability, as well as the main priorities for sustainable development in the post-pandemic period.*

***Keywords:*** *Coronavirus (COVID-19), global economic challenges, macroeconomic impacts, countercyclical fiscal policy, Azerbaijan's economy.*

*UOT 336*

# *AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ BİZNES FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VE İNVESTİSİYA MÜHİTİ ARASINDA ƏLAQƏ*

*Yusif Ramin MƏMMƏDOV,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*məmmədov y994@gmail.com*

***Xülasə***

*İnvestisiya iqtisadiyyatın sahə quruluşunun müəyyənləşdirilməsində mühüm rol oynayır. Yəni hər hansı bir sektora qoyulan investisiya həcmi nə qədər çox olarsa, bu sektorda iqtisadi artım tempi də o qədər yüksəkdir. Bu baxımdan ölkəmizdə neft sektorunun yüksək inkişafı həm strateji məhsul olması, həm də bu sahəyə böyük həcmdə investisiya qoyuluşu sayəsində mümkün olmuşdur. Müstəqillik dövründə neft sənayesinə yatırılan böyük həcmdə təbii ki, neft məhsullarının həcminin və ixrac strukturundakı neft məhsullarının payının artmasında bir amil oldu.*

*Dövrümüzdə iqtisadi inkişafın effektivliyini təsdiqləyən amil neft, təbii qaz, qızıl, gümüş deyil, iqtisadiyyatın texnologiyalara və qabaqcıl texnologiyalara əsaslanan quruluşudur. Buna görə qeyri-neft sektorunun inkişafı zəruridir. Artıq qeyd etdiyimiz kimi, qeyri-neft sektorunun inkişafında əsas amil investisiyalardır. Bununla yanaşı qeyd etmək lazımdır ki, neft sektoruna qoyulan investisiyaların payı yüksək olaraq qalır. Azərbaycan hökuməti qeyri-neft sektorunun və sənayenin inkişafı üçün ciddi addımlar atır, çünki neft tükənmiş bir təbii sərvətdir və iqtisadiyyatın asılılığını artırır.*

*Məqalədə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı təhlil edilmişdir. Son illərdə ölkədə qeyri-neft sektorunun inkişafı üçün strateji bir yol xəritəsinin qəbul edildiyi və nəticədə iqtisadiyyatın digər sahələrinin inkişafına xüsusi diqqət yetirildiyi qeyd olunur.*

***Açar sözlər:** qeyri-neft sektoru, biznes fəaliyyəti, investisiya, qiymətləndirmə, investisiya fəallığı, ÜDM.*

## Giriş

İqtisadiyyatını və ixracatını şaxələndirərək neft və qaz gəlirlərindən asılılığını azaltmağa çalışan Azərbaycan üçün qeyri-neft sektoruna, xüsusən də istehsalata birbaşa xarici investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda iqtisadi inkişafın təmin edilməsi, dövlət büdcəsi gəlirlərinin qorunub saxlanılması üçün qeyri-neft sektorunun payının artırılması ölkənin yeni iqtisadi modelinin əsas prioritetlərindən biridir. Buradakı vacib məsələlərdən biri də xarici investorlar üçün iqtisadiyyatın maksimum cəlbediciliyini təmin etməkdir.

Bir çox inkişaf etməkdə olan ölkələr üçün həm xarici, həm də daxili investisiyalar bir ölkənin iqtisadi inkişafı və makroiqtisadi sabitlik üçün mühüm rol oynayır. Xarici investisiyalar, məhsuldarlığı artırmaqla, texnologiyanı bir ölkədən digərinə ötürmək, məşğulluğu artırmaq və geniş mənada makroiqtisadi sabitlik və iqtisadi artımı təmin etməklə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatını şaxələndirməyə kömək edir. Xarici investisiyalar, yeni texnologiyaların və resursların hərəkətini və köçürülməsini, islahatların həyata keçirilməsini və maliyyə institutlarının yaradılmasını sürətləndirərək ölkələrin potensialını məhdudlaşdırmamağa kömək etdi.

Təsadüfi deyil ki, hökumətin Azərbaycan Respublikasının 2025-ci ilədək Milli İqtisadi Perspektivlərinə dair Strateji Yol Xəritəsində təyin etdiyi dörd hədəf

göstəricidən birincisi "xarici birbaşa investisiyaların qeyri-neft ÜDM-də payını 4% -ə çatdırmaqdadır" (2015-ci ildə 2,6 %) [7].

Böyük karbohidrogen ehtiyatlarına sahib olan Azərbaycanın neft və qaz sektoru hər zaman xarici investisiyalar üçün cəlbedici olub: 2000-2019-cu illərdə ölkə iqtisadiyyatına 77,8 milyard manat investisiya qoyulub. Neft və qaz sektoru birbaşa xarici investisiyaların (66,8 milyard ABŞ dolları) 85%-dən çoxunu təşkil edir [8].

Ancaq ölkənin qeyri-neft və qaz sektoru, xüsusən də emal sənayesi neftin bol olduğu dövrdə xarici investorlar tərəfindən kifayət qədər maraq görmədi. Xarici investorlar ölkənin neft-qaz sektorunda bu qədər fəal olduqları üçün, qeyri-neft və qaz (qeyri-istehsal) sektorları ilə maraqlarının az olduğunu düşünməyə vadar edir. Bu sektorlarda birbaşa xarici investisiyaların iştirakını artırmaq üçün xarici investorlar ilə bağlı məhdudiyyətləri müəyyənləşdirmək və onları həll etmək üçün addımlar atmaq vacibdir. Son üç ildə investisiya aktivliyini artırmaq üçün qəbul edilmiş hökumət qərarlarının effektivliyi və adekvatlığı mövcud olan problemlərin də həll edilməli olduğunu göstərir.

Xatırladaq ki, 2015-ci ilin sonu, 2016-cı ilin əvvəlləri bu istiqamətdə yeni islahatlara start verildi. Qeyri-neft istehsalını stimullaşdırmaq, sahibkarlıq üçün daha əlverişli bir mühit yaratmaq və kənd təsərrüfatında ölkəmizə valyuta gətirə biləcək sahələri inkişaf etdirmək üçün təcili addımlar. atıldı. Prezidentin imzaladığı fərman və sərəncamlar, müvafiq qanun və Milli Məclis və Nazirlər Kabineti tərəfindən qəbul edilən qərarlar yeni iqtisadi islahatların hüquqi əsasını təşkil etdi. Reallıq budur ki, son illər aparılan iqtisadi islahatlar nəticəsində bu sahədə ciddi irəliləyişlər əldə edilmiş, qeyri-neft sektorunun ÜDM-dəki payı artmış və rəqabətə davamlı məhsulların istehsalı artmışdır.

Neft gəlirlərinə görə Azərbaycanda infrastruktur modernləşdirmə, qeyri-neft iqtisadiyyatına investisiya qoyuluşu, ÜDM-dən artıq olan strateji valyuta ehtiyatlarının yaradılması, biznüs mühitinin daha da yaxşılaşdırılması və ölkəmizin beynəlxalq tranzit imkanlarının artırılması, nəticədə iqtisadi inkişafı stimullaşdırmışdır.

Problemin iqtisadi inkişafla əlaqəli tarixi inkişaf nöqteyi-nəzərindən təhlil edildiyi sistematik analiz metodu tətbiq olunur. Məqalədə elmi analiz, həm də məntiqi təhlil, iqtisadi və statistik metoddan, müqayisə metodlarından istifadə edilmişdir.

2014-cü ildən bəri beynəlxalq iqtisadi sistemdə davam edən proseslər nəticəsində Azərbaycanda həm ticarət, həm də neft qiymətlərində kəskin eniş baş verdi. Tərəfdaş ölkələrdəki böhran nəticəsində iqtisadi artım dinamikasında azalma nəticəsinddə, ölkəmizdə iqtisadi inkişafa yeni yanaşmalar tətbiq etmək lazım olduğu ortaya çıxdı. Son illərdə baş verən proseslərə əsasən qeyri-neft sektorundakı mövcud potensialı səfərbər etmək, bu sahədə dinamik inkişafı təmin etmək üçün yeni iqtisadi islahatlar aparmaq qarşıya məqsəd kimi qoyulmuşdur.

Müasir şəraitdə qeyri-neft sektorunun inkişafında müxtəlif problemlər mövcuddur ki, onların həlli həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətli mal kütləsinin formalaşması üçün əlverişli şərait yarada bilər. Bu baxımdan qeyri-neft sektorunun inkişafında investisiyanın rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Əsasən bazarlarda malların həcminin artmasına xidmət edən investisiyaların kütləsi məhsulların rəqabət qabiliyyətinin artırılması üçün də əlverişli şərait yaradır. Bundan əlavə, istehsalın intensivləşdirilməsi, habelə son elmi-texniki tərəqqinin əldə etdiyi nailiyyətlərin istehsalda davamlı tətbiqi yenilikçi olmayan istehsal sahəsində əhəmiyyətli bir müvəffəqiyyətə səbəb olur.

Müasir şəraitdə iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu istehsal sahələrinin yenilənməsinin əsas şərtlərindən biridir. İnvestisiyalar istehsal bazasının fiziki və köhnəlməsinin qarşısını alan əsas vasitələrdən biridir. Bu baxımdan, investisiyaların rolunu artırmağa yönəlmiş tədbirlərin həyata keçirilməsi qeyri-neft sektorunda xüsusilə vacibdir. Nəzərə alınmalıdır ki, qeyri-neft sektorundakı əksər müəssisələrin fiziki və mənəvi köhnəlməsi, əsas fondların iqtisadi sabitliyinin azalması onların rəqabət qabiliyyətli məhsul istehsal etmək və daxili və xarici bazarlara mal təklif etmək qabiliyyətinə mənfi təsir göstərir. Bu baxımdan, qeyri-neft sektoru müəssisələrinin istehsal fondlarının daim yenilənməsinə ehtiyac var. Bütün bunlar, artıq qeyd olunduğu kimi müəssisələrə artan sərmayə qoymağı tələb edir [5, s.32].

Qeyri-neft sektoru müəssisələri iqtisadiyyatın neft sektoru ilə müqayisədə nisbətən aşağı investisiya cəlbediciliyinə malikdir. Bu baxımdan qeyri-neft sektoru müəssisələrində daha həssas və xüsusilə həssas əmtəə kütlələri formalaşır. Qeyri-neft sektorunda kənd təsərrüfatı məhsulları xüsusilə həssas bir mal qrupu hesab edilə bilər. Bu məhsulların istehsalı əsasən təbii və iqlim şəraitindən asılıdır. Bundan əlavə məhsul istehsalı əsasən geniş inkişaf bazasına əsaslandığından, bu sahədəki xarici investisiyalar investorlar üçün sərfəli deyil. Əlavə olaraq, əsasən istehsal məhsullarına aid edilə bilən həssas məhsul qrupları var.

Emal sənayesi məhsullarının həssaslığı, rəqabət qabiliyyətinin aşağı olması ilə əlaqədardır və idxal olunan malların kütləsi daxili bazardakı mövqelərini əhəmiyyətli dərəcədə təsir edə bilər. Bu səbəbdən də dövlətin qeyri-neft sektoru müəssisələrinə investisiyalar üçün lazımi dəstəyi təmin etməsi vacibdir. Bundan əlavə, dövlət dəstəyi ilə hədəfli maliyyə proqramlarının hazırlanması müasir şəraitdə qeyri-neft sektorunun inkişafını stimullaşdırmaq üçün ən vacib vasitələrdən biri hesab olunur [2, s.63].

Qeyri-neft sektorunun inkişafında xüsusiyyətlərinə diqqət yetirmək öyrənməyə ehtiyac artmaqdadır. Qeyd etmək lazımdır ki, investisiyalar daha çox iqtisadi kateqoriyadır və onların öz bazar konsepsiyaları var. Bu baxımdan investisiya kateqoriyası düzgündür. Qeyri-neft sektorundakı rollarını müəyyənləşdirmək və öyrənmək ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

Neft tükənmiş bir təbii sərvət olduğundan və iqtisadiyyatın asılılığını artırdığından, Azərbaycan hökuməti qeyri-neft sektorunun və sənayenin inkişafı üçün ciddi addımlar atır. Bunu nəzərə alaraq 6 dekabr 2016-cı ildə hökumətimiz Milli İqtisadiyyatın və İqtisadiyyatın Əsas Sektorlarının Strateji Yol Xəritəsi haqqında Qərar imzaladı [1].

Kənd təsərrüfatı, turizm, informasiya və kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələrdir. Beynəlxalq maliyyə qurumları bu sahələr arasında kənd təsərrüfatı və turizmin əhəmiyyətini vurğulayırlar. Beləliklə, ölkənin məşğul əhalisinin təxminən 44% -i kənd təsərrüfatında çalışır. Bu səbəbdən də ölkədə kənd təsərrüfatının inkişafı, islahatların aparılması və yeni texnologiyaların tətbiqinə yönəlmiş bir sıra dövlət proqramları həyata keçirilir. Azərbaycanla sıx əməkdaşlıq edən Asiya İnkişaf Bankı həm də kənd təsərrüfatını və turizmi ölkədə qeyri-neft sektorunun inkişafında aparıcı istiqamət hesab edir. Bank hesab edir ki, bölgələrdəki infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı istehsalçılarına subsidiya verilməsi və onlar üçün vergi güzəştlərinin qorunması böyük potensiala malik olan Azərbaycanda kənd təsərrüfatının inkişafına kömək edir. Banka görə, ölkənin turizm potensialından tam istifadə edilməsi qeyri-neft ÜDM-in artmasına səbəb olacaq. Beləliklə, Azərbaycanın zəngin turizm potensialı və

son illərdə ölkədə turizm infrastrukturunun sürətlə inkişafı, qeyri-neft sektorunun bu sahəsində ölkəsi üçün böyük faydalar vəd edir [9].

Aşağıdakı qrafikdə son 5 ildə ölkədə iqtisadiyyata yönəldilmiş investisiya qoyuluşlarının dinamikasını vermək olar. Qrafikdən göründüyü kimi 2015-2019-cu illərdə iqtiadiyyata yatırılan bütün investisiya qoyuluşlarında artım müşahidə olunmuşdur. 2019-cu ildə 2018-ci ilə nisbətən investisiya qoyuluşunda azalma müşahidə olunmuşdur.




*Mənbə: https://www.stat.gov.az/source/finance/ (10.01.2020)*

**Qrafik 1. İqtisadiyyata yönəldilən investisiyalar**

2018-ci il ərzində iqtisadiyyatın əsas kapitala yönəldilmiş ümumi investisiyanın 65,5% -i və ya 11,289,3 milyard manatı qeyri-neft sektoruna yönəldilmişdir. Əsas kapitala qoyulmuş investisiyaların 15,7% -i və qeyri-neft sektoruna qoyulmuş investisiyaların 24,0% -i və ya 2704,9 milyon manatı qeyri-neft sənayesinin inkişafına sərf edilmişdir.

2020-ci ilin yanvar-noyabr aylarında əsas kapitala 12,716,6 milyard manat vəsait ayrılmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrünə nisbətən 4,0 faiz azdır. Bunu da COVİD-19 pandemiyasının iqtisadiyyata vurduğu ziyanla əlaqələndirmək olar. Neft və qaz sektoruna qoyulan investisiyaların həcmi 8,4% artdı, qeyri-neft və qaz sektoruna yönəldilən vəsaitlərin həcmi isə 11,0% azaldı. İstifadə olunmuş vəsaitin 8374,4 milyon manatı və ya 65,9% -i istehsal sahələrinə, 3185,0 milyon manatı (25,0%) xidmətə, 1,157,2 milyon manatı (9,1%) yaşayış binalarının tikintisinə xərclənmişdir. Əsas kapitala ayrılan vəsaitin 8.130.5 milyard manatı və ya 63.9 faizi daxili fondların payına düşür. Əsas kapitala ayrılan vəsaitin 7,958,2 milyon manatı və ya 62,6% -i tikinti-quraşdırma işlərinə sərf edilmişdir [10].

**Cədvəl 1. Azərbaycanda əsas kapitala investisiya yönəldilməsinin strukuru, %**

| İllər | Neft sektoru | Qeyri-neft sektoru |
|---|---|---|
| **2015** | 44,6 | 55,4 |
| **2016** | 51,0 | 49,0 |
| **2017** | 54,0 | 46,0 |
| **2018** | 65,5 | 34,5 |
| **2019** | 66,5 | 33,5 |

*Mənbə: https://www.stat.gov.az/source/finance/ (25.12.2019)*

Aşağıdakı cədvəl 2-də olan məlumatlar qeyri-neft sektorunun ÜDM-dəki payının 2011-ci ildəki 44,54% -dən 2017-ci ildə 57,1% -ə, 2019-cu ildə isə 56,8 %-ə

yüksəldiyini göstərir. Digər tərəfdən qeyd etmək lazımdır ki, qeyri-neft sektorundakı artım tempi, neft və qaz sektoru və ÜDM artımı tempin üstündə idi. Beləliklə, Cədvəl 2-dəki məlumatların təhlili göstərir ki, 2006-2011-ci illərdə neft və qaz sektorunda istehsal olunmuş ÜDM qeyri-neft sektorunun ÜDM-ni üstələyib. Lakin 2012-ci ildən bəri qeyri-neft sektorunda istehsal olunan ÜDM həcmi neft və qaz sektorunu keçib. 2012-ci illə müqayisədə 2019-ci ildə qeyri-neft sektorunun ÜDM-i 49,2% artmış, neft və qaz sektoru üçün isə bu göstərici cəmi 22,8% olmuşdur.

**Cədvəl 2. İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı (milyon manatla)**

| İllər | ÜDM | Neft sektoru | Qeyri-neft sektoru | Məhsula və idxala xalis vergilər |
|---|---|---|---|---|
| **2011** | 52082,0 | 25829,9 | 23196,1 | 3056,0 |
| **2012** | 54743,7 | 24487,3 | 26864,4 | 3392,0 |
| **2013** | 58182,0 | 23778,1 | 30525,9 | 3878,0 |
| **2014** | 59014,1 | 21405,2 | 33195,9 | 4413,0 |
| **2015** | 54380,0 | 15382,2 | 34138,8 | 4859,0 |
| **2016** | 60425,2 | 19552,6 | 35951,1 | 4921,5 |
| **2017** | 70337,8 | 25005,4 | 40328,0 | 5004,4 |
| **2018** | 80092,0 | 32231,7 | 41662,0 | 6198,3 |
| **2019** | 81681,0 | 30091,0 | 44471,8 | 7118,2 |

*Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts/ (25.12.2019)*

Ölkə iqtisadiyyatını həm neft, həm də qeyri-neft sektorunda təhlil edərkən, zamanla artım sürətini analiz etmək də maraqlıdır. Cədvəl 2-dəki məlumatlara əsasən qeyd etmək olar ki, 2014-2019-cu illər üçün ÜDM-in orta illik artım sürəti 0,6%, neft və qaz sektoru - 3,3%, qeyri-neft sektoru isə 4,6% təşkil etmişdir. Beləliklə, təhlillər göstərir ki, 2014-2019-cu illərdə qeyri-neft sektorunun artım templəri həm ÜDM-in, həm də neft sektorunun artım templərindən yüksək olmuşdur. Ümumiyyətlə, yuxarıdakı cədvəllərdəki məlumatlara əsasən, ölkənin qeyri-neft sektorunun istehsal baxımından səmərəsiz şəkildə formalaşdığı qənaətinə gələ bilərik. Eyni zamanda, qeyri-neft sektorunda əlavə dəyərin təhlili də maraqlıdır.




*Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts/ (2019)*

**Qrafik 2. ÜDM-nin artım tempi əvvəlki ilə nisbətdə faizlə**

İnvestisiyaların sektoral bölgüsünə baxsaq, aydın olur ki, Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar əsasən enerji sektoruna qoyulur. 2003-2018-ci illərdə ölkəyə cəlb olunan birbaşa xarici investisiyalardan əldə olunan gəlirin 85,6% -i neft və qaz istehsalı və satışı ilə bağlı layihələrə yatırıldı. 2-ci mərhələdə xarici investisiyaların 93% -i neft sektoruna yönəldilmişdisə, 3 və 4-cü mərhələləri əhatə edən illər ərzində neft sektorunun payı 81% təşkil etmiş və qeyri-neft sektorunun payı nisbətən artmışdır.




*Mənbə: Azərbaycan Mərkəzi Bankı, Əsas Makroiqtisadi göstəricilər, Statistik Bülliten. 2019.*

**Qrafik 2. Azərbaycanda BXİ və qeyri-neft BXİ-lərin in göstəriciləri (mln. ABŞ dolları)**

Qrafik 2-dən də göründüyü kimi, 2013-2018-ci illərdə birbaşa xarici investisiyalardan əldə olunan gəlirlərdə qeyri-neft sektorunun payı Orta hesabla 18% idi, 2017-ci ildə bu rəqəm 52% azaldı. 2018-ci ildə qeyri-neft sektoruna qoyulmuş birbaşa xarici investisiya gəlirlərinin payı təxminən 24% artaraq 967 milyon ABŞ dollarına çatdı. Ölkə iqtisadiyyatına xarici giriş qeyri-neft sektoruna yatırımların strukturunu nəzərə alaraq 2003-2014-cü illərdə qeyd etmək lazımdır. Qeyri-neft sektoru 7.3 milyard ABŞ dolları həcmində xarici sərmayə cəlb etmişdir. Çəkilən xarici investisiyalar əsasən sənaye (62%), tikinti (13%), ticarət (12%) və digər sahələrin payına düşür. Xarici investisiyaların ümumi quruluşdakı payına görə Böyük Britaniya, Türkiyə, Rusiya və Yaponiya birinci yerdədir [4].

Qeyd etmək lazımdır ki, qeyri-neft sektoruna birbaşa xarici investisiyalardan gələn gəlirlər 2015–2018-ci illərdə əhəmiyyətli dərəcədə artmamışdır. Təəssüf ki, bu dövrdə kənd təsərrüfatı heç bir xarici investisiya cəlb edə bilmədi. Son vaxtlar, Azərbaycanın turizm sektorundakı infrastrukturun inkişafı və təşviq siyasətinin fonunda, ölkəyə birbaşa xarici investisiyanın olmaması narahatlıqları artırdı. Həmçinin maliyyə sektoruna birbaşa xarici investisiyaların aşağı səviyyədə olması bank sektorunda sistemli risklərin olması ilə yanaşı, ölkədə kapital bazarlarının inkişaf etməməsi ilə izah edilə bilər. Bununla birlikdə, kənd təsərrüfatı, qida və maliyyə sektorları gələcəkdə qeyri-neft sektoruna xarici investisiyaların artırılması üçün prioritet sahələr kimi qəbul edilməlidir [3].




*Mənbə: Dövlət Stastika Komitəsi, “Azərbaycan rəqəmlərlə”. Statistik məcmuə. 2019.s.44*

**Qrafik 3. 2019-cu ildə qeyri-neft sektoru sahələrinə yatırılan investisiyaların həcmi, faizlə**

Müşahidələr təsdiqləyir ki, ölkədə iqtisadi böyümə 1995-ci ildə başlasa da, bunun əsas səbəblərindən biri neft sektoruna yatırımlarla bağlıdır. Son statistikalar (2015-2019) qeyri-neft sektorunun böyümə sürətinin neft sektorunun artım tempini üstələdiyini göstərir. Bu baxımdan Azərbaycanın müasir iqtisadiyyatının quruluşunu aşağıdakı kimi göstərmək olar. Bildiyiniz kimi, iqtisadiyyatın müəyyən bir quruluşunun olması sektorlar üzrə məşğulluğun həcmini müəyyənləşdirir. Bu baxımdan məşğulluğun iqtisadi fəaliyyət növlərinə görə bölgüsünə baxmaq məqsədəuyğundur.

Ölkənin təbii üstünlükləri milli iqtisadiyyatın quruluşunun formalaşmasında mühüm rol oynamışdır. Heckscher-Ohlin nəzəriyyəsindən məlum olur ki, hansı ölkə olmasından asılı olmayaraq təbii ehtiyatlarla zəngin bir məhsulda ixtisaslaşır. Azərbaycanda təbii sərvət kimi neftin bolluğu ölkəni ÜDM, sənaye istehsalı və ixracı baxımından uzun illər boyu əsas oyunçu halına gətirdi. Qeyd etmək lazımdır ki, neft sektorunun inkişafı digər sənaye sahələrinin, xüsusən də neft emalı ilə əlaqəli sahələrin inkişafında mühüm rol oynamışdır.

Müşahidələr istehsal sənayesində əlavə dəyər artımının (2014-cü il xaric) əvvəlki ilin müvafiq dövrünə nisbətən daha yüksək olduğunu təsdiqləyir. Beləliklə, 2017-ci ildə istehsal sənayesində əlavə dəyər əvvəlki ilə nisbətən 11,2% çoxdur. İnvestisiya həcmi milli iqtisadiyyatın sektor quruluşunun formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərdiyindən ABŞ, Çin, Yaponiya, Sinqapur, Almaniya, Cənubi Koreya və İsrail kimi ölkələr texnoloji əsaslı iqtisadiyyatın formalaşmasına daha çox diqqət yetirirlər. Buradakı əsas hədəflərdən biri də bir texnoloji markası olan bir iqtisadiyyat qurmaq və bu əsasda qlobal bazarda daha yaxşı məhsul satmaqdır [6].

Beləliklə, milli iqtisadiyyatın inkişaf dinamikasının təhlili göstərir ki, ölkədə sənayenin, xüsusilə qeyri-neft sənayesinin inkişafı hərtərəfli iqtisadi inkişaf strategiyasının bir hissəsi kimi qəbul edilməlidir. Beləliklə, hesab edirik ki, ölkənin sənaye sektorundakı müqayisəli üstünlüklərini müəyyənləşdirmək və bu əsasda həm ixrac yönümlü, həm də idxalı əvəz edən sahələri və xidmətləri müəyyənləşdirmək lazımdır. Ölkədə iqtisadiyyatın yenidən qurulmasının prioritetlərinə uyğun olaraq elmi-

texniki potensialın istifadəsinə diqqət yetirilməlidir. Bununla birlikdə, son illərdə ölkənin qeyri-neft sektorunda şaxələndirmə tədbirləri, xüsusən də ölkədəki investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı, iqtisadiyyatın infrastruktur və köməkçi sahələrində rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər nəzərə çarpacaq dərəcədə irəliləmişdir [3, s.74].

**Nəticə**

Beləliklə, ölkənin qeyri-neft sektoruna xarici investisiyaların artırılması, eləcə də ixrac yönümlü qeyri-neft sektorunun inkişafı məqsədi ilə dövlət-özəl investisiya əməkdaşlığının inkişafı üçün təşviq mexanizmləri tətbiq edilməlidir. Bu baxımdan, qeyri-neft sektorunun inkişafına xarici investisiyaların cəlb edilməsini yaxşılaşdırmaq və stimullaşdırmaq üçün müasir tədbirlərin nəzərdən keçirilməsi məsləhətdir.

Qeyri-neft sektoruna xarici investisiyaların inkişafını stimullaşdırmaq üçün sənaye sahələri, xüsusən də uzun müddət ölkə iqtisadiyyatı üçün ənənəvi sayılan kimyəvi maddələr, maşın və avadanlıqların quraşdırılması və metallurgiya üçün sahəvi sektor inkişaf proqramları hazırlamaq lazımdır. Kommersiya əsasında fəaliyyət göstərən dövlət şirkətlərinin tədricən özəlləşdirilməsi və bu şirkətlərin beynəlxalq təcrübəyə uyğun müasir korporativ idarəetmə və hesabat təcrübələrinə sahib olması vacibdir.

Ümumiyyətlə, bəzi ölkələrdə Azərbaycana qoyulan son xarici investisiyalar qeyri-neft sektoruna xarici investisiyalar zəif olduğu halda müsbət böyümə meylləri müşahidə edildi. Qlobal olaraq COVID-19 pandemiyası səbəbindən 2020 və sonrasında xarici birbaşa investisiya axınlarında kəskin bir azalma olmuşdur. İnanırıq ki, bu vəziyyətdə ölkəmiz inkişaf hədəflərinə çatmaq üçün mövcud vəziyyəti dəyişdirəcək və önümüzdəki illərdə xarici investisiyaları artıracaqdır. Eyni zamanda Vətən müharibəsində qalib gələn ölkəmiz işğaldan azad olunan torpaqlarda qeyri-neft sektorunun inkişafı və bu sahəyə investisiyaların yatırılması istiqamətində mühüm tədbirlər görməkdədir. Bu baxımdan Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi üçün yuxarıdakı istiqamətlər təkmilləşdirilməlidir. Bu tədbirlərə üstünlük verilməli və makroiqtisadi inkişafı və regional rəqabətqabiliyyətliliyi artırmaq, əmlak qeydiyyatı və məhkəmə sistemini sadələşdirmək, korporativ idarəetmə və korporativ şəffaflığı artırmaq üçün vergi siyasəti, xarici sərmayəçilər üçün inzibati effektivlik və hüquqi çərçivələr yenidən nəzərdən keçirilməlidir. İnvestorların səmərəli fəaliyyəti istiqamətində təkmilləşdirilmiş tədbirlərin həyata keçirilməsi müasir tələbdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perespektvləri üzrə Strateji yol xəritəsi 06.12.2016-ci il AR Prezidentinin fərmanı.

2. Azərbaycan Mərkəzi Bankı, Əsas Makroiqtisadi göstəricilər, Statistik Bülliten. 2019.

3. Əlixanov A. (2020), Xarici investisiyaların təhlili və qeyri-neft sektoru üzrə investisiyaların artırılmasının müasir istiqamətləri. İPƏK YOLU, No.3, səh.20-29

4. Dövlət Stastika Komitəsi, “Azərbaycan rəqəmlərlə”. Statistik məcmuə. (2019), 144 səh.

5. Məmmədov İ. (2012), Qeyri-neft sektorunun inkişaf istiqamətləri, Bakı, Apastroff, 524 səh.

6. Mehdiyeva N. (2019), Azərbaycanda qeyri-neft iqtisadiyyatının inkişaf dinamikasının qiymətləndirilməsi. İPƏK YOLU, No.1, səh.39-46.
7. https://report.az/analitika/bu-yolla-qeyri-neft-sektorunun-xarici-investisiyalar-ucun-celbediciliyini-artira-bilerik/.
8. https://bakuresearchinstitute.org/az/foreign-direct-investment-in-azerbaijans-economy-current-status-development-trends-and-challenges/.
9. http://www.azerbaijans.com/content_1671_az.html.
10. https://www.stat.gov.az/news/index.php?id=4757.

## *КОММУНИКАЦИЯ МЕЖДУ ОЦЕНКОЙ И ИНВЕСТИЦИОННОЙ СРЕДЕЙ НЕФТЯНОГО СЕКТОРА В АЗЕРБАЙДЖАНЕ*

*Юсиф МАМЕДОВ*

***Резюме***

*Инвестиции играют важную роль в определении отраслевой структуры экономики. То есть, чем больше объем инвестиций в какой-либо сектор, тем выше темпы экономического роста в этом секторе. С этой точки зрения, быстрое развитие нефтяного сектора в нашей стране стало возможным как благодаря тому, что это стратегический продукт, так и благодаря большому объему инвестиций в эту сферу. Большой объем инвестиций в нефтяную отрасль в период независимости, безусловно, стал фактором увеличения объемов нефтепродуктов и удельного веса нефтепродуктов в структуре экспорта.*

*Фактором, подтверждающим эффективность экономического развития сегодня, являются не нефть, природный газ, золото, серебро, а структура экономики, основанная на технологиях и передовых технологиях. Следовательно, необходимо развивать ненефтяной сектор. Как уже было сказано, основным фактором развития ненефтяного сектора являются инвестиции. При этом следует отметить, что доля инвестиций в нефтяной сектор остается высокой. Правительство Азербайджана предпринимает серьезные шаги для развития ненефтяного сектора и промышленности, поскольку нефть является истощенным природным ресурсом и увеличивает зависимость экономики.*

*В статье анализируется развитие ненефтяного сектора экономики. Отмечается, что в последние годы в стране принята стратегическая дорожная карта по развитию ненефтяного сектора, и в результате особое внимание уделяется развитию других секторов экономики.*

***Ключевые слова:*** *ненефтяной сектор, деловая активность, инвестиции, оценка, инвестиционная активность, ВВП.*

# *COMMUNICATION BETWEEN EVALUATION AND INVESTMENT ENVIRONMENT OF THE NON-OIL SECTOR IN AZERBAIJAN*

*Yusif MAMMADOV*

**_Abstarct_**

*Investment plays an important role in determining the sectoral structure of the economy. That is, the higher the volume of investment in any sector, the higher the rate of economic growth in this sector. From this point of view, the high development of the oil sector in our country has been possible both due to the fact that it is a strategic product and a large amount of investment in this area. The large volume invested in the oil industry during independence was, of course, a factor in the increase in the volume of oil products and the share of oil products in the structure of exports.*

*The factor that confirms the effectiveness of economic development today is not oil, natural gas, gold, silver, but the structure of the economy based on technology and advanced technologies. Therefore, it is necessary to develop the non-oil sector. As already mentioned, the main factor in the development of the non-oil sector is investment. At the same time, it should be noted that the share of investments in the oil sector remains high. The Azerbaijani government is taking serious steps to develop the non-oil sector and industry, as oil is a depleted natural resource and increases the economy's dependence.*

*The article analyzes the development of the non-oil sector of the economy. It is noted that in recent years the country has adopted a strategic roadmap for the development of the non-oil sector, and as a result, special attention is paid to the development of other sectors of the economy.*

**_Keywords:_** *Non-oil sector, Business activity, investment, valuation, Investment activity, GDP.*

*UOT* 33

# *ÖLKƏNİN MİLLİ SƏRVƏTİNİN YARADILMASINDA İNTELLEKTUAL MÜLKİYYƏTİN QORUNMASI PROBLEMLƏRİ*

*Şəfiqə Səfər qızı MƏMMƏDOVA,*
*Sumqayıt Dövlət Universitetinin dosenti, i.f.d.*
shafiga_mammadova@mail.ru

***Xülasə***

*Milli sərvət hər bir ölkənin davamlı inkişafının əsası və vacib makroiqtisadi göstəricilərdən biri olduğundan onun qiymətləndirilməsi və tərkibinin düzgün müəyyən edilməsi müasir dövrdə aktual məsələlərdən biri kimi dəyərləndirilməlidir. Milli sərvət əmtəələrin istehsal imkanlarını, xidmətlərin göstərilməsi və insanların həyatını təmin edən ölkənin bütün növ aktivlərinin məcmusu kimi qəbul edilir. Milli sərvətin tərkibinin aktivlərindən biri kimi çıxış edən intellektual kapitalın - patent, ixtira, NOW-HOW və s. formada meydana çıxan intellektual mülkiyyətin ölkənin rəqabətli iqtisadi inkişafında böyük əhəmiyyəti vardır. Müasir dövr innovasiya yönümlü yüksək texnologiyalar, intellektual potensialların durmadan artan dəyərlərilə xarakterizə olunur. İntellektual mülkiyyət milli sərvətin yaradılması və artırılması, eyni zamanda rəqabətli iqtisadi inkişafın əsasını təşkil edən innovasiya məqsədləri üçün vacib amil olduğundan onun qorunması da ölkənin perspektiv inkişaf strategiyası üçün çox zəruridir.*

***Açar sözlər**: milli sərvət, inkişaf, innovasiya, intellektual mülkiyyət, intellektual kapital və hüquq, patent, ixtira, resurs.*

**Giriş.** Müasir dövr yüksək texnologiyaların və texnikanın informasiya kommunikasiya texnologiyalarının, innovasiyalı və rəqabətli iqtisadiyyatın sürətli inkişafı, intellektual potensialların durmadan artan dəyərlərilə xarakterizə olunmaqdadır. Bütün bunlar isə öz növbəsində hər bir ölkənin milli sərvətinin və iqtisadi artımının əsas mənbəyi olmaqla**,** onun dünya iqtisadiyyatında üstün rəqabətli inkişafını və yerini müəyyən edir. Sadalanan intellektual dəyərlərin, əqli mülkiyyətin yaradıcısı isə birbaşa hər bir ölkənin insan resurslarının aparıcı, səmərəli və faydalı hissəsini təşkil edən kreativ insan potensialı təşkil edir. Deməli, bu mövqedən yanaşsaq, hər bir ölkədə iqtisadi inkişafa təkan verən intellektual mülkiyyətin yaradıcısı olan kreativ və səmərəli insan potensialını, onun əqli əməyinin nəticəsi olan intellektual dəyərləri müasir dövrün və gələcək inkişafın, o cümlədən ölkənin milli sərvətinin, nemətlərinin və iqtisadi artımın strateji resursu kimi dəyərləndirmək olar.

**Milli sərvət və onun tərkibinə yanaşma.** Milli sərvətin yaradılması və artırılması və iqtisadiyyatın rəqabətli innovasiya məqsədləri öz növbəsində kreativ insan potensialının əqli əməyinin nəticəsi olan intellektual mükiyyətin qorunması olmadan qeyri-mümkündür. Beləliklə, intellektual mülkiyyətin qorunması zəruriliyi milli sərvətin yaradılması və artırılmasının tərkib hissəsi kimi çıxış edən intellektual kapital - patent, ixtira, NOW-HOW və s., həmçinin iqtisadi artımın və inkişafın innovasiya məqsədləri ilə birbaşa bağlıdır. İntellektual mülkiyyətin qorunması eyni zamanda iqtisadi artımı təmin etmək və saxlamaq məqsədləri üçün çox vacibdir. İqtisadi artım da öz növbəsində intellektual mülkiyyət hüququnun qorunması sisteminə əsaslanan yeniliklər - innovasiyalarla birbaşa bağlı olduğundan cəmiyyətin dayanıqlı sosial və iqtisadi inkişafını təmin edir. Uzun müddətli perspektivdə ölkədə yüksək

həyat standartı və maliyyə möhkəmliyi yalnız innovasiyaların tətbiqi ilə mümkündür. Ölkənin intellektual kapitalının mövcudluğu, qorunması və reallaşdırılması davamlı gəlirlərin mənbəyi kimi çıxış edir. Ancaq milli sərvətin tərkibini düzgün müəyyən etmədən, onun artırılması yollarını araşdırmaq qeyri-mümkündür.

Milli sərvət və onun tərkibinin müəyyənləşdirilməsinin böyük əhəmiyyəti vardır. Milli sərvət hər bir dövlətin dayanıqlı və davamlı inkişafının, iqtisadi artımının və insanların, cəmiyyətin yüksək həyat səviyyəsinin əsasını təşkil edən mürəkkəb iqtisadi bir kateqoriyadır. Milli sərvətin yaradılması, səmərəli istifadəsi məsələləri ölkənin sosial-iqtisadi inkişafı, rəqabətli və innovasiyalı iqtisadiyyatının formalaşması ilə sıx bağlıdır. Müasir fransız iqtisadçısı Tomas Piketti milli sərvəti milli kapital adlandırmaqla, onu verilən zaman anında verilən ölkənin hökümətinin və əhalisinin malik olduğu bütün dəyərlərin bazar qiymətlərində ifadəsi kimi təzahür etdiyini qeyd edir. [1, səh.63]. Bu halda maliyyə passivlərinin (bütün borcların) çıxıldığı qeyri-maliyyə aktivlərinin (yaşayış binaları, torpaq sahələri, tikililər, hərəkət edən əmlak, maşın və avadanlıqlar, patentlər və digər peşəkar aktivlər) və maliyyə aktivlərinin (bank hesabları, yığımlar, istiqrazlar, səhmlər, müxtəlif investisiyalar, müqavilələr, təqaüd fondları və s.) cəmi kimi təqdim edilən milli kapitalın tərkibinə belə yanaşmanı ümumiləşdirmə mövqeyindən dəyərləndirmək olar. Milli sərvətin tərkibinin düzgün və aydın müəyyən edilməsi onun real və optimal qiymətləndirilməsinə şərait yaradır.

Milli sərvətin tərkibi çox mürəkkəb tərkib elementlərindən ibarət olduğu üçün, onun dəyərləndirilməsi ilə bağlı problemlər bir sıra dünya ölkələrində olduğu kimi, Azərbaycanda da mövcuddur. Bu problemlər sırasına xüsusilə metodoloji, informasiya, milli təhlükəsizlik və s. aid etmək olar. Bura həmçinin təbii tesursların, milli-mədəni dəyərlərin, institusional-sosial, insan, intellektual kapitalın və milli sərvətin digər tərkib elementlərinin kəmiyyətcə dəyərinin müəyyən edilməsinin mürəkkəbliyi və onların hesablanmasının ümumi metodoloji bazasının olmaması, böyük həcmdə əmək tutumlu informasiyaların əldə edilməsinin çətinliyi, maliyyə məsələləri, uçot və hesabatların beynəlxalq standartlara lazımi səviyyədə cavab verməməsi, bazar iqtisadiyyatının özünün təkmilləşdirilməsi problemlərinin mövcudluğu və s. aid etmək olar.

Müasir dövrdə milli sərvətin dəyərləndirilməsi məqsədilə daha çox iki əsas baza sistemindən istifadə olunur. Birinci baza sistemi kimi Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyası tərəfindən beynəlxalq standart kimi qəbul edilən və statistika model adlanan Milli Hesablar Sistemi (MHS) -2008-ə əsaslanır [1]. İkinci model Dünya Bankı tərəfindən təklif olunan sistemə əsaslanır [2 və 3]. Bu iki sistemin təhlili və müqayisəsi əsasında və müasir dövrün tələbləri nəzərə almaqla, eyni zamanda hər iki modeli ümumiləşdirərək və dəqiq yanaşma amillərini nəzərə alaraq milli sərvətin tərkibinin struktur elementləri tərəfimizdən təklif olunmuşdur [5, səh. 143]. Fikrimizcə, milli sərvətin struktur tərkib elementlərini və bu tərkibə daxil olan aktiv və kapital anlayışı nöqteyi-nəzərincə yanaşaraq, aktivləri ümumi halda üç və bu uyğun kapital növlərini isə aşağıdakı dörd istiqamətə ayırmaq məqsədlidir:

I. Qeyri-maliyyə maddi aktivlər:

1. Əsas-fiziki kapital (istehsal aktivləri)
2. Təbii kapital (qeyri-istehsal aktivləri)

II. Qeyri-maddi və institusional-sosial aktivlər:

3. İnsan kapitalı və institusional-sosial kapitalı

III. Maliyyə aktivləri:

4. Maliyyə kapitalı (maliyyə vəsaitləri və alətləri)

Yuxarıda qeyd edilənləri əyani formada təsvir etmək üçün milli sərvət və onun

tərkib elementlərini verilən struktur sxemin köməyilə göstərmək olar (bax şəkil 1.)




**Şəkil 1. Milli sərvət və onun tam formada struktur tərkib elementləri**

Qeyd etmək lazımdır ki, milli sərvət və onun tam formada tərkib elementlərinin təklif olunan struktur sxemi onu dəyərləndirmək üçün əlverişli olmaqla, milli sərvətin mahiyyətinin də müasir dövrün tələblərinə uyğunluğunu əks etdirir. Eyni zamanda bu yanaşmanı və təsnifləşdirməni yuxarıda qeyd edilən hər iki modelin daha da təkmilləşdirilməsi variantı hesab etmək mümkündür.

Eyni zamanda qeyri-maddi və institusional-sosial aktivləri də öz növbəsində konkret olaraq hər bir kapital növünə görə üç istiqamətə ayırmaq olar:

- Bilik, bacarıq, təhsil, ixtisas, intellektual və s. dəyərləri özündə birləşdirən insan kapitalı;

Patent, ixtira, NOW-HOW, qudvill, kontrakt, icarə və lisenziyaları özündə birləşdirən intellektual kapital;

*Each country in the South Caucasus is unique in its own way, and each requires a separate study. At the same time, the study of the state of relations and development prospects between the Caucasus states deserves special attention. Unfortunately, most modern researchers in the Caucasus do not analyze the problems related to economic relations in the Caucasus and their prospects for development, focusing on the possibility of resolving conflicts in the region. Only a few publications have addressed these issues. Given the current situation in the country, the Republic of Azerbaijan (both individually and in general), in particular, the study of the prospects for integration processes in the Caucasus is somewhat conditional.*

*In the context of a globalizing world, especially in the long run, this is not only undesirable, but also fundamentally unrealistic: the Caucasus cannot and should not be isolated from the process of integration into the world. In today's globalized world, the development opportunities of a country are determined by the international economic function it performs. Its formation depends primarily on the comparative advantages of this state, the use of which determines its place in the world economy. At the same time, much depends on the country's international relations - both with its direct geographical neighbors and with the states that determine the main directions of world politics. It is not uncommon for a country to be unable to take full advantage of its comparative advantages unless it facilitates international relations.*

*The purpose of this article is to identify the realized economic opportunities of the Republic of Azerbaijan, a leading state in the South Caucasus region, as well as to assess the role of each state with significant interests in the region in promoting these opportunities.*

***Key words:*** *Azerbaijan, South Caucasus region, Foreign policy, economic opportunities, production, consumption*

*UOT 339*

# *ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN İQTİSADİ İSLAHATLARIN YERLİ SAHİBKARLARIN FƏALİYYƏTİNƏ BİRBAŞA TƏSİRİ*

*Cavid Sənan oğlu KƏRİMOV,*
*"Mətanət A" Şirkətlər Qrupu, İctimaiyyətlə əlaqələr üzrə menecer*

**Xülasə**

*Ölkədə sahibkarlığın inkişafı qarşıya qoyulmuş iqtisadi siyasətin prioritetlərindəndir. Bu istiqamətdə ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilmişdir. Müasir dövrdə regionların həm sosial, həm də iqtisadi inkişafına nail olmaq ölkə qarşısında dayanan ən mühüm vəzifələrdən hesab edilir. Regionlarda inkişafın yüksək səviyyəsinin müəyyənləşdirilməsində sahibkarlıq subyektlərinin mühüm rolu vardır. Regionların iqtisadi potensialını müəyyənləşdirən göstəricilərdən biri də orada olan sahibkar subyektlərin iqtisadiyyat sahəsində göstərdiyi fəaliyyətləri ilə bağlıdır. Həmçinin sahibkarlığın inkişafı ölkəni idxaldan asılı olmaqdan azad edir, ixracı artırır.*

***Açar sözlər:** sahibkarlıq, iqtisadi islahatlar, ÜDM, Sahibkarlığın Inkişafı Fondu, ticarət evləri, xarici və daxili investisiya.*

## Giriş

Ölkədə sahibkarlığın daha da inkişafı üçün biznes mühitinin daim yaxşılaşdırılması, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dəstək tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə səbəb olub.

Bu gün dövlət-sahibkar münasibətləri inkişaf edir, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Belə ki, sahibkarlara güzəştli şərtlərlə kreditlər verilir, investisiya təşviqi proqramı çərçivəsində müxtəlif layihələr reallaşdırılır, yeni sənaye zonaları yaradılır, müxtəlif ölkələrə ixrac missiyaları təşkil olunur, eləcə də ticarət evləri açılır.

Son 15 ildə ölkədə biznes mühitinin yaxşılaşdırılması ilə bağlı mühüm tədbirlər görülüb, sahibkarlığın inkişafına böyük dəstək verilib. Təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı keçib. Bunun 1 milyard manatı dövlət büdcəsindən ayrılıb, qalan 1 milyard manatdan çoxu isə verilmiş və qaytarılmış kreditlər hesabına yenidən kredit şəklində verilib. Təkcə keçən il müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 617, 8 milyon manat olan 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160, 2 milyon manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 9000-dək yeni iş yerinin açılmasına imkan yaradır. Kreditlərin 64, 3 faizinin regionların, 35, 7 faizinin isə Bakının qəsəbələrinin payına düşüb. Güzəştli kreditlərin 70, 3 faizi aqrar sektorun, 29, 7 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına

yönəldilib. 2018-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilən 35 istehsal, emal və infrastruktur müəssisəsi fəaliyyətə başlayıb. Cari ildə isə daha 39 müəssisənin açılması gözlənilir. Bir faktı da qeyd etmək yerinə düşər ki, indiyədək layihələrinin ümumi dəyəri 5 milyard manatdan çox olan 36 minədək sahibkara 2, 3 milyard manat güzəştli kredit verilib.

Sahibkarlığın inkişafının dəstəklənməsi üçün müxtəlif mexanizmlərdən istifadə olunur ki, onlardan biri də investisiya təşviqi sənədidir. Belə ki, bu vaxtadək sahibkarlara investisiya dəyəri 2, 8 milyard manatdan çox olan layihələr üzrə 333 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 2188 təsdiqedici sənəd verilib. Həmin layihələrin 41 faizi kənd təsərrüfatı, 59 faizi isə sənaye sahələrini əhatə edir. Bu layihələrin reallaşması nəticəsində 22 minədək iş yerinin açılacağı gözlənilir. Eyni zamanda, təkcə keçən il sahibkarlara investisiya dəyəri 801 milyon manat olan layihələr üzrə 107 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 1058 təsdiqedici sənəd təqdim edilib.

Ölkənin sənaye potensialının inkişafı üçün, əlbəttə, sənaye zonalarının, sənaye parklarının rolu böyükdür. Çünki hazırda Azərbaycan müasir sənaye mərkəzinə çevrilib. Sənaye sahəsində əsas diqqət qeyri-neft sektoruna yönəlib. Təkcə ötən il qeyri-neft sənayesi 9, 1 faiz artıb. Bu sahədə görülən işlərin məqsədi isə ölkənin qeyri-neft sektorunun inkişafını təmin etmək, qeyri-neft ixracının həcmini artırmaqdır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması bu sahədə atılan mühüm addımlardır.

Hazırda sənaye parklarında 67 rezident var və onlardan 40-ı artıq fəaliyyətdədir. Sənaye parklarında həyata keçirilən layihələrə nəzərdə tutulan sərmayə isə 5 milyard manatdan çoxdur. Həmin layihələr nəticəsində 11 min yeni iş yeri yaradılıb. Bu il digər şəhərlərdə də sənaye zonalarının yaradılması planlaşdırılır. İxracın təşviqi, xüsusilə qeyri-neft ixracının dəstəklənməsi məqsədilə indiyədək 24 ixrac missiyası təşkil olunub. Azərbaycan şirkətləri 17 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib, müqavilələr imzalanıb. 104, 2 milyon dollarlıq məhsulların müxtəlif ölkələrə, o cümlədən bir sıra yeni bazarlara ixracı ilə əlaqədar 8 milyon manatadək ixrac təşviqinin ödənilməsinə dair qərarlar qəbul edilib. Təkcə ötən il dövlət dəstəyi hesabına xarici ölkələrə 11 ixrac missiyası həyata keçirilib, Azərbaycan şirkətləri xarici ölkələrdə təşkil olunmuş 11 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib. Belə ki, ABŞ, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Çexiya, Qətər və digər ölkələrə Azərbaycan istehsalı olan meyvə-tərəvəz, nar şirəsi, şərab, ət məhsulları, quru süd, fındıq, qənnadı məhsulları, bal, çay, həmçinin Naftalan nefti, tikinti materialları, mebel və digər məhsulların ixracına dair 50-dən çox müqavilə imzalanıb və razılaşma əldə olunub. 2019-cu il 19 xarici ölkəyə 25 ixrac missiyası həyata keçiriləcək, 11 beynəlxalq sərgidə Azərbaycan vahid ölkə stendi ilə təmsil ediləcək, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcək. Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə 2018-ci il xarici ölkələrdə 5 "Azərbaycan Ticarət Evi" açılıb. 2019-cu ilin yanvarın 15-də Dubayda açılan "Azərbaycan Ticarət Evi" ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur. Bu il Rusiyada, BƏƏ-nin Əbu-Dabi şəhərində və Qazaxıstanda "Azərbaycan Ticarət Evi"nin açılması nəzərdə tutulur. Görülmüş tədbirlər nəticəsində 2018-ci ildə xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərin sayı 56, 2 faiz artıb. Ötən il Azərbaycandan 3088 çeşiddə məhsul ixrac

edilib. "Güzəştli kreditlərin həcmi mütəmadi çoxalır və Sahibkarlığın İnkişafı Fondu tərəfindən ayrılan vəsaitin həcmində də hər il artım müşahidə olunur. Sahibkarların güzəştli kreditlə yanaşı, həm də təşviq sənədlərindən istifadə imkanı var. Son dövrlər dövlət tərəfindən sahibkarlara 300-dən çox investisiya təşviqi sənədi verilib. Bu sənədi almış sahibkarlar çox fərqli güzəştlərdən faydalanırlar. Onlar həm gəlir və mənfəət vergisindən 50 faiz, həm də digər vergi güzəştləri tətbiq edilir, ölkəyə texnologiya idxal edən zaman əlavə dəyər vergisindən azad olunurlar. Güzəştlərin tətbiqi imkan verir ki, sahibkarlar vergi formasında ödəniləcək vəsaitləri öz sərəncamlarında saxlasınlar. Bu da onlar üçün əlavə dövlət dəstəyi kimi xarakterizə olunmalıdır

Son dövrlər investisiya mühitinin yaxşılaşdırılması fonunda sahibkarlıq subyektlərində yoxlamaların 2021-ci iI yanvarın 1-dək dayandırılması ilə bağlı yeni qərar verildi. Bu da sahibkarlara müdaxiləni minimumlaşdırır: Vergi Məcəlləsindəki son dəyişikliklər isə sahibkarların çox fərqli güzəştlərdən istifadə etməsinə imkan yaradır. Belə ki, yeni formalaşan startaplar mənfəət vergisindən 3 il müddətinə azad olacaq. Sahibkarlar üçün həyata keçirilən sistemli təşviq tədbirləri sahibkarlığın inkişafına dəstək verir. Təkcə onu qeyd etmək yerinə düşər ki, növbəti regionların 4ocial-iqtisadi inkişafı dövlət proqramında dövlət bu istiqamətə 17 milyard manat vəsait ayıracaq.

**Sahibkarlıq subyektlərində dövlət siyasəti**

Qeyd etmək lazimdir ki, dövlətin mövcud olması şəraitində və onun xüsusi əlamətləri aşağıdakılardan ibarətdir: 1. Vətəndaşların yüksək mənəvi səviyyəsi;

2. Mülkiyyətçilərin vəziyyətinə zərər vermədən, gəlirlərin yenidən bölüşdürülməsi üzrə tədbirlərin həyata keçirilməsinə imkan yaradan güclü iqtisadi potensialın mövcudluğu.

3. İqtisadiyyatın sosial istiqamətləndirilmiş strukturunun olması; Bu da təsərrüfatın lazım olan sahələrdə dövlətin əhəmiyyətli payı olmaqla mülkiyyətin formalarının mövcudluğunda özünü biruzə verir.

4. Müxtəlif sosial proqramların və onların həyata keçirilməsinin hazırlanmasında özünü biruzə verən dövlətin sosial istiqamətdə siyasəti. Dövlətin sosial funksiyası dedikdə isə aşağıdakıları nəzərə almaq lazımdır:

- əhalinin sosial müdafiə olunmayan təbəqələrinə dəstək verilməsi;
- insanların əmək və sağlamlığının qorunması;
- vergi qoyuluşu, dövlət büccəsi, xüsusi proqramlarının vasitəsi ilə müxtəlif təbəqələr arasında gəlirlərin yenidən bölüşdürülməsi yolu ilə sosial qeyribərabərliyin tənzimlənməsi;
- xeyriyyəçilik fəaliyyətini həyata keçirən sahibkarlıq fəaliyyətinə güzəştli vergi qoyuluşunun verilməsi;
- işsizlik ilə mübarizə, əhalinin əmək məşğulluğunun təmin edilməsi, işsizlik üzrə müavinətlərin ödənilməsi;
- bütün vətəndaşların həyat səviyyəsinin təmin edilməsi məqsədilə azad bazar iqtisadiyyatı və onun inkişafına dövlət tərəfindən həyata keçirilən tədbirlər arasında tarazlığın yaranması;
- dövlətlərarası ekoloji, mədəni və sosial proqramların həyata keçirilməsində iştirakı, ümumi insan problemlərinin həll edilməsi;
- cəmiyyətdə sülhün qorunması Dövlət fəaliyyəti çoxcəhətlidir. Bu fəaliyyətin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:
- insanların layiqli həyat səviyyəsinin təmin edilməsi;

- sosial bərabərliyə nail olmaq;
- əməyin və insanların sağlamlığının qorunması;
- sosial təminatlar, sığorta və sosial xidmətlər sisteminin inkişaf etdirilməsi;
- ailəyə, valideynlərə və uşaqlara dövlət yardımı göstərilməsi;
- hamı üçün mümkün ola bilən təhsil, səhiyyə, mədəniyyət sistemlərinin inkişaf etdirilməsi və s.

Müasir bazar iqtisadiyyatı ictimai üzvlərinin çoxtərəfli istəyinin ödənilməsinə istiqamətlənmişdir. Onunla yanaşı, sənaye cəhətdən daha inkişaf etmiş ölkələr öz cəmiyyət üzvlərinin dövlətin köməyi ilə iqtisadi proseslərdə qoruyurıar. Bu isə siyasiyönümlü bazar iqtisadiyyatının təyinatı üçün əsas verilmişdir.

Sahibkarlıq fəaliyyəti sabit xərclər ilə sıx bağlıdır, bunsuz biznesin inkişafını təmin etmək mümkün deyil. Bu baxımdan xəclər mal və xidmətlərin satışından daxil edilən pulları həmişə qabaqlayır, onların arasında müəyyən vaxt və müddət mövcuddur ki, o fəaliyyətin miqyası və spessifikasından asılı olaraq uzun, yada qısa ola bilər. Yüksək gəlir əldə etmək istəyən sahibkar gərək coxda xərcləsin. Sahibkarlığın başlıca sosial funksiyası real əmtəələrin mövcudluğu, cəmiyyətin sosial problemlərinin həll edilməsi üzrə mövcud olan çətinliklərin aradan qaldırılmasıdır.

Xidmət sahəsində sahibkarlığın sosial funksiyası yeni iş yerlərinin yaradılması tempi, onun sürətləndirilməsindən ibarətdir. Ənənəvi maddi istehsal sahələri ilə müqaisədə xidmət sahəsində bu surət cox yüksəkdir. İqtisadi tənəzzül, makroiqtisadi göstəricilərin gerilədiyi dövrdə işçilərin yüksək mobilliyi, məşğulluğun möhkəm rejimi xidmət sferasının dayanıqlığını artırır. Xidmət sferasının bir çox müəssisələri əhalinin sosial cəhətdən az təminatlı hissəsinin məşğulluğunu təmin edir.

Ticarət, ictimai iaşə, səhiyyə, təhsil, mədəniyyət və incəsənət turizm sahələrində yayılmış qismən məşğulluq, habelə bu sahələrdə kiçik sahibkarlıq müəssisələrində fəaliyyət göstərməsi əlavə əmək resurslarının cəlb olunmasına imkan verir. Hansı ki, başqa iş görənlər, sahibkarlar həmin əmək resurslarından praktiki olaraq istifadə etmirlər. Belə resurslara misal olaraq pensiyaçılar, yetkinlik yaşına çatmayanlar, əlillər, çoxuşaqlı analar, və. s göstərmək olar.

Sahibkarlıq sosial amil olaraq istehlakçı davranışını, ailənin tələbat sistemini müəyyənləşdirir. Sahibkarlıq ayrı-ayrı sosial demoqrafik qrupların əməyindən istifadə etmək imkanlarının genişləndirilməsi və bəzi sahibkarlıq növlərinə prioritet istiqamət üçün üstünlük verilməsi yollarını əsaslandırmaq vacib şərtdir. Azərbaycanda kiçik sahibkarlıq, kiçik biznes surətlə inkişaf etməkdədir. Azərbaycanda sahibkarlığın, o cümlədən bütün sahibkarlığın inkişaf göstərilməsi bilavasitə cəmiyyətin bu sahəsinin inkişaf olunmasına, prioritet sahə kimi, yəni onun inkişafına dövlət dəstəyi verməsi ilə əlaqədardır.

**İslahatların və sahibkarlığın inkişafının ölkə iqtisadiyyatına təsiri**

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri olan qeyri- neft sektorunun inkişafı qarşıya prioritet vəzifə kimi qoyulub. Son illər müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində bu sektor sürətlə tərəqqi edib, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişləndirilməklə yanaşı, yeni sənaye sahələri yaradılıb, respublikamızda bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib. Əlbəttə, bütün bunlar dövlət başçısının uğurlu iqtisadi strategiyası, həyata keçirilən iqtisadi islahatlar nəticəsində gerçəkləşib.

Bu, statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, təkcə 2019-cu ildə qeyri-neft sektorunda ümumi daxili məhsulun (ÜDM) real artımı 3, 5 faiz təşkil edib, sənaye istehsalı 13, 9 faiz artıb. Qeyri-neft sektorunun inkişafı ixraca da müsbət təsir göstərib, keçən il ərzində ölkədən kənara 1 milyard 954 milyon ABŞ dolları dəyərindən məhsul göndərilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın yanvar sayında bildirilir ki, 2018-ci illə müqayisədə hesabat dövründə qeyri-neft sektoru üzrə ixrac 265 milyon dollar və ya 15, 7 faiz artıb. 2019-cu il Rusiyaya 690, 6 milyon, Türkiyəyə 401, 8 milyon, İsveçrəyə 179 milyon, Gürcüstana 159, 1 milyon və Ukraynaya 50, 6 milyon dollarlıq qeyri-neft sektoruna aid məhsullar ixrac olunub. 2018-ci illə müqayisədə ötən il Rusiyaya qeyri-neft ixracı 11, 5 faiz, Türkiyəyə 16, 5 faiz, İsveçrəyə 32, 2 faiz, Gürcüstana 27, 8 faiz və Ukraynaya 24, 6 faiz artıb. Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda qeyri-neft sektorunun inkişafı ilə bağlı deyib: "Ötən il bizim əsas prioritetimiz olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb.

Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesində də, bu istqamətlərin bütün addımlarında da özünü geniş və aydın şəkildə büruzə verir". Azərbaycanda yaradılan əlverişli investisiya mühiti də qeyri-neft sektorunun inkişafını sürətləndirib. Bu, daha çox xarici şirkətlər tərəfindən ölkəyə sərmayə yatırımlarının artmasında, yeni texnologiyaların transferində, eyni zamanda, qlobal dəyər zəncirinə qoşulmaq üçün yeni imkanların yaranmasında özünü büruzə verib.

Yeri gəlmişkən, Azərbaycan hökumətinin iqtisadi islahatlar sahəsində əldə etdiyi uğurları bir qayda olaraq əcnəbi investorlar hər kəsdən daha tez və daha aydın görə bilirlər. Belə ki, 2007-ci ildən ötən dövr ərzində respublika iqtisadiyyatına 111 milyard dollar xarici investisiya cəlb olunub. Bu rəqəm Qafqazın bizə qonşu olan iki ölkəsinin - Gürcüstan və Ermənistanın birlikdə dövlət büdcələrinin ötən illər ərzindəki xərclərindən çoxdur. Etiraf edək ki, xarici kapitalın ölkə iqtisadiyyatına bu cür axını aparılan islahatlar və həmin islahatların beynəlxalq aləmdə real təqdimatı, əlverişli investisiya mühiti nəticəsində baş verib. Son bir ildə Azərbaycanda xarici kapitalın iştirakı ilə yaradılan birgə müəssisələrin sayının 70 faizə qədər artması da iqtisadi islahatların səmərəliliyini, biznes mühitinin cəlbediliciyini sübut edən ciddi bir indikatordur.

Burada bir məqamı da xatırlatmaq istərdik. 2019-cu ilin əvvəllərindən başlayaraq, iqtisadiyyatda yeni islahatların başlanması "kölgə iqtisadiyyatı"nın azalmasına və şəffaflığın təmin edilməsinə mühüm təsir göstərib. Ötən il yanvarın 1-dən qüvvəyə minən vergi qanunvericiliyinə edilən yeni dəyişikliklər də əmək bazarında qeyri-leqal məşğulluğun qarşısının alınmasına və qeyri-neft sektoru üzrə daxilolmaların həcminin artmasına səbəb olub. Bunu konkret rəqəmlər də aydın göstərir. Belə ki, ötən il vergi daxilolmaları 2018-ci ilə nisbətən 3, 5 faiz və ya 257 milyon manat çox olub. Xüsusilə qeyri-neft sektorunda 9, 2 faiz və ya 458 milyon manat çox vergi toplanıb. Bu sektordan daxilolmaların nominal artım tempi ÜDM-in

nominal artımını 2 faiz üstələyib. Bu da vergidənyayınma hallarının azaldılmasında yerli inzibatçılığın keyfiyyətinin artmasını göstərir. Xatırladaq ki, toplanmış vergilərin 71 faizi qeyri-neft sektorunun payına düşüb, özəl sektorun payı isə 76, 4 faiz təşkil edib. 2005-ci ildən bu vaxtadək ilk dəfə olaraq ötən il qeyri-neft sektorunda vergi yığımı proqnozunun ən yüksək göstəricisinə (109 faiz) nail olunub. Son iki ildəki nailiyyətlərdən biri də artıq ödəmə məbləğlərinin 720 milyon manat azaldılması olub. Başqa sözlə, təkcə ötən il vergi orqanları tərəfindən 224 milyon manat həcmində artıq ödəmələr azaldılmaqla yanaşı, həm də vergi proqnozları 105 faiz artıqlaması ilə yerinə yetirilib. öründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas vəzifələr sərmayə qoyuluşunun artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən "açıq qapı" siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib. "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunların və bir sıra normativ sənədlərin qəbulu məhz bu məqsədi daşıyıb. Bundan savayı, Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı çoxsayda saziş imzalanıb. Avropa İttifaqının 20-dən çox üzv ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb. Dövlət başçısının rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar hüquqi-siyasi istiqamətdə həyata keçirilməklə həm də sahibkarlığın inkişafına güclü təkan verir. Başqa sözlə, iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkan yaradır, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırır. Bu isə iqtisadiyyatın, xüsusilə də qeyri-neft sektorunun inkişafını sürətləndirir. Sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılmasının xüsusi diqqət mərkəzində saxlanılması da investisiya mühitinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.

**Nəticə**

Bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi hesab edilən sahibkarlıq fəaliyyəti iqtisadi təbiətinə görə fəaliyyətinin məqsədi gəlir əldə etmək olan, öz mənafeyini güdən şəxsdir. Sahibkarların öz məqsədləri üçün çalışmalarına baxmayaraq, cəmiyyətdə vacib və mühüm xidmətləri ilə seçilirlər. Belə ki, sahibkarlar istehsal və sahibkarlıq obyektlərini yaratmaqla milli iqtisadiyyatın yaranmasına təkan verir, cəmiyyət üzvlərinin məhsul və xidmətlərə olan tələbatlarını ödəyir, onları iş yerləri ilə təmin edir, əldə etdiyi mənfəətdən (gəlirdən) vergi ödəməklə ümumi xərclərin ödənilməsində iştirak edirlər. Sahibkarlıq fəaliyyəti sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının mühüm komponentlərindən biridir.

Sahibkar üçün əsas fərdi xüsusiyyətlər aşağıdakılardır: sahibkar açıq fikirli olmalı; həyata müsbət baxışlarla baxmalı; hadisələrin gedişinə obyektiv yanaşmalı;

problemi həll etməyi bacarmalı; cəsur olmalı; riskə getməyi bacarmalı; rəqabəti sevməli; işgüzar olmalı; qərar qəbul etməyi bacarmalı; özünü inkişaf etdirməli və etdiyi səhvlərdən nəticə çıxarmağı bacarmalıdır.

Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlığın inkişafı ilə bağlı olaraq əlavə tədbirlər haqqında" verdiyi fərmana əsasən ölkədə sahibkarlıq fəaliyyətinin inkişaf edirilməsi və biznes mühitinin formalaşdırılması istiqamətində sistemli tədbirlər davam etdirilməklə, daha mütərəqqi normativ-hüquqi baza yaradılmışdır. Sahibkarların elektron formada qeydiyyatının, xarici ticarət əməliyyatlarının aparılması, korporativ idarəetmənin təkmilləşdirilməsi, investisiya yatırımlarını həyata keçirən investorların maraqlarının qorunması və müflisləşməsi üzrə qanunvericilikdə müəyyən dəyişikliklər edilmişdir.

Müasir təsərrüfat formaları içərisində sahibkarlıq fəaliyyəti xüsusi önəm kəsb etməkdədir. Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi isə dövlətin iqtisadiyyatı yüksəltməsinin əsas istiqamətlərindəndir. Təsadüfi deyildir ki, 2015-ci il ölkəmizdə Prezident İlham Əliyev tərəfindən "Kənd təsərrüfatı" ili elan edilmişdir ki, bu da Sahibkarlar Konfederasiyasının qarşısında mühüm vəzifələr qoymuşdur. İstehsal edilən kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin gücləndirilməsi, emaledici müəssisələrin sayının artırılması, bu istiqamətdə çalışan sahibkarlara dövlət tərəfindən göstərilən kömək bu sahədən olan tədbirlərdəndir. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanunda mövcud qanunun tətbiq dairəsi, həyata keçirilən yoxlamaların prinsip və məqsədləri, yoxlayıcı orqanların vəzifələri, sahibkarlara hüquqi və digər məsləhətlərin verilməsi müddəaları öz əksini tapmışdır.

## ƏDƏBİYYAT


1. "Sahibkarlıq fəaliyyəti haqqında "Azərbaycan Respublikasının Qanunu, Bakı, 15 dekabr 1992-ci il.
2. Azərbaycan Respublikasının Konstitutsiyası. 12 noyabr 1995-ci il
3. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Bakı, 23 may 2007-ci il.
4. "Sahibkarlıq fəaliyyəti subyektlərinin "Bir pəncərə" prinsipi üzrə təşkilinin təmin tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin 25 oktyabr 2007-ci il tarixli Sərəncamı, "Azərbaycan" qəzeti, 29 oktyabr 2007-ci il.
5. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ırzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. Bakı, 25 avqust 2088-ci il.
6. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002- 2005-ci illər). Bakı, 17 avqust 2002-ci il.
7. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı. Bakı, 15 sentyabr 2009-cu il.
8. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı, Bakı, 15 noyabr 2011-ci il.
9. Azərbaycan respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtidasi inkişaf Dövlət Proqramı. Bakı, 14 aprel 2009-cu il.
10. Azərbaycan Respublikasının 2008-2011-ci illər üzrə iqtisadi-sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Bakı, sentyabr 2007-ci il.
11. AR DSK. Müstəqil Azərbaycan 2011. Bakı, 2011. 640 s.
12. Azərbaycan sahibkarlığının inkişafının bazar mexanizmləri. Azərbaycan

Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. “Elm”, 2008, 300 s.

13. Allahverdiyev H.V., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2007, 564 s.

14. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasoyalar: yaranması, yayılması və inkişaf prespektivləri. Bakı, “Elm”, 2009, 416 s.

## *ПРЯМОЕ ВЛИЯНИЕ ЭКОНОМИЧЕСКИХ РЕФОРМ В СТРАНЕ НА ДЕЯТЕЛЬНОСТЬ МЕСТНЫХ ПРЕДПРИНИМАТЕЛЕЙ*

*Джавид КАРИМОВ*

**Резюме**

*Развитие предпринимательства в стране - один из приоритетов экономической политики. В этом направлении были предприняты комплексные меры, такие как развитие отношений между государством и предпринимателем, совершенствование законодательства и административных процедур, касающихся деловой среды, расширение государственной поддержки предпринимательства, образования, развития деловых отношений и предоставления различных услуг. Достижение как социально-экономического развития регионов в современности - одна из важнейших задач, стоящих перед страной. Предприниматели играют важную роль в определении высокого уровня развития регионов. Один из показателей, определяющих экономический потенциал регионов, связан с хозяйственной деятельностью хозяйствующих субъектов в них. Также развитие предпринимательства освобождает страну от зависимости от импорта и увеличивает экспорт.*

***Ключевые слова:*** *предпринимательство, экономические реформы, ВВП, Фонд развития предпринимательства, торговые дома, иностранные и внутренние инвестиции.*

## *THE DİRECT İMPACT OF ECONOMİC REFORMS İN THE COUNTRY ON THE ACTİVİTİES OF LOCAL ENTREPRENEURS*

*Javid KARIMOV*

***Abstarct***

*The development of entrepreneurship in the country is one of the priorities of economic policy. Comprehensive measures have been taken in this direction, such as the development of state-entrepreneur relations, improvement of legislation and administrative procedures on the business environment, expansion of state support for entrepreneurship, education, development of business relations and provision of various services. Achieving both social and economic development of the regions in modern times is one of the most important tasks facing the country. Entrepreneurs play an important role in determining the high level of development in the regions. One of the indicators determining the economic potential of the regions is related to the economic activities of the business entities there. Also, the development of entrepreneurship frees the country from dependence on imports and increases exports.*

***Keywords:*** *entrepreneurship, economic reforms, GDP, Entrepreneurship Development Fund, trading houses, foreign and domestic investment.*

UOT 338.22

# *AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAFININ TƏHLİLİ*

*Səfər Məzahir oğlu HÜSEYNOV,*
*İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu*
*safarguseynov96@mail.ru*

**Xülasə**

*Müasir dövrdə informasiya kommunikasiya texnologiyalarının (İKT) sürətlə inkişaf etməsi onun ölkədə tətbiqini zəruri edir. İKT-nin cəmiyyətin inkişafında, yeni imkanların yaradaılmasında rolu böyükdür. İKT üzrə yeni və daha dayanıqlı mərhələyə keçid dünya ölkələri və həmçinin ölkəmiz üçün olduqca vacib olan hədəflərdən biridir.*

*Bu məqalədə, Azərbaycanın rəqəmsal inkişafı statistik nəticələrə əsasən son illər ərzində iqtisadiyyatın müxtəlif sahələri üzrə təhlil edilmiş, onun müsbət və mənfi cəhətləri və həmçinin iqtisadi inkişafa mane olan amillər araşdırılmışdır. Bundan başqa sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid, elektron xidmətlərin inkişafı kimi məsələlər araşdırılmış və təhlil edilmişdir.*

***Açar sözlər:*** *İKT, elektron xidmət, elektoon hökümət, rəqəmsal inkişaf, iqtisadi inkişaf*

## GİRİŞ

Çağımız, texnologiyanın sürətlə inkişaf etdiyi və qısa müddətdə qlobal miqyasda məlumat yaya biləcəyi bir dövrün xüsusiyyətinə malikdir. Texnologiya və rabitə fenomenləri bir-birinə təsir göstərir, məlumatların geniş kütlələrə çatmasına və ya istədikləri an çatmasına imkan yaradır. Bunu təmin edən mediaya qısaca kommunikasiya texnologiyaları deyilir. Kommunikasiya texnologiyalarının son nöqtəsini təşkil edən texnologiyalara yeni kommunikasiya texnologiyaları deyilir.

İnternet yeni rabitə texnologiyalarında əhəmiyyətli bir başlıq təşkil edir. Xalqın istifadəsi ili olaraq qəbul edilən 1993-cü ildən bəri insanların həyatında yerini alan İnternet, təxminən iyirmi illik qısa ömrünə baxmayaraq, rabitə mediası baxımından əhəmiyyətli inkişaflar yaşayan bir texnologiya olmuşdur. İstifadəçi sayı 2000-ci illər baxımından milyardlarla ifadə edilən internet çox fərqli məqsədlər üçün istifadə edilə bilər.

İnformasiya həmçininkommunikasiya ilə bağlı olan texnologiyalarının istifadəsinin səviyyəsi dünya ölkələrinin hər birininintellektualvə elmi imkanlarının və bununla bərabər dövlət idarəetmə sistemində şəffaflığın və demokratiyanın inkişafının əsas xarakterikasıdır. Dünya bazarında e-ticarətin rolu dinamik olaraq öz inkişaf tendensiyasını göstərir və ümumi olaraq, gələcəklə bağlıölkələrin rəqabət qabiliyyətli və ərqabətə dözümlü olmaları onların informasiya və kommunikasiya texnologiyalarından faydalı və səmərəli formadaistifadə edilməsindən asılı olacaqdır.

Ümum dünya təcrübəsindən görüldüyü üzərə, müasir dövr üçün informasiya və bununla yanaşı kommunikasiya texnologiyasından ətraflı olaraq istifadə edilməsi hər hansısa bir ölkənin hər bir mənada inkişafını təmin edir və məhz buna görə də müasir texnologiyanın sürətli inkişafına ayaq uydurulması və istifadə edilməsi ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərir. Digər bir mənada müasir texnologiyanın geniş tətbiqi ölkə daxilində yoxsulluğu minimuma endirməkdə müsbət təsirə malikdir.

Sözü gedən məsələlərlə bağlı son dövrlər ərzində Azərbaycanda da müasir dövr informasiya və texnologiya sistemindən geniş istifadə olunur və bunun təzahürüdür ki,

ölkə iqtisadiyyatında bir neçə uğurlara imza atılmışdır. Sözü gedən istiqamət Azərbaycan iqtisadiyyatının və dövlət siyasətinin başlıca prioritetinə çevrilmişdir.

Ticarət və sənaye məqsədlərinə çatmaq üçün mənbələrin ehtiyaclara uyğun çevrilməsini araşdıran texnologiya; Rəqabət qabiliyyəti, məhsuldarlıq və böyümə kimi ölçülə bilən iqtisadi dəyişənlərin izahında mühüm rol oynayan bir sosial fenomendir. İqtisadiyyat ədəbiyyatında rəqabət qabiliyyətinin tərifləri barədə bir fikir birliyi olmasa da, texnoloji inkişaflar rəqabət gücünə çatmaq üçün son dərəcə vacibdir. 20-ci əsrdə xammal sərvətinin, işçi qüvvəsinin və kapital yığımının rəqabət qabiliyyətinin müəyyənləşdirilməsində əhəmiyyət qazandığı dünya iqtisadiyyatında bu günün ən müəyyən xüsusiyyəti sürətlə dəyişən texnologiyalardır. Texnologiyanın inkişaf sürəti ilə hər sahədə yüksək texnologiyaya artan tələbat alimləri və tədqiqatçıları yeni materiallar və istehsal üsulları axtarmağa məcbur etdi və bu çevrilmə prosesində nanotexnologiya ön plana çıxdı.

Ölkələrin milli və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasında əhəmiyyəti getdikcə daha çox vurğulanan nanotexnologiyanın əhəmiyyəti, geniş potensialına görə ölkələr üçün əhəmiyyətli bir rəqabət, firavanlıq və inkişaf vasitəsi olaraq görülür.

Dünyada hər il bu sahəyə investisiyalar artır və ölkələr bir-biri ilə rəqabət aparır. Yaxın gələcəkdə bir ölkənin rəqabət qabiliyyətinin, inkişaf səviyyəsinin və inkişafının nanotexnologiya səviyyəsi ilə ölçülməsi gözlənilir. Tədqiqat nəticəsində əldə edilən məlumatlar işığında; Nanotexnologiyaları istehsal proseslərinə daxil edən, bu sahəyə ciddi mənbələr ayıran, intensiv axtarışların nəticəsi olan tədqiqatları aparan və lazımi hüquqi və institusional infrastruktur quraraq yüksək əlavə dəyərli məhsulların istehsalına önəm verən ölkələrdə sosial-iqtisadi göstəricilərdə müsbət dəyişikliklərin olduğu müşahidə edildi.

## AZƏRBAYCANIN ELEKTRON HAZIRLIĞI

İKT-nin tətbiq dairəsinin keyfiyyətiistənilən bir ölkənin həm intellektual həm də elmi imkanlarının, dövlətin idarə etmə sistemindəki aydınlığın və demokratiyanın inkişaf etdirilməsinin əsas xarakterikasından biridir. Bilindiyi kimi dünya ölkələri arasında elektron ticarət istifadəsiartmaqdadır. Ümumi formada məsələyə baxıldığı zaman, gələcəkdə dünya ölkələrinin rəqabətə davamlılığı və rəqabət üstünlüyü bir başa müasir dövr texnologiyanın istifadəsində asılı olacaqdır.

Son zamanlarda Azərbaycanda İKT-dən istifadə sahəsində bir çox addımlar atılmış, bir çox sahədə texnologiyaların tətbiq olunmasındaçox böyük uğurlar qazanılmışdır. Ümumiyyətlə, yeni texnologiyaların tətbiq olunması dövlət siyasətinin vacib məsələlərindən birinə çevrilmişdir.

Ölkənin elektron hazırlığını dərk etmək iqtisadiyyatın müxtəlif sahələrində rəqəmsal müdaxilələrin uğurla absorbsiyası məqsədilə potensialın qiymətləndirilməsi üçün vacibdir.

### Siyasət Bazası, Tənzimləyici Baza və Bazar İmkanları

Siyasət baxımından 2016-cı ilin dekabr ayında İKT -ə dair strateji yol xəritəsi Azərbaycan Republikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmişdir. Bu sənəddə növbəti 4 il ərzində3 strategiya və 10 prioritetin reallaşdırılması gözlənilirdi (Cədvəl 1). Stratejiyol xəritəsinin icra olunması üçün büdcə ümumilikdə 585 milyon manat (344 mln.ABŞ dolları) həcmində hesablanmışdır. Strateji yol xəritəsinin tərəqəmsal itbiqi qtisadiyyatın inkişafına əngəl törədən çatışmazlıqların aradan qaldırılmasınd olduqca vacib addım olmuşdur. Artıq 2020-ci ildə bu çatışmazlıqlar demək olar ki, aradan qalxmışdır.

**Cədvəl 1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarına dair Strateji Yol Xəritəsinin hədəf və prioritetləri**

| Strateji Hədəf | Prioritetlər |
|---|---|
| 1. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi | 1.1. müstəqil tənzimləyici qurumun yaradılması<br>1.2. telekommunikasiya bazarının liberallaşdırılması<br>1.3.mobil infrastruktura investisiyaların yatırılmasının artırılması |
| 2. Biznesmühitininməhsuldarlığı və fəaliyyətininsəmərəliliyininartırılması | 2.1. rəqəmsal ödənişlərin genişləndirilməsi<br>2.2. biznes mühitində texnologiyalara əsaslanan fəaliyyətlərin genişləndirilməsi<br>2.3. bizneslərin cəlb olunması ilə texnologiya sahəsində təhsilin müasirləşdirilməsi<br>2.4. dövlət institutlarının elektron sistemlərinin təkmilləşdirilməsi<br>2.5. İKT sektorunda bilik və kvalifikasiyaların artırılması və təhsil sisteminə İKT-nin tətbiqi |
| 3. Dövlət və sosial mühitin rəqəmsallaşdırılması | 3.1. dövlət institutlarının informasiya sistemlərinin təkmilləşdirilməsi<br>3.2. başdan sona qədər vahid elektron səhiyyə infrastrukturunun yaradılması |

İKT sektorunun təznimlənməsinə nəzarət edən qurum **Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN)** - rabitə (telekommunikasiya və poçt) və yüksək texnologiyalar (informasiya texnologiyaları, mikroelektronika, kosmik, nano, bio və digər innovativ elmtutumlu texnologiyalar) sahələrində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.[2]İKT üzrə əsas dövlət qurumu NRYTN olsa da, tezliyin paylanılması, tariflərin təsdiqi və anti-inhisar monitorinqi digər dövlət qurumları tərəfindən həyata keçirilir.

Respublikamızada Strateji yol xəritəsinin hazırlanmasında İKT-nin təkmilləşdirilmiş və bununla yanaşı inkişaf perspektivlərinin artırlması istiqamətində, həmçinin ölkə iqtisadiyyatının rəqəmsal formatda geniş istifadə olunması nəznində və dövlətin sosial iqtisadi fəaliyyətində İKT-nin tətbiq sahənin istifadəsinin artırılması məqsədilə telekominikasiya öz qarşısında duran müasir vəzifələr və imkanlar nəzərə alınmaqla tətbiq edilmişdir.

Bilindiyi kimi telekominikasiya iqtisadiyyat qolu olan qeyri-neft sektorunun prioritet növlərindəndir. Telekominikasiyanın inkişafının başlıca rolu strateji yol xəritəsinin hazırlanmasında istifadə olunur. Sözü gedən inkişaf prioritetinin dəstəklənməsi, savada əsaslanan iqtisadiyyatın qurulması həmçinin beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətə malik və həmçinin rəqabətə davamlı müasir növ yeni informasiy texnologiyalarının Bazara çıxarılması, müasir növ yüksək texnologiyanın yeni növ investisiya planlarının cəlb edilmsəi və bu sahədə fəalliyyət göstərməkdə olan subyektlər arasıda verimli əlaqələarin qurulması istiqamətləri nəzərə alınmalıdır.

Strateji yol xəritəsi başlıca olaraq üç dövrü əhatə edir. Bunlar: Qısa, orta və uzunmüddətli dövrlərdir. 2019-cu ilin sonuna qədər olan dövrdə başlıca olaraq strateji baxış planı və həmçinin bu dövrə qədərki tədbirlərin planı, 2024-cü ilin sonunadək

[2]Azərbaycan Hökuməti, NRYTN. http://www.mincom.gov.az/en/

əhatə edən dövr üçün uzunmüddəi əhatə edən baxış və 2025-ci ildən sonra olan dövr üçün gələcək hədəflərdən ibarətdir. Sözü gedən xəritədə 2019-cu ilin sonuna qədər olan dövrdə ki məqsədlərə çatmaq üçün 3 hədəf və 10 istiqamətteyin edilmişdir.[3]

Dünya ölkələrinin bəzilərində və bəzi müəyyən ərazilərdə İKT sektorlarının inkişafı və perspektivlivliyinin artırlması üçün bəzi tənzimləyici operatorlar lisenziyalarını almışdır. Sektorlar arasındakı bərabərliyi təmin etmək üçün telekominikasiya lisenziyasının alınması olduqca mühüm məsələdir. Ölkəmizdə isə belə tənzimləyicinin olmaması sektorlar arasındakı dinamikliyin və istər müstəqil istərsə də dövlət investisiyalarına təsir edir.

## İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARINA ƏLÇATANLIQ

***Sabit telefonlar:*** Sabit telefon şəbəkəsi xidmətləri "Aztelekom" MMC və "Bakı Telefon Rabitə" (BTR) MMC, "Ultel" MMC, "Az-evro-tel" MMC, "Delta Telecom" LTD kimi və digər operatorlar tərəfindən təmin olunur.[3] Aztelekom Bakı və Naxçıvan Muxtar Respublikası (NMR) istisna olmaqla bütün ölkədə fəaliyyət göstərir. BTR MMC simsiz texnologiyalar vasitəsilə aşağı gəlirli ərazilərə telefon və internet xidmətlərini təmin etmək məqsədilə LTE simsiz rabitə avadanlığını quraşdırmışdır. Naxçıvan Muxtar Respublikasında 2015-ci ildə əsası qoyulmuş "NAXTEL" MMC mobil rabitə xidmətlərini təmin edir.

2017-ci ildə fəaliyyətdə 1,5 milyon sabit telefon xətti mövcud idi, ailələrin 2/3-dən də azının sabit telefon xətti vardı. Bir sıra ölkələr və ərazilərdən fərqli olaraq, Azərbaycanda sabit telefon xətlərinin sayı mobil və genişzolaqlı telefonların artmasına baxmayaraq azalmamışdır. Ev telefon xətlərinin sayı da mis xətlərdən istifadə edən simli genişzolaqlı çıxış üçün ailələrin potensialının göstəricisidir (asimmetrik rəqəmsal abunəçi xətti ADSL)).

***Mobil telefonlar:*** Ölkəmizdə üç özəl mobil şirkəti texnologiya üzrə qlobal sistemi təşlik edirlər. Bunlar Azercell, Bakcell və Azerfondur. Sözü gedən özəl şirkətlər qlobal sistemlə yanaşı üçüncü (3G) və dördüncü (4G) nəsil mobil rabitə xidmtələrini təklik edir və təqdim edirlər. Yaranma ardıcıllığına görə Bakcell (199-cü il), Azercell (1996-cı il) və Azerfon (2007-ci il) formasında sıralanmışlar. Günümz dövrümüzdə istifadə oluana "Nar" mobil markası Azerfona aiddir. Azercellin ilkin olaraq yaranması və qabaqcıl texnologiyanın istfiadəsi və tətbiqinə görə iddia edir ki, əhalənin çox böyük bir qisminə (təxmini 99 %) öz mobil siqnalını çatdırır.[10]

2017-ci ilin sonlarına doğru əhali sayına nisbətdə artıq mobil şəbəkə istifadəçilərinin olduğu aşkarlanmışdır və illər keçdikcə bu rəqəmlər arasında fərq artan sürətdə davam edir. Bunun birneçə səbəbləri vardır, başlıca olaraq bir ölkə vətəndaşının bir neçə mobil şəbəkədən istifadə etməsidir. Vaxtı keçmiş, az istifadə oluanan, abunə, abunəçiliyi bitmiş və digər mobil şəbəkə növlərinə məxsus nömrələr ortalama istifadə sayını artırır.

Aşağıdakı qrafikdə (Qrafik 1) illər üzrə ölkə vətədaşlarına düşən mobil şəbəkələrin ortalama sayını göstərir. Bu qrafikdəki dinamik tendensiyanın və müəyyən sınmaların yaranmasının bir neçə səbəbləri mövcuddur. Məlum olduğu kimi, müasir dövr texnologiya dövrüdür və istənilən sahibkarlıq, dövlət və ya özəl sektor öz

---

[3] Aztelekom. https://www.aztelekom.az; Baktelecom. https://www.baktelecom.az, Ultel https://ultel.3dsecure.az/; Azeurotel http://www.azeurotel.com/; Delta telecom https://delta-telecom.net/

rəqabətqabiliyyətliliyini saxlamaq və dinamik inkişafını təmin etmək üçün müasir dövr texnologiyanın tələblərinə cavab verməlidir. Məhz bu kimi səbəblər illər üzrə adam başına düşən mobil şəbəkə nöqtəsini artırmaqdadır. Amma bu zaman diqqət ediləcək bir məqam, ölkə daxilindəki iqtisadi inkişafa da nəzər yetirilməlidir. 2014-cü ildə yaranan müəyyən bir iqtisadi durğunluq və manatın dollar qarşısındakı dəyər itirməsi manatın öz alım gücnü aşağı salmışdır. Bu öz növbəsində digər sahələrdə olduğu kimi mobil şəbəkənin istifadə sahəsinə də öz ciddi təsirini göstərmişdir.




***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/information_society/?lang=en) və Dünya Bankı (https://data.worldbank.org/indicator/IT.CEL.SETS.P2).*

**Qrafik 1. Azərbaycanda mobil telefon istifadəçilərinin hər 100 nəfərə olan orta göstəricisi (2010-2019)**

***Genişzolaqlı şəbəkə:*** Azərbaycan Respublikasında təxminən qırxa yaxın internet xidmətinin təminatçısı olmasına baxmayaraq, reallıq olaraq evlərdə istifadə olunan simli şəbəkə xidmətlərinin ən axırıncı milinə qədər 2 sabit xətt operatoru olan Aztelekom Məhdud Məsuliyyətli Cəmiyyəti və Bakı Telefon Rabitəsi Məhdud Məsuliyyətli Cəmiyyəti öz nəzarətlərini həyata keçirirlər. Hər iki Məhdud Məsuliyyətli Cəmiyyəti də internet təminatlarından geniş istifadə edərək, xəttli şəbəkə üzərindən sabit genişzolaqlı ADSL internet xidmətini həyata keçirirlər. ADSL - Asimmetrik Rəqəmsal Abunəçi Xətti bu gün internet bağlantısı üçün ən çox istifadə olunan əlaqə texnikasıdır. Splitter tək bir telefon bağlantısı ilə həm ADSL xəttinə, həm də gələn zənglərə imkan verir. ADSL ümumiyyətlə mərkəzi ofisdən 4 kilometrdən çox olmayan məsafələrə yerləşdirilə bilər. Ancaq kabel bağlantısı imkan verdiyi halda 8 kilometrə qədər uzana bilər.

Aşağıda, qrafik 2-də görüldüyü kimi, 2016-cı ildə 19 penetrasiya səviyyəsi və 1 milyon 800 min dəyişməyən genişzolaqlı şəbəkə istifadəçisi var olmuşdur. Bu, göstərici bir öncəki illə müqayisə edildiyi zaman müəyyən qədər azalmanı göstərir.İstifadəçilərin abunəçilik say göstəriciləri 2014-cü ilə özünün pik həddində olmuşdur. Lakin buna baxmayaraq, Azərbaycan digər ölkələrə nisbətən müqayisə olunduğu zaman ideal vəziyyətdədir. Dünya İqtisadi Forumu, klassik mənada qlobal iqtisadi vəziyyətin müzakirə olunduğu və gələcəyə dair gözləntilərin müzakirə

olunduğu bir toplantıdır. Ancaq bunun tədricən fərqləndiyi və artan cari dünya problemləri ilə əlaqəli məsələlərin diqqət mərkəzində olduğu görülür. Bir həqiqətdir ki, qlobal münasibətlər artdıqca mövcud problemlər hamının problemidir və heç olmasa olma potensialına sahibdir. Həmin formun QRİ (Qlobal Rəqabətlilik İndeksinə) görə 2017 və 2018-ci illərdə Azərbaycanda internetin istifadəçi abonentlərinin say həcminə görə başqa MDB (Müstəqil Dövlətlər Birliyi) ölkələrini ötüb keçir və 137 ölkə sırasında 34-cü sırada öz yerini almışdır.[4]




***Mənbə**: Dünya Bankı*
*(https://data.worldbank.org/indicator/IT.NET.BBND.P2?view=chart)*

**Qrafik 2. Azərbaycanda sabit genişzolaqlı şəbəkə abunəçilərinin hər 100 nəfərə olan orta göstəricisi (2010-2019)**

Aşağıdakı cədvəllərdə (Cədvəl 2, 3, 4 və 5) Azərbaycandakı simli geniş zolaqlı şəbəkə penetrasiyası əks olunmuşdur. Bu cədvəllərdə illər üzrə və bölgələr üzrə fərqliliklər göstərilmişdir. Sözü gedən fərqlərdin yaranmasındakı başlıca səbəb şəhər yerlərində kənd yaşayış məntəqələri ilə nisbətdə şəbəkə penetrasiyasında geniş tələbatın olması və bununla yanaşı geniş istifadəsidir. Həmçinin, kəndyaşayış məntəqələrində texnoloji savadlılığının şəhərlə nisbətdə azlıq təşkil etməsidir.

**Cədvəl 2. Evdə (mənzildə) İnternetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə, 2018**

| İqtisadi rayonlar | Cəmi | o cümlədən ailə üzvlərinin sayına görə: | | | |
|---|---|---|---|---|---|
| | | 1 nəfərdən ibarət | 2-3 nəfərdən ibarət | 4-5 nəfərdən ibarət | 6 və daha çox üzvü olan |
| Ölkə üzrə | 78,2 | 71,9 | 82,1 | 82,9 | 63,2 |
| şəhər | 82,5 | 76,0 | 85,2 | 86,6 | 69,9 |
| kənd | 72,7 | 69,5 | 76,2 | 78,3 | 52,5 |
| Bakı şəhəri | 78,2 | 75,4 | 97,9 | 99,1 | 97,5 |
| Abşeron | 87,8 | 64,8 | 79,6 | 89,3 | 64,4 |
| Gəncə-Qazax | 82,4 | 59,7 | 73,0 | 69,0 | 45,1 |
| Şəki-Zaqatala | 77,9 | 60,2 | 74,5 | 70,1 | 48,5 |
| Lənkəran | 77,5 | 60,8 | 67,3 | 69,2 | 46,7 |
| Quba-Xaçmaz | 78,8 | 52,6 | 68,8 | 69,2 | 47,4 |

[4]http://www3.weforum.org/docs/GCR2017- 2018 / 05FullReport / TheGlobalCompetitivenessReport2017% E2% 80% 932018.pdf)

| | | | | | |
|---|---|---|---|---|---|
| Aran | 74,4 | 45,1 | 52,9 | 66,5 | 46,7 |
| Yuxarı-Qarabağ | 62,8 | 32,5 | 43,2 | 60,6 | 50,6 |
| Dağlıq Şirvan | 71,6 | 33,1 | 67,1 | 73,1 | 43,6 |
| Naxçıvan Muxtar Respublikası | 97,2 | 72,3 | 98,4 | 96,1 | 71,3 |

**Cədvəl 3. Evdə (mənzildə) İnternetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə, 2019**

| İqtisadi rayonlar | Cəmi | o cümlədən ailə üzvlərinin sayına görə: | | | |
|---|---|---|---|---|---|
| | | 1 nəfərdən ibarət | 2-3 nəfərdən ibarət | 4-5 nəfərdən ibarət | 6 və daha çox üzvü olan |
| Ölkə üzrə | 79.1 | 72.0 | 82.2 | 82.4 | 63.3 |
| şəhər | 82.7 | 75.9 | 85.3 | 86.8 | 70.0 |
| kənd | 74.9 | 68.7 | 79.1 | 77.5 | 39.1 |
| Bakı şəhəri | 81.4 | 75.6 | 97.8 | 99.2 | 97.5 |
| Abşeron | 87.9 | 64.1 | 78.5 | 87.4 | 64.2 |
| Gəncə-Qazax | 82.5 | 58.6 | 72.8 | 68.7 | 44.5 |
| Şəki-Zaqatala | 78.0 | 59.6 | 78.4 | 68.1 | 47.1 |
| Lənkəran | 77.6 | 58.9 | 75.6 | 68.2 | 44.5 |
| Quba-Xaçmaz | 78.8 | 50.4 | 73.4 | 69.5 | 46.7 |
| Aran | 74.6 | 45.2 | 56.8 | 69.3 | 48.9 |
| Yuxarı-Qarabağ | 63.0 | 33.6 | 49.1 | 63.4 | 51.3 |
| Dağlıq Şirvan | 71.7 | 34.9 | 72.1 | 73.9 | 42.1 |
| Naxçıvan Muxtar Respublikası | 97.3 | 72.5 | 98.5 | 96.2 | 71.4 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.* https://www.stat.gov.az/

Aşağıdakı Qrafik 4-də mobil geniş zolaqlı şəbəkənin ölkələr üzrə (Azərbaycan, Rusiya, Qazağıstan, Türkiyə, Gürcüstan və dünya üzrə ortalam dəyər) 3G və 4G (yəni ki, LTE) verilmişdir. Burada bir neçə vacib məqam vardır. Bunlardan başlıca olaraq mobilgenişzolaqlı şəbəkənin əhatə dairəsinin ölkələr üzrə fərqlilik göstərməsinin səbəbidir. Səbəbi isə müasir dövr texnologiya tələblərinə cavab verməyi və yeni müasir dövr texnologiyadan istifadədən asılıdır.

Dünya üzrə ortalama əhali faizinin bəzi İnkişaf Etməkdə Olan hətta İnkişaf Etməmiş ölkələrin çoxluq təşkil etməsi səbəbindən ortalamda faiz dərəcəsi aşağı düşmüşdür. Eyni zamanda, bir başqa məsələ də nəzərə alınmalıdır ki, ölkə əhalisinin çoxluğu ölkə daxilində mobil şəbəkə istifadəçi sayının çox olacağı mənasına gəlmir. Misal üçün, Rusiyanın əhalisi təxminən 150 milyon nəfər və bu rəqəm Qazağıstanda təxmini 30 milyon təşkil edir. Amma ölkələr üzrə genişzolaqlı şəbəkənin istifadə tendensiyasına nəzər yetirildiyi zaman 2017-ci ildə bu rəqəm Rusiyada hər 100 nəfərə 74.9 amma Qazağıstanda 78.9 abunəçi indeksində dəyərləndirilmişdir.

Aylıq sabit genişzolaqlı şəbəkə paketinin qiyməti (ən aşağı yükləmə sürəti 256 kbps) adam başına düşən gəlirin 1,1 faizinə bərabərdir. Azərbaycan sabit genişzolaqlı şəbəkənin qiyməti üzrə dünyada ölkələri arasında 61-ci yerdədir.[5] Mobil genişzolaqlı şəbəkə paketi (ay ərzində minimum 1 GB) adam başına düşən gəlirin 0,5 faizinə

[5]Beynəlxalq Telekommunikasiya Birliyi. 2018. İnformasiya Cəmiyyətinin Qiymətləndirilməsi ilə bağlı Hesabat. https://www.itu.int/en/ITU-D/Statistics/Pages/publications/mis2017.aspx

bərabərdir. Yəni, ölkəmizin dünyada ən ucuzgenişzolaqlı şəbəkə qiymətlərinə malik olan 43-cü ölkədir. Bu, mobil genişzolaqlı şəbəkəni sabit şəbəkə ilə müqayisə etdikdə niyə daha məhşur olma səbəbini izah etməyə kömək edir.

2018-ci ilin iyul ayında Azərbaycanın sabit internet yükləmələrinin orta sürəti 14 mbit/san olmuşdur. Bu nəticə ilə ölkəmiz dünya ölkələri arasında 98-ci yerdə idi.[6] Qeyd edək ki, bu rəqəm dünya üzrəorta göstəricidən aşağıdır.




*Mənbə: Dünya Bankı. The World Bank https://data.worldbank.org/*

**Qrafik 3.Mobil genişzolaqlı şəbəkənin əhatə dairəsi və abunəçilər, 2017**

Ölkənin mis simli sabit genişzolaqlı şəbəkə bağlantılarının nisbətən aşağı sürətinin böyük hissəni zəbt etməsi, eləcə də sabit genişzolaqlı şəbəkə infrastrukturu üzrə məhdud rəqabətin olması internet sürətinə təsir edir.

***İnternetdən istifadə:*** Müasir dövr texnologiya dövrü olduğu üçün və bununla bağlı olaradan rəqabət qabiliyyətinin və dözümlülüyün artırılması üçün müasir dövr texnologiyanın inkişafına ayaq uydurulmalı və müasir dövr texnologiya tətbiqinin geniş sahəsindən istifadə edilməlidir. Bunun bir neçə müsbət tərəfləri vardır,başlıca olaraq onu qeyd etmək olar ki, daha az zaman dilimi çərçivəsində daha çox işgörülməsi imkanı yaradır. Buda öz daxilində verimliliyin və marjinal faydanın intensiv sürətdə artış göstərilməsinə gətirib çıxarır. Müasir dövr texnologiya avadanlıqlarının bir neçəsi internetdən asılı olduğu və əlaqədar vasitələri internet olduğu üçün internetdən istifadə öz vacibliyini qoruyub saxlamaqdadır. XIX əsrin ortaları və hətta sonralarını XX əsrlə müqayisə olunduğu zaman sözü gedən məsələ aydın bir formada öz sübutunu göstərməkdədir. Məsələn,hər bir yeni il, bir öncəki ilə nisbətən internet abonentlərini sayındakı artışın texnologiyanın inkişafı ilə bağlı olduğunu, yeni nəsil mobil telefonlardan görmək olar. 2015-2019-cu illər intervalındakı hər yüz nəfərə düşən internet istifadəçilərinin sayındakı artışı illər və bölgələr üzrə yaranan fərqliliklər aşağıdakı Cədvəl 6-da əks olunmuşdur.

**Cədvəl 4. Regionlar üzrə hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı faizlə**

| Hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı | | | | | |
|---|---|---|---|---|---|
| **Regionlar üzrə** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
| Ölkə üzrə | 77,0 | 78,0 | 79,0 | 79,8 | 81,1 |

[6]Sürət sınağı. Speed Test. http://www.speedtest.net/global-index.

| | | | | | |
|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə) | 89,2 | 89,4 | 91,4 | 91,6 | 91,7 |
| Abşeron iqtisadi rayonu | 85,7 | 85,9 | 87,8 | 88,1 | 88,3 |
| Gəncə-Qazax iqtisadi rayonu | 78,6 | 79,6 | 84,9 | 85,4 | 85,7 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 70,7 | 72,7 | 79,2 | 80,4 | 80,6 |
| Lənkəran iqtisadi rayonu | 68,7 | 70,7 | 77,8 | 79,3 | 79,6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 70,2 | 71,9 | 79,1 | 80,0 | 80,3 |
| Aran iqtisadi rayonu | 70,0 | 71,4 | 79,2 | 80,2 | 80,6 |
| Yuxarı-Qarabağ iqtisadi rayonu | 60,1 | 6,7 | 70,6 | 74,4 | 74,8 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 68,6 | 69,9 | 79,3 | 80,1 | 80,4 |
| Naxçıvan Muxtar Respublikası | 82,2 | 82,4 | 85,1 | 85,4 | 85,5 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

**İnternetddən istifadənin məqsədi:**Müasir dövrdəinternet hər hansı informasiyanın və ya məlumatın qısa zaman ərzində əlçatanlığını təmin edən çox önəmli vasitədir. İnternet insanların yaşından, maraq dairəsindən, peşə və vəzifələrindən və s. asılı olaraq müxtəlif məqsədlər üçün istifadə edilir. Aşağıdakı qrafikdə bu öz əksini tapmışdır.




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

**Qrafik 4. İnternet istifadəçilərinin internetdən istifadə məqsədlərinin strukturu, yekuna nisbətən faizlə**

## İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ İQTİSADİYYATIN MÜXTƏLİF SAHƏLƏRDƏ TƏTBİQİ

İnformasiya kommunikasiya texnologiyaları (İKT) yüksək göstəricilərə malik inkişaf etmiş iqtisadiyyatın ən önəmli tərkib hissəsidir. İKT sahəsinə telekommunikasiya sənayesi də daxil olmaqla, müxtəlif çeşidli istehsal və xidmət sahələri daxildir. Biznes subyektləri və istehlakçılar arasında kommunikasiya və informasiya mübadiləsinə şərait yaratmaqla, İKT dövlətiniqtisadiyyatın və cəmiyyətin inkişafını dəstəkləyən rola malik olur. Bu bölmədə iqtisadiyyatın müxtəlif sektorlarında İKT-dən istifadə hər bir sahədə mövcud sistemlərin müəyyən olunması və İKT-nin ehtiva olunması ilə əsas çağırışların vurğulanması ilə təsvir olunur. Azərbaycanın İKT-ə dair strateji yol xəritəsi səhiyyə, təhsil və biznes kimi sahələrdə rəqəmsal prioritetləri müəyyən edir. Bununla bərabər, strateji yol xəritələri təhsil, kənd təsərrüfatı və KOM-lar da daxil olmaqla digər sahələr üzrə hazırlanmışdır və rəqəmsal müdaxilələri özündə əks etdirir.

***Kənd təsərrüfatı:*** Azərbaycanda kənd təsərrüfatı təxminən bir milyon kiçik ferma təsərrüfatlarına bölünmüşdür, ferma təsərrüfatı orta hesabla 1,60 hektar ərazini

əhatə edir və adətən, hər biri 0,30 hektar olmaqla 4-5 torpaq sahəsinə bölünür.[7] Sahə 2017-ci ildə işçi qüvvəsinin 37 faizini əhatə edərək ÜDM-nin yalnız təqribən 5,6 faizinə töhfə vermişdir.[8] Sahənin artan daxili tələbatı ödəmək və süd məhsulları, tərəvəz və meyvə ilə genişlənən ixrac imkanını qarşılamaq üçün önəmli potensialı mövcuddur.

Kənd Təsərrüfatına dair Strateji Yol Xəritəsində iki rəqəmsal fəaliyyət nəzərdə tutulur. Biri “Made in Azerbaijan” brendinin təqdimatı və tanıtımı üçün yerli məhsullar və istehsalçılarla bağlı məlumatları əhatə edən onlyan portalın yaradılmasına çağırır. Digəri isə fermerlərə kənd təsərrüfatı ilə əlaqədar müvafiq məlumatları vermək məqsədilə mobl telefon, sosial media və internetdən istifadə etmək imkanı yaradılacaq. Beləliklə, rəqəmsal texnologiyalar əsasən belə alətlərin məhsuldarlığın artırılması və kənd yaşayış məntəqələrinin rifahının yüksəldilməsi imkanlarınız nəzərə alaraq, Kənd Təsərrüfatına dair Strateji Yol Xəritəsində yer alır. Azərbaycan dövləti elektron kənd təsərrüfatı, həmçinin agritech startaplarının inkubasiyası,kənd yerləri üçün onlayn ictimai xidmətlər, böyük və açıq məlumatlar, fermerlərin rəqəmsal biliyi və kənd yaşayış məntəqələri üçün e-kommersiyadan istifadəni inkişaf etdirmək əsas məqsədlərdən biridir.

Bütün bunlar həmçinin “balaca kəndlər” üçün də nəzərdə tutulmuşdur. Bu kəndlər üç komponentin səciyyəvi xüsusiyyətlərini göstərəcək:

- “dəqiq rəqəmsal əkinçilik” üçün iqtisadi potensial ilə bağlı olan məlumatları (torpağın keyfiyyəti ilə bağlı olan məlumatlar və zərərvericilərə nəzarət, hava məlumatı, ictimai xidmətlər, təlim materialları, sağlamlıqla bağlı məlumatlar və s.) təmin edən veb və ya mobil telefon yolu ilə qoşula bilinən elektron kənd təsərrüfatı onlayn platforması;
- E-kommersiya, təhçizat və ticarət zəncirinin idarə olunması üçün kənd təsərrüfatı biznesi onlayn platforması
- Fermerlər və kənd təsərrüfatı sahəsində kiçik və orta müəssisələr üçün təlim üzrə elektron maarifləndirmə platforması. Bu cür kiçik kəndlərin dayanıqlığı akademiya, özəl sektor və beynəlxalq tərəfdaşlar da daxil olmaqla əməkdaşlıq yolu ilə daha asan mümkündür.

***Təhsil:*** XXI əsrdə texnologiya ən geniş yayılmış sahələrdən biridir. Müasir dünyada insanların ən yaxın dostu olan kompüter texnologiyası, ocümlədən in ternetin insanlara təsiri ilə bərabər təhsilə də təsiri danılmazdır. Təhsil Nazirliyi yanında Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi məktəb təhsilinin informasiyalaşdırılması ilə əlaqədar olan qurumdur. Orta məktəblərin İKT ilə təmin olunması son illərdə dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir. Bu, elektron dərs vəsaitlərinin hazırlanması, şagirdlərin kompüter və digər texniki avadanlıqlarla təchiz olunması, internetə qoşulmanın təmin olunması və İKT-dən istifadə sahəsində müəllimlərin təlim və kurslara cəlb olunmasını əhatə edir. Təhsil sistemində texnologiyanın rolu və yerini müzakirə etmək üçün texnoloji biliklər kifayət deyil. Buna görə də texnologiya dörd anlayış əsasında müzakirə edilir. Bunlar; müxtəliflilik, davamlılıq, yenilik və

---

[7]A. Kwitowski. 2018. Mərkəzi və Şərqi Avropada Torpaqların Təmərküzləşməsi – Arzu, Zərurət, yoxsa Kahkəşan? Araşdırma 10-cu Beynəlxalq LANDNET Seminarında təqdim olunub. Skopye, Makedoniya. 19–21 iyun. https://www.unece.org/fileadmin/DAM/hlm/Meetings/2018/06_18-21/Presentations/7.2.pdf

[8]Dünya Bankı. Məlumatlar. Kənd Təsərrüfatında Məşğulluq. https://data.worldbank.org/indicator/sl.agr.empl.zs (2 dekabr 2018-ci il baxılmışdır)

çeşidləmədir. Texnologiyanın sürətlə inkişafı, yeniliklərin artması və iqtisadiyyatda mühim paya çevrilməsi də təhsildə texnologiyanın tətbiqinin zəruriliyini artırır. [7]

Azərbaycanda ümumi təhsil müəssisələrinin əksəriyyəti Azərbaycan Təhsil Şəbəkəsi (AzEduNet) vasitəsilə internetə qoşulmuşdur, bu da şagirdlərin təxminən 85 faizi, müəllimlərin isə 75 faizi deməkdir. Digər məktəblər internetə əlçatanlıq üçün mobil genişzolaqlı texnologiyaların istifadə olunmalı olduğu ucqar yaşayış məntəqələrində yerləşir. Təlim – tədris resurslarının bəziləri dərsliklər, interaktiv testlər və video dərslərin 96 faizi daxil olmaqla onlayn mövcuddur. Təxminən 20 000 noutbuk və elektron lövhələr və proyektorlar da Çinlə ikitərəfli anlaşma çərçivəsində artıq bir neçə ildir ki, təchiz olunmuşdur. Ali təhsil sahəsində bağlantılar yüksəkdir, ölkənin ali təhsil müəssisələrinin bir çoxu internetə fiber-optik sistemlə bağlanmışdır.

İbtidai və orta təhsilə qəbul səviyyəsi yüksək olsa da, ali təhsil müəssisələrinə qəbul səviyyəsinin artmasına baxmayaraq, nisbətən aşağıdır. 2017-2018-ci tədris ilində təxminən 15000 tələbə bakalavr səviyyəsinə qəbul olunmuşdur. 2019-cu ildə Azərbaycanda ali təhsilə qəbul səviyyəsi Gürcüstanda 63.9 faiz və Qazaxıstanda 60.3 faizlə müqayisədə 31.5 faiz olmuşdur.[9]




**Qrafik 5. Ali məktəblərə qəbul (ümumi faizlə) - Azərbaycan, Gürcüstan, Qazaxıstan**

Azərbaycanda 30-a yaxın niversitet İKT ilə bağlı proqramları tədris edir. Bu proqramlara qəbul 2017-2018-ci tədris ilində kəskin artaraq 2466-a çatmışdır. 6600 nəfərə yaxın tələbə bu sahədə təhsil alır və təxminən 1300 nəfər hər il məzun olur.

Texniki və peşə təlim-təhsili (TPTT) tarixən maliyyə çatışmazlığı ilə qarşı-qarşıya gəlmiş və səmərəsiz olduğu qəbul olunmuşdur. 2016-2017-ci tədris ilində 23 703 tələbəsi olan 113 TPTT (o cümlədən müəllimlər üçün 3 təlim mərkəzi) institutu var idi, buraya qəbul səviyyəsi əvvəlki ilə misbətən 27 faiz artmışdır. Qeyd edək ki, 2019-cu ildə PTT müəssisələri şəbəkəsi tədricən optimallaşdırılmışdır və onların sayı 82-ə qədər azaldılmışdır. Bir çox tələbə dövlət tərəfindən təqaüd alır. Əvvəlki dövrlərdə BMT-nin təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) Azərbaycanda TPTT-nin müasir iqtisadiyyat üçün, həmçinin İKT ilə bağlı dərs vəsaitlərinin

[9]Dünya Bankı. Məlumatlar. Ali Təhsil məktəbıərinə qəbul (ümumi faizi). https://data.worldbank.org/indicator/SE.TER.ENRR?locations=AZ-GE-KZ (02.12.2018).

hazırlanması və daha tədbirli olması məqsədilə TPTT-nin qəbul olunmasına köməklik göstərmişdir. Hazırda Aİ Azərbaycana TPTT-nin inkişafı, o cümlədən İKT ilə bağlı sahələrdə dəstək olmaq məqsədilə texniki yardımı təmin edir. İKT ilə bağlı sahələrdə təhsil verən yaxşı təchiz olunmuş az sayda TPTT müəssisəsi var, ancaq TPTT müəssisələrinin bir çoxunda İKT infrastrukturunun səviyyəsi nisbətən aşağıdır, bu da misal üçün kompüterlər olmadan kompüter dərslərinin keçilməsi kimi bir nəticə ilə yekunlaşır. Özəl sektorla əməkdaşlığın inkişaf etdirilməsi, müəllimlərin daha yaxşı təlim keçməsi və tədris proqramında sahibkarlığın dəstəklənməsinə yönələn TPTT-ə dair strateji yol xəritəsi mövcuddur. Bu təşəbbüslər üçün maliyyələşdirmə isə çətin məsələdir. TPTT haqqında yeni Qanun 2018-ci ilin aprel ayında qəbul olunmuşdur.

Gənclər arasında məşğulluq səviyyəsinin yüksək olmasının iki səbəbi vardır. Birincisi, bacarıqlarda uyğunsuzluqların mövcud olmasıdır. Yəni bəzi məzunların kifayət qədər texniki bacarıqları yoxdur. İkincisi, Azərbaycanın İKT sahəsi zəif inkişaf etmişdir. Kompüter və informasiya xidmətləri sadəcə kiçik hissəni təşkil edir. Nəticədə, bu sahədə iş yerləri də azdır. Bundan başqa İKT bacarıqları olanların önəmli dərəcədə beyin axını ilə bağlıdır. Beyin axını iki istiqamətlidir – dövlət sektorundan özəl sektora və Azərbaycandan xarici ölkələrə.

Bacarıqların uyğunsuzluğu biznes sektorunun tələblərinə cavab verməkdə uğurlu olmayan köhnə ənənələrlə bağlıdır. Təhsilin planlaşdırılmasına biznesin az cəlb olunmasına görə bir çox hallarda tədris kursları yeni biznes mühitinin tələblərinə cavab vermir. İş yerləri ilə bağlı konkret bacarıqların inkişaf etdirilməsi əvəzinə, dərsliklərin tədris olunması və əzbərçilik də diqqət mərkəzindədir. TPTT üzrə tədris proqramları hər 5 ildən bir yoxlanılır.

İnformasiya iqtisadiyyatı üçün rəqəmsal bacarıqların əhəmiyyətini nəzərə alaraq, Azərbaycanın İKT-ə dair strateji yol xəritəsi məktəbləri “elektron məktəblərə” çevirmək (elektron kitablar, məsafədən təhsil, elektron seminarlar, internet səhifəsində yerləşdirilən imtahanlar, açıq tədris materialları və s.), rəqəmsal texnologiyaların sürətli inkişafına həmişə cavab vermək məqsədilə müəllimlər üçün həyata keçirilən İKT kurslarını təşkil etmək və müəllimlər və məzunların İKT bacarıqlarının qiymətləndirilməsini təkmilləşdirməyi nəzərdə tutur. Bununla bərabər, məktəblərdə rəqəmsal texnologiyaların geniş səviyyədə mövcudluğu və İT-nin tədris zamanı tətbiqinə (elektron dərsliklər, multimedia ilə dəstəklənən dərslər və onlayn dərslər və imtahanlar) rəqəmsal təhsil konsepsiyasının inkişafının bir hissəsi kimi diqqətdəə saxlanılacaq. Artıq Təhsil Nazirliyi tədrisin müasir formatlarının tətbiqi və müəllimlərin potensialının gücləndirilməsi ilə bu istiqamətdə işlərə başlamışdır.

***Biznes:*** Biznesin İKT-dən istifadəsi, xüsusilə kiçik və orta müəssisələr arasında aşağıdır. 2015-ci ildə məhdud bacarıqlar və məlumatlılıq, eləcə də ənənəvi praktikalara üstünlük verdiklərinə görə KOM-ların sadəcə 30-50 faizi internetdən istifadə edirdi. Dövlət Statistika Komitəsinin məlumatlarında 2019-cu ildə şirkətlərin yalnız 19 faizinin veb saytı olduğu qeyd olunur.[10]Buna səbəb domeylərinn qeydiyyatının illik 245 dollar[11] olmaqla yüksək xərc tələb etməsidir.

---

[10]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[11] https://www.marcaria.com/ws/en/register/domains/bulk-domain-registration-az?curr=eur&gclid=EAIaIQobChMImaSN3Kqu3QIVDeh3Ch3qUAWLEAAYASAAEgKCM_D_BwE(24.11.2020)

**Cədvəl 5. İnternetdə Veb-səhifəsi (Web Site, Web Page) olan müəssisələrin sayı, 2019-cu il**

| İqtisadi fəaliyyət növləri üzrə | Veb səhifəsi olan müəssisələrin sayı, vahid | o cümlədən xüsusi çəkisi, faizlə: | | | Veb səhifəsi Azərbaycan serverlərində yerləşdirilmiş müəssisələrin sayı, vahid |
|---|---|---|---|---|---|
| | | fəaliyyətdə olan müəssisələrin sayında | kompüterdən istifadə etmiş müəssisələrin sayında | internetdən istifadə etmiş müəssisələrin sayında | |
| **Ölkə üzrə** | **2 369** | **9,8** | **15,6** | **19** | **1 536** |
| o cümlədən: | | | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 46 | 2,6 | 6,9 | 9 | 24 |
| Mədənçıxarma sənayesi | 32 | 10,3 | 19,2 | 19,6 | 12 |
| Emal sənayesi | 155 | 9,5 | 15,8 | 17,5 | 112 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 24 | 10 | 12,4 | 12,5 | 12 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 27 | 9 | 12,7 | 14,6 | 13 |
| Tikinti | 174 | 9,4 | 16,4 | 19 | 72 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 191 | 4,4 | 7,3 | 8,1 | 135 |
| Nəqliyyat və anbar təsərrüfatı | 78 | 10,1 | 16,2 | 17,4 | 42 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 54 | 16,4 | 27,7 | 31 | 34 |
| İnformasiya və rabitə | 148 | 26 | 30 | 32,7 | 103 |
| Maliyyə və sığorta fəaliyyəti | 415 | 35,8 | 37,2 | 41,7 | 331 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 45 | 7,6 | 16,3 | 18,7 | 19 |
| Peşə, elmivə texniki fəaliyyət | 214 | 14 | 20,9 | 25,6 | 126 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 98 | 11,5 | 22 | 25,6 | 65 |
| Dövlət idarəetməsi və müdafiə; icbari social təminat | 316 | 8,8 | 12,2 | 22,7 | 218 |
| Təhsil | 122 | 9,2 | 12,5 | 12,9 | 62 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 86 | 9,8 | 14,5 | 15,3 | 50 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 81 | 11,1 | 20,9 | 24,4 | 54 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 63 | 4,7 | 9,1 | 13,5 | 52 |

Prezidentin 2012-ci ildə imzaladığı sərəncama əsasən yaradılmış Yüksək Texnologiyalar Parkının ərazisi Bakı şəhərinin rayonu olan Pirallahı adasında 50 hektar ərazini əhatə edir və NRYTN-ə hesabat verir. Onun missiyası modern obyektlər, iqtisadi stimullar və biznes xidmətləri ilə biznes üçün əlverişli şəraitin təmin olunması vasitəsilə yüksək texnologiyalar iqtisadiyyatının gücləndirilməsindən ibarətdir. Ancaq bu gün o, daha çox sənaye parkı kimi qəbul olunur və burada yerləşən kompüter xidmətləri göstərən şirkətlərin sayı azlıq təşkil edir. Lakin burada müxtəlif startap layihələr üçün istifadə olunan inkubator da mövcuddur. Bundan başqa, 2015-ci ildə Mingəçevir Yüksək Texnologiyalar Parkında resident şirkət planşet, kompüter və başqa elektron cihazların istehsalına başlamışdır.

Ölkədəmizdə proqram təminatı sahəsinin məhdud olmasının bir digər göstəricisi də ticarət statistikalarında öz əksini tapır. Azərbaycan Respublikası kompüter və informasiya xidmətləri sektorunda tədiyyə balansının nəzərəçarpan kəsri ilə üzləşir, bu da İT tətbiqlərinin inkişafı sektorunda ölkə potensialında məhdudiyyətlərin mövcud olduğunu ön plana çəkir.

Respublikamızın texnologiya ilə əlaqədar olan startap sahəsinə bağlı olaraq sosial sahədə olan sahibkarların biznes inkubatorları olan bəzi ali təhsil müəssisələri öz köməkliklərini göstərirlər. Bundan başqa bir çox telekom operatorlarının da biznes sahibkarları tərəfindən mobil tətbiqetmələrinin işlənib hazırzırlanması üçün əhatəli olan startap layihələröz mövcudluğunu əks etdirir. Bununla bərabər, bir çox sayda beynəlxalq təşkilatçılar və bu təşkilatçılıqla yanaşı mentorluğu təmin edən ali təhsil ocaqları (Massaşusets Texnologiyalar İnstitutu) tərəfindən təşkil olunan startap tədbirləri də mövcuddur. Bundan başqa, Azərbaycanın Bakutel kimi tanınan İllik Beynəlxalq Telekommunikasiya, İnnovasiyalar və Yüksək Texnologiyalar Sərgisi və Konfransı startaplara öz fikirlərini beynəlxalq aləmə təqdim etmək imkanı verir. 2018-ci ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyitərəfindən birlikdə çalışma sahəsi sahəsi, fabrikasiya laboratoriyası, tədqiqat və inkişaf mərkəzi, inkubator və texnologiya akademiyasının öz mövqeyini tutduğu "İnnoland” inkubasiya və innovasiya mərkəzinə öz başlanğıcını götürmüşdür.

KOM-lara İKT-ni mənimsəməkdə kömək etmək məqsədilə bir sıra dövlət təşəbbüsləri mövcud olsa da, bunlardan biri də İKT sahəsində KOM-ların inkişafı məqsədi daşımır. Ailə Bizneslərinə Asan Dəstək (ABAD) təşəbbüsü “Asan Xidmət” (VXSİDA) tərəfindən həyata keçirilir və inkubasiya mexanizmi vasitəsilə kənd təsərrüfatı və əl sənəti sahəsində fəaliyyət göstərən KOM-ların daha məhsuldar olmasına kömək edir edir. Oxşar olaraq, 2018-ci ilin iyun ayında fəaliyyətə başlamış yeni Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) bəzi rəqəmsal təşəbbüslər, həmçinin İKT sahəsində təlim və “G2B” (dövlət–biznes) elektron reyestri portalının yaradılması vasitəsilə KOM-ların biznes prosedurlarını asanlaşdırmağı nəzərdə tutur. Hökumət, o cümlədən vergi stimulları vasitəsilə innovativ fəaliyyətlərə qoşulmuş startapları dəstəkləmək məqsədi güdür.

Azərbaycanda Respublikasındakıkiçik və orta müəssisələrhəmiçinin startapların qarşılaşdığı digər önəmli çağırışlardan bir digəri də kreditə uyğunluqdur; Dünya Bankının 2013-cü il sorğusuna əsasən maliyyə əlçatanlığı Azərbaycanın müəssisələrinin üzləşdiyi ən böyük maneə kimi qeyd olunmuşdur. Azərbaycanda bank və kredit təşkilatları yüksək risk kimi dəyərləndirdikləri müəssisələrə kredit verilməsində istəkli deyillər.

Ölkədə e-kommersiyanın inkişafı çox da yaxşı deyil. Dünya Bankının 2017-ci ilə olan məlumatına əsasənAzərbaycanda əhalinin sadəcə 5 faizi onlayn alış-veriş etmişdir, bu göstəricidünya üzrə orta göstərici kimi qəbul edilən24 faizlə müqayisədə çox aşağıdır. [4]2016-cı ildə pərakəndə e-kommersiya ÜDM-nin yalnız 0,04 faizini təşkil edirdi. Buna baxmayaraq, o, 2016-2017-ci illər ərzində demək olar ki, iki dəfə artmış və 25,6 mln. manatdan (15 mln. dollar) 2017-ci ildə 46 mln. manat qədər (27 mln. dollar) yüksəlmişdir, bu göstərici, dünya üzrə orta rəqəm ilə müqayisədə aşağı idi.[12] Ölkəmizplastikkartları, onlayn mağazaların çatışmazlığı, inkişaf etməmiş

---

[12]https://mincom.gov.az/en/view/news/354/the-current-state-and-prospects-for-development-of-electronic-commerce-in-azerbaijan-were-discussed

çatdırılma xidməti, tərəflərin bir-birinə inamın olmaması və ümumilikdə, cəmiyyət arasında rəqəmsal biliyin zəif olması da nəzərə alınmaqla elektron ödənişlərin zəif penetrasiyasına görə UNCTAD-ın B2C Elektron Kommersiya İndeksində 152 ölkə arasından 62-ci yerdədir.[4] Bir başqa maneə isə beynəlxalq kredit kartı ödənişi şəbəkələri ilə bağlı tranzaksiya haqlarının yüksək olmasıdır. Problemi anlayaraq, hökumət 2018-2020-ci illərdə Rəqəmsal Ödənişlərin Genişləndirilməsinə dair Dövlət Proqramının vacib sahələrindən biri kimie-kommersiyanın inkişafına nail olmaq üçün bir sıra önəmli addımlar ataraq yaxşı nəticə əldə etmişdir.

***Səhiyyə:*** İKT səhiyyə sahəsində də olduqca əməmiyyətli rola malikdir. Belə ki, pasientlərə göstərilən tibbi xidmətlərin keyfiyyətini və eyni zamanda sayını daha da artırmaq, tələb olunan xərcləri minimuma endirmək yaradılmış strateji yol xəritəsinin qarşısında duran başlıca məqsədlərdən biridir.

Ölkədə əhalinin sağlamlığının monitorinqi üzrəmilli mərkəz funksiyalarını həyata keçirmək, səhiyyə sistemində informasiyalaşdırma məsələləri üzrəümumi əlaqələndirmə və nəzarət işinin həyata keçirmək, səhiyyə sistemində informasiyalaşdırılma problemlərinin həllinə yönəldilmiş elmi-texniki siyasətin həyata keçirilməsində iştirak etmək və qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək məqsədilə elektron səhiyyə (e-səhiyyə) portalı yaradılmışdır. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu portal vasitəsilə əhaliyə qırxdan artıq elektron xidmət təqdim edir.[13]

Bundan başqa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarlarına əsasən Səhiyyə Nazirliyi tərəfindən bir sıra layihələr həyata keçirilir.Məsələn, sürücülüyə yararlı olmaq barədə" Forma AZS-83 saylı tibbi arayışın elektron registri, vətəndaşların elektron sağlamlıq kartı" sistemi (VESKS), yoluxucu xəstəliklərin elektron müşahidə sistemi və s.[14]

Əlavə olaraq qeyd edək ki, Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Səhiyyə Nazirliyinə tibbi tətbiqlərin inkişaf etdirilməsi (MedTech) məqsədilə startapların inkubasiyası üçün maliyyə yardımı edir.

## VAHİD ELEKTRON XİDMƏT

***"Elektron Hökümət":*** Müasir dövrdə bir çox inkişaf etmiş ölkələr kimi Azərbaycanda da demokratiyanın inkişaf etdirilməsində mühim rol oynayan "Elektron Hökümət (e-Government)"ininkişafına xüsusi diqqət yetirilir.

"Elektron Hökümət" beynəlxalq təcrübəyə əsaslanaraq müasir İKT-dən istifadə edərək Azərbaycan Respublikasında yaşayan hər bir vətəndaşa, hüquqi və fiziki şəxlərə, xarici vətəndaşlara və hətda vətəndaşlığı olmayan şəxslərə də dövlət qurumları tərəfindən elektron xidmətlərin göstərilməsi üçün əlverişli şərait yaradır.

Bu sistemin yaradılmasında əsas məqsəd vətəndaşlara xidmətin sürətli sürətli və rahat şəkildə həyata keçirilməsi və sadələşdirilməsi, həmçinin, dövlət qulluqçuları və vətəndaşlar arasında şəffaflığın artırılmasına nail olmaqdır. Elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və göstərilən xidmətin keyfiyyətinin artırılması, vətəndaşların məmnunluğunun təmin edilməsi qarşıya qoyulan məqsədlərə nail olmağın vasitələridir.

***"Elektron Hökumət"in əsas fəaliyyət prinsipləri:***[15]

---

[13]http://e-sehiyye.gov.az/
[14]http://e-sehiyye.gov.az/
[15]https://www.e-gov.az/az/content/read/2

▪ Azərbaycan Respublikasının mövcud qanunvericiliyin tələblərinə riayət edilməsi;

▪ İnformasiyalaşdırma sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət və milli maraqların qorunması;

▪ İstifadəçilərə təqdim olunan məlumatların tamlığının, həqiqiliyinin, aktuallığının, təhlükəsizliyinin, mühafizəsinin sadə və operativ şəkildə əldə edilməsi imkanlarının təmin olunması;

▪ Dövlət qurumları arasında səlahiyyət və məsuliyyət bölgüsü.

***“Elektron Hökumət”in əhəmiyyəti:*[16]**

Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsi;

▪ Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

▪ İstifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi;

▪ Elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi;

▪ İstifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması;

▪ İstifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü.

Beləliklə, “Elektron Hökümət” dövlət və vətəndaşlar arsında yaradılan müasir əlaqə formasıdır. Hansı ki, müasir İKT imkanlarından istifadə edərək virtual məkanda vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsinə, xidmət xərclərinin azaldılmasına və baş verə biləcək korrupsiya hallarının qarşısının alınmasına xidmət edir.

***“ASAN xidmət” mərkəzləri:*** Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin vətəndaşlara xidmət göstərilməsi məqsədilə 13 iyul 2012-ci il tarixində imzalanmış fərmanına əsasən ölkəmizdə tərkibində “ASAN xidmət” mərkəzləri olan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı. İlk “ASAN xidmət” mərkəzi 2013-cü ildə fəaliyyətə başlamışdır. Hal-hazırda beşi Bakıda, on beşi isə Azərbaycanın digər rayonlarında olmaqla 20 mərkəz fəaliyyət göstərir.[17] Bu mərkəzlərdə dövlət xidmətləri bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərirlər. Vətəndaşlara göstərilən xidmətin daha yaxşı və keyfiyyətli olmağı məqsədilə yeni üsul və müasir innovasiyalardan istifadə olunur.

“ASANxidmət” mərkəzlərində dövlət müəssisələri, o cümlədən, özəl müəssisələr əlaqələndirilmiş şəkildə fəaliyyət göstərir və ümumilikdə 300-dən artıq xidmət növü mövcuddur.

İlk “ASAN xidmət” mərkəzinin yarandığı vaxtan etibarən daha çox vətəndaşa xidmət göstərilməsi məqsədilə“Səyyar ASAN xidmət” və “ASAN qatar” xidmətləri də fəaliyyət göstərməyə başlamışdır. Belə ki, mərkəzlərə gələ bilməyən vətəndaşların, yaxud yaşadığı ərazidə mərkəzlərin olmadığı regionlara müasir texniki avadanlıqlarla

[16] https://www.e-gov.az/az/content/read/2

[17] https://asan.gov.az/az/service-centers/asan-xidmetler

təhciz olunmuş xüsusi maşınlar, qatarlar göndərməklə yerindəcə xidmət göstərilir. Bundan başqa mərkəzlərdə funksional yardımçı ximətlər, çağrı mərkəzi, onlayn növbə, özünə xidmət, sənədlərin çatdırılması və s. kimi bir çox xidmətlər həyata keçirilir.

“ASAN xidmət” mərkəzlərinə və səyyar xidmətlərə müraciət olanların sayı hər il əvvəlki ilə nisbətən gözəçarpan dərəcədə artır. Ümumilikdə qırx milyondan çox müraciət olunub.




*Mənbə: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. http://vxsida.gov.az/statistics/*

**Qrafik 7. “ASAN xidmət” mərkəzlərinə olunan müraciətlərin sayı. Ümumi statistika (2013-2020)**

Qrafikə nəzər yetirdiyimiz zaman görürük ki, statistik göstəricilərə əsasən “ASAN xidmət” mərkəzlərinə aylıq müraciət sayı 2019-cu ilin iyul ayında pik səviyyəyə çatdığı halda 2020-ci ildə, xüsusilə həmin ilin aprel ayında ciddi azalma müşahidə edilir. Bu azalma il ərzində dünyada, həmçinin ölkəmizdə hökm sürən Koronovirus (Covid-19) pandemiyası ilə əlaqədardır. Pandemiyanın yayılmasının qarşısının alınması məqsədilə ölkədə ard-arda tətbiq edilən sərt və yüngül qarantin rejimi ilə bağlı olaraq müəssisə və təşkilatların da öz fəaliyyətlərini dayandırmaq və yaxud növbəli iş rejimi ilə fəaliyyət göstərmək məcburiyyətində qalması müraciət sayında da ciddi azalmaya səbəb olmuşdur.

## NƏTİCƏ

Azərbaycan innovasiya strukturunda bir öncəki illərlə müqayisədə fərqliliklər açıq aydın görünür. Özəl və dövlət müəssisələrində müasir texnologiyaların tətbiq olunması, elektron sistemlərin yaradılması və s. kimi amillər həm inkişafın sürətlənməsinə həm də insanların daha rahat və sürətlə işləməsinə şərait yaradır. Bundan başqa, əhali arasında internet istifadə edənlərin sayı da hər il artmaqdadır.

Ancaq ölkəmiz İKT-ə dair strateji yol xəritəsində nəzərdə tutuluan arzuolunan nəticələrə nail olmaq məqsədilə bu sahədə infrastruktunu kifayət qədər istismar etmir və internetdən istifadədən yetərli dərəcədə faydalanmır. Nəticə olaraq, İKT hələ iqtisadiyyatın planlaşdırılan transformasiyası üçün tələb olunan, gözlənilən geniş spektrlı təsirə malik deyil. Bir sıra əsas sahələrdə təkmilləşdirmələr İKT-nin daha səmərəli tətbiqi və istifadəsi ilə nəticələnəcək.

Texnoloji savadlılığı artırmaq və rəqəmsal iqtisadiyyatın inkişafına nail olmaq məqsədilə ali və orta təhsil müəssisələrində komputer program təminatının öyrənilməsinə xüsusi diqqət ayrılmalıdır. Sənayedə, istehsalatda və başqa sahələrdə vacib olan programların və program təminatlarının (məsələn, Oracle, Microsft, Cisco, AutoCad və s.) yüksək ixtisaslı müəllimlər tərəfindən tədris olunması rəqəmsal bilik, bacarıq və təcrübənin yaradılmasında olduqca effektli olacaqdır. Bundan başqa, bəzi qlobal şirkətlərlə tərəftaşlıq edilərək dərs demə bacarığı olan mütəxəssislər tərəfindən də tədris təşkil oluna bilər.

Bir digər yol isə əməkdaşlıq etməkdir. Əməkdaşlıq tələbələrdə tədqiqat bacarıqlarının inkişaf etdirilməsi, yeni texnologiyaların daha yaxşı dərk edilməsi prosesini sürətləndirəcək. Bu sistem Təhsil Nazirliyi ilə digər dövlət və özəl qurumlar arasında ən çox tələbat olan bacarıqların müəyyən edilməsinə və universitetlərdə təhsil proqramlarını buna uyğunlaşdırmaq üçün yaradıla bilər.

Rəqəmsal texnologiyaların kənd təsərrüfatı sahəsində tətbiqi məhsuldarlığın artırılmasında, əhalinin rifahının yaxşılaşdırılmasında və ümumiyyətlə bu sahənin inkişafına nail olunmasında olduqca vacibdir.

Elektron kommersiya hal-hazırda dünyada sürətlə inkişaf edən sahələrdən biridir. Təəssüflər olsun ki, bu sahə Azərbaycanda zəif inkişaf etmişdir və bunun üçün əlverişli iqtisadi mühit yoxdur. Elektron kommersiyanı inkişaf etdirmək, bu sahədə fikir mübadiləsi aparmaq, təcrübə qazanmaq məqsədilə İEÖ, Beynəlxalq təşkilatlar ilə tərəfdaşlıq etmək olduqca əhəmiyyətlidir.

Müasir dövrün tələblərinə uyğun olaraq, rəqəmsal texnologiyadan istifadə dairəsinin genişləndirilməsi və yeniliklərə qarşı açıq olması özlüyündə kənd təsərrüfatının inkişafına təkan verəcəkdir. Elektron kənd təsərrüfatının rəqəmsal texnologiyadan geniş istifadəsi, iş həcminin və istehsal dairəsinin genişlənməsinə səbəb olacaqdır. Xüsusilə də, kənd təsərrüfatı biznesinin bazar infrastrukturunun inkişafına dəstək olacaqdır.

"ASAN xidmət" mərkəzlərinin yaradılması nəticəsində bir çox dövlət sahəsinə məxsus olan fəaliyyət sahələrində irəliləyişlər əldə edilmişdir. "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyətləri nəticəsində əldə etdiyi nailiyyətləri dünya miqyasında bölüşmək olar. Həmçinin dünyanın bir çox ölkələrində, xüsusilə də Avropa və Asiya ölkələrində xidmətlərin fəaliyyətinin müqayisə olunması və tərəfdaşlıq proqramlarının təqdim edilməsi faydalı olacaqdır.

## ƏDƏBİYYAT

1. ADB - Asian Devolopment Bank. (tarixsiz). *Promoting Information and Communication Technology in ADB Operations.*

2. Aslı Demirgüç, L. K. (2017). *Measuring Financial Inclusion and the Fintech Revolution.* Washington: International Bank for Reconstruction and Development/The World Bank.

3. Azərbaycan Respublikası. (2016). *Azərbaycan iqtisadiyyatının strateji yol xəritələri.* Bakı: Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

4. Development Research Group, Finance and Private Sector Development Unit - World Bank. (2017). *Azerbaijan - Global Financial Inclusion (Global Findex).* Washington.

5. Erorta, Ö. (2011). Mobil İletişim Uygulamaları. Yeni İletişim Teknolojileri (ss. 124-141). 124-141.

6. Ertekin, Ö. Ö. (2000). *Mobil & WAP İletişim Teknolojileri, Hayat Yayınları.* Istanbul.

7. Hüseynov, S. (2019). Təhsildə texnologiyanın rolu. *Elmi İş (humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal) , №4(5), ISSN 2663 – 4619,,* 130-133.

8. International Bank for Reconstruction and Development / The World Bank. (2019). *Enterprise Surveys, Azerbaijan 2019 country profile.* Washington.

9. ITU - International Telecommunication Union. (2017). *Measuring the Information Society Report - Volume 1.* Geneva Switzerland.

10. ITU - International Telecommunication Union. (2017). *Measuring the Information Society Report Volume 1.* Geneva Switzerland.

11. Organization, W. -W. (2019). *World Trade Statistical Review.* Geneva, Switzerland.

12. UNCTAD - United Nations Conference on Trade And Development . (2019). *UNCTAD Technical Notes on ICT for Development №14 .*

13. United Nations, Department of Economic and Social Affairs. (2008). *International Standart Industrial Classification of All Economic Activities (ISIC), Rev.4.* New-York.

14. World Bank, Research Group. (2018). *Finance and Private Sector Development Unit.*

## *АНАЛИЗ ЦИФРОВОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ*

*Сафар ГУСЕЙНОВ*

**_Резюме_**

*Быстрое развитие информационных и коммуникационных технологий (ИКТ) в наше время требует их применения в стране. Роль ИКТ в развитии общества, создании новых возможностей велика. Переход на новый, более устойчивый этап в ИКТ - одна из важнейших целей для мира, а также для нашей страны.*

*В данной статье анализируется цифровое развитие Азербайджана на основе статистических результатов в различных секторах экономики за последние годы, рассматриваются его плюсы и минусы, а также факторы, препятствующие экономическому развитию. Кроме того, были изучены и проанализированы такие вопросы, как переход от индустриального общества к информационному, развитие электронных услуг.*

***Ключевые слова:*** *ИКТ, электронные услуги, цифровое развитие, экономическое развитие.*

# *ANALYSIS OF DIGITAL DEVELOPMENT OF THE AZERBAIJAN REPUBLIC*

*Safar HUSEYNOV*

**Abstract**

*The rapid development of information and communication technologies (ICT) in modern times makes it necessary to apply it in the country. The role of ICT in the development of society and the creation of new opportunities is great. The transition to a new and more sustainable stage in ICT is one of the most important goals for the world, as well as for our country.*

*This article analyzes the digital development of Azerbaijan on the basis of statistical results in various sectors of the economy in recent years, examines its pros and cons, as well as the factors that hinder economic development. In addition, issues such as the transition from an industrial society to an information society, the development of e-services were studied and analyzed.*

***Key words:*** *ICT, e-services, digital development, economic development*

*UOT 339*

# *AZƏRBAYCANIN QEYRİ-NEFT İXRACATI POTENSİALI, ÜTT-NA ÜZVLÜK KONTEKSTİNDƏ TƏSİRLƏRİN TƏHLİLİ*

*Ramil ABAKAROV,*
*Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, magistr,*
*bm-ramil.abakarov@unec.edu.az*

***Xülasə***

*Müasir dünyada milli iqtisadiyyatın uğurlu inkişafı üçün onun dünya ticarət sisteminə daxil edilməsi vacibdir. Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya proseslərində fəal iştirak edən gənc bir dövlətdir. Xarici iqtisadi fəaliyyətin təşkili və ixrac potensialından istifadə prosesləri nə qədər təsirli olarsa, milli iqtisadiyyat bir o qədər uğurla inkişaf edəcəkdir. Ölkənin beynəlxalq əmək bölgüsündə ixtisaslaşması da vacibdir. İnkişaf etmiş ölkələr, bir qayda olaraq, yüksək texnoloji məhsul və xidmətlər istehsalında, zəif inkişaf etmiş ölkələr isə xammal və yarımfabrikatlar tədarükündə ixtisaslaşırlar. İxracatın həcmi və strukturu ölkənin xarici iqtisadi əlaqələrinin formalaşmasında mühüm rol oynayır. Azərbaycanda ixracın strukturunu yaxşılaşdırmaq üçün hər cür şərait var və bu mövqedən tədqiqat mövzusu aktualdır.*

***Açar sözlər**: milli iqtisadiyyat, qeyri-neft sektoru, ÜTT, xarici ticarət, ixrac potensialı*

## Giriş

Qloballaşma, beynəlxalq əmək bölgüsü və kooperasiya dərinləşməsi kontekstində bir çox ölkələr iqtisadiyyatın yüksək səviyyədə açıqlığı ilə dünya iqtisadiyyatı sisteminə daxil edilmişdir ki, bu da digər ölkələrlə əlaqələrin genişlənməsini və onlardan asılılığı təmin edir.

Xarici iqtisadi inkişaf perspektivləri ölkənin dünya bazarında rəqabət üstünlüyünü müəyyənləşdirən ixrac potensialı nəzərə alınmaqla nəzərdən keçirilir. Hər bir ölkənin ixrac potensialı bütövlükdə xarici iqtisadi əlaqələrdə müstəqil struktur vahidi rolunu oynaya biləcək bölgələrinin ixrac potensialından ibarətdir. Onlar yalnız milli iqtisadiyyatın resurslarla təmin edilməsini deyil, həm də sistemin mövcud mənbələr əsasında inkişaf etmə qabiliyyətini müəyyənləşdirirlər. Bölgələrin ixrac potensialı iki mərhələdə müəyyənləşdirilməli olan alimlərin təklifləri rasionaldır [5, s.64].

Birinci mərhələdə gələcəkdə işdə istifadə ediləcək bölgələrə görə göstəricilərin seçilməsi və təhlili mövcuddur. Bütün göstəricilərin iki istiqamətdə cəmlənməsi təklif olunur: “istehsal potensialı” və “investisiya və innovasiya potensialı”. Birinci istiqamətin göstəricilərinə sənaye inkişaf indeksi, kənd təsərrüfatının inkişaf indeksi, əmək ehtiyatlarının inkişafı, bölgənin xarici ticarət balansı, bölgənin milli ixracatdakı payı daxildir.

İkinci istiqamətin göstəricilərinə əsas kapitala qoyulmuş investisiyaların həcmi, birbaşa xarici investisiyaların həcmi, bölgələr kontekstində elmi və texniki işlərin həcmi daxildir. İkinci mərhələdə ixrac potensialının ayrılmaz göstəriciləri bölgələrə görə qiymətləndirilir.

Gələcəkdə bu metoddan istifadə edilərək aparılan hesablamalar ölkənin bölgələrini ixrac potensialının səviyyəsinə görə sıralamağa imkan verəcək ki, bu da öz

növbəsində zəruri iqtisadi tədbirlərin hazırlanmasına və yüksək effektivlik səviyyəsində tətbiq olunmasına imkan yaradacaqdır.

Nəticə olaraq, müasir iqtisadi şəraitdə bölgənin ixrac potensialının nəzərə alınmasına ehtiyac var, bu da ölkənin milli maraqlarının təmin olunması problemi ilə əlaqədardır.Həqiqətən də, milli iqtisadiyyat sisteminin əsas elementləri bölgələr daxilində formalaşır və bölgələr əsas sosial-iqtisadi çətinliklərin toplandığı mərkəzlərdir.

Buna görə də, bölgənin milli iqtisadiyyatın əsas ərazi vahidi və elementi olaraq ölkənin xarici iqtisadi potensialının aparıcı komponenti kimi ixrac potensialının formalaşması və inkişafı xüsusiyyətlərinin təfərrüatlı öyrənilməsini zəruri etdiyini iddia etmək olar.Qloballaşma prosesi bir dünyanın formalaşması ilə nəticələndi [6, s.84].

Qloballaşma prosesləri dünya iqtisadiyyatının vahid bir sistem kimi formalaşması ilə nəticələndi. Bu proses sayəsində milli iqtisadiyyatlar inteqrasiya proseslərinə qarışdılar və qlobal mühitdəki dəyişikliklərə sürətli cavab vermək məcburiyyətində qaldılar. Son illərin hadisələrinin göstərdiyi kimi, hər hansı bir ölkədə baş verən iqtisadi böhranlar çox sürətlə digər ölkələrə və bölgələrə yayılaraq qlobal bir böhrana çevrildi. Bunun səbəbi informasiya texnologiyaları, xarici ticarət əlaqələrinin genişlənməsi, birjaların inkişaf səviyyəsi və s.

Bütün bu proseslər Azərbaycan Respublikasına da təsir göstərir. Bir çox beynəlxalq qurumun üzvü kimi Azərbaycan beynəlxalq maliyyə strukturları ilə daha da genişlənən əməkdaşlığı genişləndirir, müxtəlif regional birliklərə daxil olur ki, bu da ölkənin hərtərəfli iqtisadi və sosial inkişaf məqsədi ilə dünya iqtisadiyyatına inteqrasiyasını təmin edir. Qeyd etmək lazımdır ki, ölkənin geosiyasi mövqeyi buna üstünlük verir.

Azərbaycan Respublikası, ölkənin Avropa məkanına daha da inteqrasiya olunmasını, eyni zamanda milli maraqlara uyğun olaraq ÜTT-yə qoşulma imkanlarını nəzərdən keçirir. Aİ ölkələri ilə əməkdaşlığın daha da dərinləşdirilməsi, ölkənin Avropa standartlarına riayət etməsini və ona uyğun gəlməsini tələb edir. Beynəlxalq ticarət qlobal maliyyə və iqtisadi böhranların təsir etdiyi sahələrdən biridir. Azərbaycanın ixrac etdiyi məhsullara beynəlxalq bazarlarda tələbin azalması ölkənin ixrac potensialına ciddi təsir göstərir. Beləliklə, qlobal iqtisadi böhranlar şəraitində ixrac potensialının tənzimlənməsi çox mürəkkəbləşir. Qlobal böhranın milli iqtisadiyyata təsirini azaldacaq bir ixrac strategiyası seçmək lazımdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və şaxələndirilməsi dünya iqtisadi böhranlarından asılılığı əhəmiyyətli dərəcədə azalda bilər [4, s.58].

Azərbaycan neft ixracatçısı olmaqla gəlirinin əsas hissəsini karbohidrogenlərdən əldə edir. Dünyada baş verən böhranlar enerjiyə olan tələbi azaldır və nəticədə qiymətlər düşür. Azərbaycan üçün neft qiymətlərindəki enmə büdcə gəlirlərinin azalması, milli valyutanın düşməsi, investisiya imkanlarının azalması və s.

**Metod**

Milli İqtisadi Görünüş üçün Strateji Yol Xəritəsi müvafiq bir təşviq sisteminin yaradılmasının iqtisadiyyata (xüsusilə xaricdə) investisiya cəlb etməyə kömək edə biləcəyini vurğulayır. Bununla yanaşı, “bu alətlər hazırda Azərbaycanda iqtisadi inkişafı təmin etmək üçün istifadə olunur. Önümüzdəki illərdə təşviqlər daim nəzərdən keçiriləcək və yenilənəcəkdir. ”

Buna görə təhlil ediləcək əsas suallar bunlardır:

- son iki ildə (2016-2017) qəbul edilmiş qərarlar və tədbirlər ölkədə investisiya mühitinin yaxşılaşdırılması və qeyri-neft sektoruna kifayət qədər yerli (özəl) və xarici birbaşa investisiyaların cəlb edilməsi üçün yetərlidirmi?
- ölkənin qeyri-neft sektoruna həm daxili, həm də xarici birbaşa investisiyanı stimullaşdırmaq üçün dövlət siyasətində daha nələr dəyişməlidir?

Azərbaycan Respublikası Prezidentinin tərəfi ilə respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlar üçün əlverişli iş şəraiti və qazancın maneəsiz istifadəsi üçün mühüm qanunlar qəbul edildi. Azərbaycan hökuməti ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması üçün bir sıra müqavilələr imzaladı.

Xarici investisiyaların cəlb edilməsi və xarici ticarətin genişləndirilməsi Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas prioritetlərindən biridir və ölkənin iqtisadi potensialının gücləndirilməsində vacib amillərdir.

Xarici investisiyaların coğrafiyası da genişdir. Beləliklə, Azərbaycana investisiya yatıran xarici ölkələrin ilk onluğunda Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Fransa, Çex Respublikası, Almaniya, Səudiyyə Ərəbistanı və Rusiya kimi ölkələr qərar verdi. Türkiyə, ABŞ, İngiltərə, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa və Rusiya, ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələr arasındadır. Azərbaycan dünyanın 149 ölkəsi ilə ticarət əlaqələri qurur. Ölkəmizin İtaliya, İndoneziya, Rusiya, Almaniya, Türkiyə, Böyük Britaniya, Tayland, Fransa, ABŞ və İsrail ilə daha sıx ticarət əlaqələri mövcuddur. Bu ölkələrin ümumi ticarətdəki payı% 67,8 idi. İxracat əməliyyatlarının həcmi 23,98 milyard dollara çatdı.

Danılmaz bir artı son zamanlar qeyri-neft sektorunun payının kəskin artmasıdır. Bu illərdə qeyri-neft sektorunda sabit iqtisadi artım müşahidə olunur. Lakin 2008-ci ildəki qlobal neft böhranı, sektorun ÜDM-dəki payının azalmasına səbəb oldu.

Mövcud məlumatlara görə, yalnız 2019-cu ildə ölkənin bölgələri üzrə, Şəkil 4-də göstərilən nisbətdə investisiya layihələri həyata keçirilmişdir.

Yalnız iqtisadiyyatı stimullaşdırmaq üçün proqramların icrası nəticəsində resurslardan istifadə və ÜDM göstəricilərində artımda ən təsirli nəticələr əldə edilə bilər. Uzunmüddətli investisiya siyasətinin planlaşdırılması prosesində əsas məqsəd iqtisadi makrostrukturun uzunmüddətli rəqabət qabiliyyətini təmin etmək üçün çevrilməsidir.

Kənd təsərrüfatı sektoru qeyri-neft sektoru üçün prioritet sahə hesab olunur. Bu sahə dərhal və nəticədə ölkənin istehlakının əsas tərkib hissəsi olan qida tədarükünü təmin edir. Keçmişdə, məhsul istehsalını genişləndirmək məqsədi ilə vəziyyət artmışdır. Lakin daxili bazarda xarici bazarlarla aşağı rəqabət və aşağı məhsuldarlıq istehlak xərclərini stimullaşdırmağa imkan vermir.




*Mənbə: http://anfes.gov.az. (25.12.2019)*

**Şəkil 2. Əvvəlki ilə nisbətən ÜDM dinamikası, %**

Xüsusilə bu sahədəki aşağı investisiya axını bu sahədəki yüksək istehsal riski ilə əlaqələndirilir. 2009-cu ildə bitkiçilik, ovçuluq və bitkilərin becərilməsi 2,320,6 milyon manat qiymətləndirilmiş və 2008-ci ilə nisbətən 3,5 faiz artmışdır. Bu dövrdə özəl sektora yönəldilmiş kapital qoyuluşlarının 3,5% -i və ya 254,0 milyon manatı ovçuluq

və ovçuluq və ət-tərəvəz sektorunun payına düşmüşdür. Bu il kənd yerlərində 25 kənd tibb müəssisəsi tikilib istifadəyə verilmiş, inşaat sektorunda isə 2,562,2 milyon manat gəlir əldə edilmişdir. Əyalətdə kapital qoyuluşlarının 0,4 faizi və ya 31,3 milyon manatı inşaat sektorunun payına düşüb ki, bu da həmin ilin eyni göstəricisindən 3,0 dəfə çoxdur. Hökümət inkişaf proqramı çərçivəsində dövlətə maliyyə dəstəyi göstərməsinə baxmayaraq, sahənin dəyəri azalmayıb və rəqabət qabiliyyəti istənilən səviyyəyə yüksəlməyib və bu səbəbdən ölkədə tədqiqat və istehsalın payı az olaraq qalır. Hal hazırda əsas problemlərdən biri bu sahədə effektiv kənd təsərrüfatı xidməti sisteminin olmamasıdır.

Ümumiyyətlə, bəzi MDB ölkələrində bu anda kifayət qədər heterojen bir vəziyyət var. Əksər ölkələrdə bərpa əlamətləri yalnız 1998-ci ildən bəri ortaya çıxmışdır. 2007-2008-ci ilə qədər bu ölkələrdə iqtisadi inkişaf səviyyəsinin sabitləşməsinə baxmayaraq, 2009-cu ildə göstəricilərə 2008-ci il qlobal maliyyə böhranı əhəmiyyətli dərəcədə təsir göstərdi və bu da əsas kapitala investisiya göstəricilərinə təsir etdi. Aşağıda bəzi MDB ölkələrinin böhrandan sonrakı 10 ildə dinamikasının müqayisəli təhlili verilmişdir.




*Mənbə: https://www.stat.gov.az/ (20.12.2020)*

**Şəkil 3. Əsas kapitala qoyulan investisiyaların dinamikası, əvvəlki ilə nisbətən, %**

Şəkil 3-də göründüyü kimi. Azərbaycan ən qısa müddətdə böhrandan sonrakı dövrdə yüksək səviyyədə investisiya əldə etdi.

Dünya təcrübəsinə gəldikdə, ölkəyə investisiya axınının ən təsirli və geniş yayılmış formasının azad iqtisadi zonalar olduğunu görürük. Öz növbəsində, keçid iqtisadiyyatında azad iqtisadi zonaların yaradılması ölkəmizə bir çox üstünlüklər verə bilər. Azərbaycan iqtisadçıları da xüsusi iqtisadi zonaların yaradılması ilə bağlı müəyyən fikirlər söyləyirlər.

Bu fikirlərin əsas istiqaməti ölkə iqtisadiyyatının davamlı inkişafı, ilk növbədə

qeyri-neft sektoruna diqqət, qloballaşan dünyada Azərbaycanın rəqabətə davamlı bir ölkə kimi tanınmasıdır. Birbaşa respublikamızın iştirakı ilə həyata keçirilən qlobal neft və qaz və rabitə layihələri Azərbaycan iqtisadiyyatının tədricən inkişafı üçün möhkəm zəmin yaratdı, lakin onların reallaşdırılması ÜDM dinamikasının nəticələrinə əsasən geridə qaldı.




*Mənbə: www.anfes.gov.az (2020)*

**Şəkil 4. 2019-cu ildə dövlət tərəfindən investisiya layihələrinin regional qruplaşdırılması**

İnvestisiyaların təşviqi sahəsində bir "investisiya təşviqi sənədi" nin tətbiqi xüsusilə diqqət çəkir.

İnvestisiyaların Təşviqi Sertifikatını alan hüquqi şəxslər və fərdi sahibkarlar sənəd alındığı tarixdən etibarən 7 il ərzində bütün növ vergi və idxal rüsumlarında endirimlər əldə edirlər. Qeyri-neft ixracatını təşviq etmək üçün ixracı qeyri-neft məhsullarının ixracı ilə məşğul olanlara dövlət büdcəsi vasitəsi ilə təşviq etmək həm də ixrac yönümlü məhsullara investisiya qoyuluşunu təşviq edən bir addımdır. İxrac olunan malların siyahısında göstərilən malların növündən asılı olaraq, sahibkarlara ixrac olunan qeyri-neft məhsullarının gömrük dəyərinin yüzdə 3-dən 6-dək hissəsi büdcədən ödəniləcəkdir.




*Mənbə: www.anfes.gov.az (2020)*

**Şəkil 5. Qeyri-neft sektoruna yönəldilmiş investisiya layihələrinin sayı**

Dövlət investisiyalarına dövlət büdcəsinin investisiya fondları ilə yanaşı büdcədənkənar fondların (məsələn, Azərbaycan Respublikası Dövlət Neft Fondu (SOFAZ) və s.) Və dövlətə məxsus müəssisə və təşkilatların kapital qoyuluşları daxildir. Bununla birlikdə, əsas kapitala qoyulan dövlət investisiyalarının böyük hissəsi dövlət büdcəsinə və ARDNF-ə məxsus idi




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/ (2020)*

**Şəkil 6. Əsas kapitala yönəldilmiş daxili investisiyaların strukturu, milyon manat**

**Nəticə**

Sənaye təkcə istehsalın deyil, həm də bütövlükdə iqtisadiyyatın aparıcı sahələrindən biridir. Beləliklə, belə bir sənayenin inkişafı ÜDM, dövlət büdcəsinin formalaşması, işsizlik səviyyəsi və nəticədə əhalinin həyat səviyyəsi kimi əhəmiyyətli iqtisadi göstəricilərə təsir göstərəcəkdir. Dövlətin əsas vəzifəsi sabit inkişaf səviyyəsini, xüsusən də Azərbaycanda inkişaf üçün kifayət qədər potensiala sahib olan qeyri-neft sektorunu qorumaqdır.

Məqalədə Azərbaycanın sənaye sektorundakı investisiya fəaliyyətinin mövcud vəziyyətinin hərtərəfli öyrənilməsi əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsi investisiya fondlarının payı ilə müəyyən edilir. İnvestisiya həcminin yüksək olduğu bir çox ölkədə iqtisadi inkişaf səviyyəsi də yüksəkdir, yəni aralarında birbaşa əlaqə mövcuddur. Sənayedə investisiya cəlb edilməsi, ilk növbədə iqtisadi dövriyyəyə əlavə mənbələrin cəlb edilməsi üçün şərait yaradır. Nəticədə məşğulluq faktorları müəyyən dərəcədə artır və bu da milli gəlirin artmasına səbəb olur. Bundan əlavə, investisiyaların cəlb edilməsi əməliyyat və idarəetmə işçilərinin ixtisaslaşmasına, istehsalın texnoloji səviyyəsinə və milli sənayenin məhsullarının keyfiyyətinin yüksəldilməsinə şərait yaradır ki, bu da rəqabət qabiliyyətini artırmağa və dünya bazarına çıxmasına kömək edə bilər.

2. İqtisadi aktyorlar texniki və iqtisadi inkişafları üçün ən vacib və strateji hədəflərini inkişaf etdirərkən bu hədəflərin xarici mühit tərəfindən necə qəbul

ediləcəyinə üstünlük verməlidirlər. İnvestisiya mühiti mikro və makro mühitdən ibarətdir.

Mikroiqtisadiyyat birbaşa müəssisə və müştərilərinin, treyderlərin, marketoloqların, agentlərin, müştərilərin, rəqiblərin və müxtəlif rabitə qruplarının xidmətləri ilə əlaqəli qüvvələrlə təmsil olunur. Makro mühit demoqrafik, iqtisadi, siyasi, hüquqi, texnoloji, coğrafi, təşkilati, sosial-mədəni amillərin birləşməsidir. Müəssisələrin istehsal güclərindən tam istifadə olunmadığı bir ölkədə investisiya fəaliyyəti zəifdir, çünki investisiyalar əlavə istehsal güclərinin yaradılmasına gətirib çıxaracaqdır. İnvestisiya fəaliyyətinə təsir edən amillərdən biri də sahibkarların ölkə iqtisadiyyatı ilə bağlı gözləntiləri ilə əlaqədardır. Ölkənin iqtisadi vəziyyətinin nəticələri və iqtisadi inkişaf tempi investisiya qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərir. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi dövlət investisiyalarının idarə edilməsini, eyni zamanda investisiya fəaliyyətinin tənzimlənməsini və bütün investisiya fəaliyyətinin subyektləri tərəfindən bu şərtlərə əməl olunmasına nəzarəti əhatə edir. Bundan əlavə, dövlət orqanları, şirkətlər üçün maliyyətləri, riskləri və rəqabət qabiliyyətini təsir edən imkanlar və təşviqlər yaradır. Buna görə dövlət, ölkədə investisiya fəaliyyətinin yaxşılaşdırılması üçün bir mexanizm hazırlamalıdır.

3. Sənaye parklarının yaradılması, ölkə iqtisadiyyatının ixrac potensialının artırılması, eyni zamanda rəqabətə davamlı, idxal əvəzedici məhsulların istehsalı, qonşu ərazilərdə məşğulluğun təmin edilməsi, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi ölkənin qeyri-neft sektorunun davamlı inkişafı baxımından xüsusilə vacibdir.

Sənaye parklarının inkişafından asılı olaraq ərazi təşkilatının müxtəlif strategiyalarından və hər bölgənin xarakterik iqtisadi inkişaf səviyyəsindən asılı olaraq addım-addım inkişaf strategiyaları hazırlamaq lazımdır.

Beləliklə, ölkəmizdəki daxili bazar kiçik olduğundan ixrac yönümlü sənayeləri dəstəkləmək lazımdır. Bu məqsədlə sənaye parklarının işini qorumaq vacibdir. Proqramlar ixrac maliyyələşdirməsini, xarici marketinq dəstəyini (xarici sərgilər, ixracat brifinqləri və rezident müəssisələrin və məhsulların təşviqi), ixrac məsləhətlərini, xarici bazarlar və digər təşviq və təşviqlər barədə məlumatları əhatə etməlidir.

## ƏDƏBİYYAT

1. Daşdəmirov M.Ə., İbrahimova M.O. (2010) “Azərbaycan iqtisadiyyatına investisiya cəlb olunması şərtləri”, Bakı, “Bakı universiteti”, 365 səh.
2. Erdal A.N., Kərimov V.X. (2002), “İnvestisiya layihələrinin hazırlanması və qiymətləndirilməsi” Bakı:”Bakı Universiteti” nəşriyyatı, 151 səh.
3. Əliyev A.Y., Mirzəyev B.S. (2000) “İnvestisiya qoyuluşunun əsaslandırılmasında iqtisadi təhlil”, Bakı, “Çənlibel”, 400 səh.
4. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasinin Qanunu, Bakı, 13 yanvar 1995-ci il № 952.
5. Məmmədov Ə., Seyfullayev İ. (2013) Vergi və investisiya, Bakı, Caşıoğlu, 376 səh.
6. Rzayev Z.H. (2007), “Vergi menecmenti”. Dərslik. Bakı, 324 səh.
7. Salahov S.V. (2004), “Aqrar sahənin dövlət tənzimlənməsi problemləri” Bakı, “Nurlar”, 504 səh.

8. Səmədzadə Z.A. (2004) “Böyük yolun mərhələləri: yarım əsr ərzində Azərbaycan iqtisadiyyatı, onun gerçəklikləri və perspektivləri”, Bakı: “NURLAR”, 936 səh.

9. Аббасов А.Г. (2004) Финансовая система и долговой рынок Азербайджана. Баку, «Элм», 348 с.

10. Бабина И.В. (2012), «Совершенствование механизма управления инвестиционной деятельностью предприятия в условиях рыночных отношений». Гомель, 125 с.

11. Государственная Программа социально-экономического развития регионов Азербайджанской Республики (2014-2018 годы)

12. Государственная программа развития промышленности в Азербайджанской Республике в 2015-2020 годах

13. Мусаев А.Ф., Садыгов М.М., Магеррамов Р.Б., Салаев Р.А. (2005), Налоги и налогообложение в Азербайджане. Баку, 530 с

14. https://www.stat.gov.az/

15. www.anfes.gov.az

## *ТЕКУЩЕЕ СОСТОЯНИЕ ГОСУДАРСТВЕННЫХ ПРЕДЛОЖЕНИЙ ДЛЯ ЧАСТНЫХ ИНВЕСТИЦИЙ В НЕФИЛЬНЫЙ СЕКТОР ОТРАСЛИ*

*Эльнур ИБРАГИМЛИ*

### *Резюме*

*Инвестиции в некоторой степени зависят от экономического роста. Инвестиции - один из важнейших факторов развития социально-экономической системы страны. Масштабы, эффективность и структура инвестиций во многом определяют состояние экономики региона, уровень развития, перспективы и конкурентоспособность. Изменения в динамике инвестиций влияют как на объем общественного производства, так и на уровень занятости, другие структурные изменения в народнохозяйственном комплексе, стимулируют развитие секторов и отраслей экономики. Именно изменение инвестиций является основным фундаментальным параметром для реализации процесса воспроизводства, который отражает первоначальное распределение и перераспределение ресурсов между текущим состоянием потребления и формированием основы для будущего роста.*

*В результате увеличение доли иностранных инвестиций в экономике страны по-прежнему является необходимой частью стратегии экономического развития Азербайджана.*

*Актуальность данной темы обусловлена, с одной стороны, масштабами инвестиций в промышленность, а с другой - недостаточной осведомленностью о механизмах государственного регулирования инвестиционной деятельности.*

***Ключевые слова:*** *ненефтяной сектор, частные инвестиции, государственные стимулы.*

# *CURRENT SITUATION OF GOVERNMENT PROMOTIONS FOR PRIVATE INVESTMENT IN THE NON-OIL SECTOR OF INDUSTRY*

*Elnur IBRAHIMLI*

**Abstarct**

*Investment depends to some extent on economic growth. Investment is one of the most important factors for the development of the socio-economic system in the country. The scale, efficiency and structure of investments essentially determine the state of the region's economy, level of development, prospects and competitiveness. Changes in the dynamics of investment affect both the volume of social production and the level of employment, other structural changes in the national economic complex, stimulate the development of sectors and industries of the economy. It is the change in investment that is a key fundamental parameter for the implementation of the process of reproduction, which reflects the initial distribution and redistribution of resources between the current state of consumption and the formation of the basis for future growth.*

*As a result, increasing the share of foreign investment in the country's economy is still a necessary part of Azerbaijan's economic development strategy.*

*The urgency of this topic is due, on the one hand, to the scale of investments in industry and, on the other hand, to the lack of awareness of the mechanisms of state regulation of investment activities.*

***Keywords:*** *non-oil sector, private investment, public incentives*

*UOT 330.4*

# *REGİONAL XƏRC-BURAXILIŞ MODELLƏRİNİN TƏDQİQİ (AZƏRBAYCAN NÜMUNƏSİ)*

*Elnur Şahismayıl oğlu RÜSTƏMOV,*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun doktorantı,*
*UNEC, Riyaziyyat və statistika kafedrasının müəllimi*

**Xülasə**

*Təqdim olunan məqalədə sahələrarası balans və ölkələrin milli hesablar sistemi əsasında formalaşdırılan regional xərc-buraxılış modelləri nəzəri və metodoloji baxımdan təhlil edilmişdir.*

*İlk öncə regional xərc-buraxılış modelləri əsasında tədqiqatçıların müxtəlif ölkələr timsalında təhlil və qiymətləndirmələri öyrənilmiş və sistemli şəkildə verilmişdir. Daha sonra isə, mövcud ədəbiyyatlar və metodologiyalar təhlil edilərək regional xərc-buraxılış modellərinin nəzəri və metodoloji xüsusiyyətləri, formalaşdırılması və tətbiqi imkanları şərh edilmişdir.*

*Eyni zamanda, regional xərc-buraxılış modellərinin işlənməsi istiqamətində Azərbaycan iqtisadiyyatında yerinə yetirilmiş işlər qeyd edilərək gələcək perspektiv və imkanlar məlumatların formalaşdırılması baxımından təhlil edilmişdir.*

*Nəticədə regional xərc-buraxılış modellərinin nəzəri və metodoloji aspektləri ümumiləşdirilmiş, ölkə təcrübələri sistemləşdirilmiş və Azərbaycan iqtisadiyyatı nöqteyi-nəzərindən regional xərc-buraxılış moellərinin qurulması və tətbiqi imkanları müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *xərc-buraxılış modeli, sahələrarası balans cədvəli, regional iqtisadiyyat, regional xərc-buraxılış modeli*

## Giriş

Müasir dövrdə sürətlə dəyişən iqtisadi proseslərin təsirlərini müəyyən etmək və iqtisadi siyasət qərarları qəbul etmək məqsədilə ölkə daxilində regionlar arasında sahəvi təsirlərin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, sənayenin və innovasiyaların sürətli inkişafı istehsal prosesində xammal bazasının yaradılması və klaster yanaşmasını tələb edir. Bu baxımdan da, ölkənin bölündüyü iqtisadi rayonlar üzrə təsir analizlərinin aparılması və bu təsirlərin həm sahəvi, həm də ümumilikdə makroiqtisadi səviyyədə qiymətləndirilməsi aktual bir istiqamət hesab olunur.

Qeyd olunan təsirlərin yerinə yetirilməsi üçün sahələrarası balans modeli və onun əsasında formalaşdırılmış multiplikator modelləri daim əsas alət hesab edilməkdədir. Belə modellərin də tətbiqi əsasən sistemli və detallı məlumatlar bazasının olmasını tələb edir. Getdikcə inkişaf edən statistika sistemləri artıq bu tipli modellərin qurulması üçün məlumat çatışmazlığı problemlərini həll etməkdədir.

Bütün bunları nəzərə alaraq məqalədə regional xərc-buraxılış modelləri və onların tətbiqi istiqamətində dünya təcrübəsində yerinə yetirilmiş işlər öyrənilərək sistemləşdirilmiş, nəzəri-metodoloji çərçivə təhlil edilmiş və Azərbaycan iqtisadiyyatında bu istiqamətdə yerinə yetirilmiş işlər və əldə olunan nəticələr təqdim edilmişdir.

## Ədəbiyyat xülasəsi

Sila U. və Juvancic L. tədqiqatlarında regional iqtisadiyyatın sektorları arasında kəmiyyət əlaqələrini göstərməklə Şərqi Sloveniya regionunun iqtisadi göstəricilərini

əks etdirən şərqi regional sahələrarası balans modeli vasitəsilə təhlillər aparmışlar. Modeldən əldə edilən giriş və çıxış verilənləri regionda əsas iqtisadi sektorları müəyyən etməyə imkan verir. Həmçinin, Şərqi Sloveniyanın iqtisadi inkişafına təsir edən müxtəlif siyasətlərin təsirlərini qiymətləndirmək üçün empirik bir alətin inkişaf etdirilməsi üçün başlanğıc nöqtəsi təmin edir .

Aydoğuş O., Değer Ç., Çalışkan E. T., Gürel G. tədqiqatlarında Türkiyənin İzmir bölgəsi üçün regional sahələrarası balans modelindən istifadə edərək qiymətləndirmələr aparmışlar. Regional balansa 36 iqtisadi sahəni daxil etmiş və 2008-ci il üzrə İzmir İnkişaf Agentliyinin (İzmir Kalkınma Ajansı) rəsmi məlumatlarından istifadə etmişlər. Eyni zamanda, Türkiyənin makro göstəricilərindən də istifadə edilmişdir. Nəticədə əldə edilən regional sahələrarası balans Türkiyənin İzmir bölgəsi üçün iqtisadi sahələrin qarşılıqlı təsirlərini də nəzərə almaqla təhlil və qiymətləndirmələr aparmağa imkan vermişdir.

Fritz O., Kurzmann R., Zakarias G., Streicher G. yerinə yetirdikləri tədqiqat işində obyekt olaraq Avstriya iqtisadiyyatını seçmişlər. Öncəliklə regional sahələrarası balans modellərinin tərtib olunmasında məlumatların əldə edilmə probleminin olması haqqında fikirlərini bölüşmüşlər. Tədqiqatda Avstriya iki regional ayrılmaqla anket sorğularından da istifadə edilməklə əldə edilən məlumatlar əsasında sahələrarası balans tərtib edilmişdir. Tədqiqat ili olaraq 1995-ci il seçilmişdir. Anket sorğuları əsasən regional ixrac barədə məlumatlar əldə edilmişdir. O cümlədən, tədqiqatda ölkə üzrə tərtib olunan ümumi sahələrarası balans modeli ilə regional sahələrarası balans modelinin qarşılıqlı müqayisədə təhlili verilmişdir.

Tədqiqatçılar regional xərc-buraxılış modellərinin fərziyyələrini və çatışmazlıqlarını da göz önündə saxlamalıdırlar. Bu məqsədlə, Bess R., Ambargis Z.O. apardıqları tədqiqat işində bu tipli fərziyyələrə və regional səpkidə xərc-buraxılış modelinin düzgün tərtib olunması və istifadəsində ehtiyac duyulan nəzəri və metodoloji hissələri təhlil etmişlər. Əsas olaraq da, İqtisadi Təhlil Bürosu (Bureau of Economic Analysis) tərəfindən inkişaf etdirilən Regional Xərclər-Buraxılış Modeli Sisteminə (Regional İnput-Output Modeling System (RİMS II)) daha çox fokuslanmışlar.

Flegg A.T. və Tohmo T. məqalələrində regional xərclər-buraxılış cədvəllərinin tərtib olunmasında lokallaşma əmsallarından istifadəni təhlil edirlər. Bu tədqiqatlar 1997-ci ildə Flegg və Webber tərəfindən təklif edilən FLQ (Flegg location quotients) formulasına fokuslanılmışdır. Bu formulalar sadə lokallaşma SLQs (simple location quotients) və sənaye əsaslı lokallaşma əmsalları CILQ (cross-industry location quotients) kimi aşağıdakı qaydada hesablanır:

$$SLQ_i = \frac{RE_i/TRE}{NE_i/TNE} \equiv \frac{RE_i}{NE_i} * \frac{TNE}{TRE}$$

Burada:

$RE_i$- R-regionun i iqtisadi fəaliyyət sahəsində məşğul əhalinin sayı

$NE_i$- ölkə üzrə i iqtisadi fəaliyyət sahəsində məşğul əhalinin sayı

TRE- R-regionunda məşğul əhalinin sayı

TNE- ölkə üzrə məşğul əhalinin sayı

$$CILQ_{ij} = \frac{SLQ_i}{SLQ_j} \equiv \frac{RE_i}{RE_j} * \frac{NE_i}{NE_j}$$

Burada:

$SLQ_i$- iqtisadi fəaliyyət sahələrində məhsul istehsalı üzrə hesablanamış lokallaşma əmsalı

$SLQ_j$- iqtisadi fəaliyyət sahələrində məhsula tələb üzrə hesablanmış lokallaşma əmsalı

$RE_i$- R-regionun i iqtisadi fəaliyyət sahəsində məşğul əhalinin sayı

$RE_j$- R-regionun j iqtisadi fəaliyyət sahəsinin muzdlu işçilərə tələbi

$NE_i$- ölkə üzrə i iqtisadi fəaliyyət sahəsindədə məşğul əhalinin sayı

$NE_j$-ölkə üzrə j iqtisadi fəaliyyət sahəsinin muzdlu işçilərə tələbi

$$RLQ_{ij} = SLQ_i/\left[log_2(1 + SLQ_j)\right]$$

Burada:

$RLQ_{ij}$ – regional lokallaşma əmsalı

$SLQ_i$- iqtisadi fəaliyyət sahələrində məhsul istehsalı üzrə hesablanamış lokallaşma əmsalı

$SLQ_j$- iqtisadi fəaliyyət sahələrində məhsula tələb üzrə hesablanmış lokallaşma əmsalı

$log_2$- miqyası yarımloqarifmik göstərmək üçün seçilmişdir.

Tədqiqatda 20 bölgə üçün məlumatlardan və qeyd olunan formulalardan istifadə edilərək ekonometrik reqresiya modeli vasitəsilə parametrlər qiymətləndirilmişdir. FLQ əsaslı ilk regional xərc-buraxılış modeli RAS prosedurası tətbiq edilərək, bir hibrid modeli kimi formalaşdırılmışdır .

Hallegatte S. məqaləsində təbii çatışmazlıqların nəticələrini və rekonstruksiya çərçivəsini təhlil etmək üçün yeni bir modelləşdirmə yanaşması ortaya qoymuşdur. Xərclər-buraxılış modellərinə əsaslanaraq məqsəd (1) sektorial istehsal potensialını və iqtisadi sistemin içində olan yayılımları diqqətə alaraq, (2) uyğunlaşan davranışların tətbiq edilməsidir. Model Lousiana iqtisadiyyatına Katrina şosesinin təsirini tədqiq etmək üçün tərtib olunmuşdur. Model mövcud məlumatlara əsaslanaraq iki mühüm nəticə vermişdir. İlk olaraq, iqtisadi müddətlər birbaşa itkiləri artırmaqla və cəmi zərəri 107 milyard dollardan 149 milyard dollara qədər artdığını təxmin etmişdir. Mümkün digər fəlakətlərin təsirlərini araşdırarkən Lousiana iqtisadiyyatına təsir edən bir fəlakətdən qaynaqlanan ümumi itkiləri birbaşa zərərlərə görə birbaşa olmayan formada artırdığı və bu zərərlərin 50 milyard dolları aşdığı ortaya çıxmışdır. İkincisi, tədqiqat nəticələrinin qiymətləndirilməsi üçün əhəmiyyətli və əhəmiyyətsiz geri təsir etmə mexanizmləri önəmlidir və istehsal potensialının diqqətə alınması rekonstruksiyanın əhəmiyyətli təsirlərini təxmin etməmək üçün önəmlidir. Sistemli bir həssaslıq təhlili bütün parametrlər arasında tikinti sektorundakı aşırı istehsal potensialının və adaptasiya xarakteristik müddətinin ən önəmli olduğunu göstərir.

Cascetta E., Gangi M.D. Apardıqları tədqiqatda İtaliyada yük daşımalarının tələbi simulyasiyalarını həyata keçirmişlər. Bu məqsədlə xərclər-buraxılış modelindən və ticarət elastikliklərindən istifadə edilmişdir. Multi-regional balans regional sahələrarası balansın daha geniş formasıdır. Belə ki, bu halda bütün regionlar birlikdə formalaşdırılır. Eyni zamanda, bu tipli modellərin də çox mühüm üstün cəhətləri vardır ki, məhz müəlliflər bunun vasitəsilə tədqiqat suallarına cavab tapmışlar.

Robert B. Və Stimson R.J. qeyd etdiyi kimi regional iqtisadi inkişafı və ümuiyyətlə regional iqtisadiyyatı qiymətləndirməyin əsas olaraq nisbi ölçmələrlə payların tapılması ilə analitik təhlili, xərclər-buraxılış modelləri və SWOT təhlil kimi

üsulları vardır. Müəlliflər məqalələrində qeyd etmişlər ki, məqalələrin çoxu ənənəvi alətlərin regionları rəqabətqabiliyyətli hala gətirən amilləri başa düşmək üçün faydasız qaldığını göstərir. Həmçinin, müəlliflər regional iqtisadiyyatların rəqabət gücünü və üstünlüyünü necə əldə etməsi və s kimi məsələlərə daha çox fokuslandıqları üçün yeni metodoloji yanaşmalar ortaya qoymuşlar.

B.Trinh, F. Secretario, K.Kim, D.Manh Hung öz tədqiqat işlərində hibrid metodu əsasında regionlararası balansı yaradarkən ilkin olaraq ölkə regionları üçün sahələr arası balansın qurulması proseslərini qeyd etmişlər. İlkin olaraq balansın alınması üçün göstəricilər siteminin beynəlxalq milli hesablar sisteminə uyğunlaşmasını əsas sayırlar. Viyetnam üçün qurulmuş bu modeldə bəzi çatışmazlıq kimi isə bəzi göstəricilərin region üçün bölünməsinin pay nisbəti əsasında həyata keçirtmişlər.

Xiangzheng D., Yi. W.F., Tao. Z., Z.Li müəlliflər tərəfindən yazılmış kitabda milli və regional səviyyədə sahələrarası balans cədvəllərinin tərtibdə ilkin mərhələdən son model və nəticələrədək aparılması prosesi qeyd olunmuşdur. Tədqiqatda məlumat bazasının formalaşdırılması zamanı yaranmış problemləri statistik müayinənin təyin edilərək orada alınan nəticlər əsasında formalaşdırılması məsləhət görülür. Belə ki, müəyyən dövlət müdafiə, sosial xərclər ümum ölkə üzrə olduğundan və yaxud göstəricilərin daha dəqiq bölünməsini təmin etmək üçün müayinənin nəticələrindən istifadə edilməklə mövcud göstəricilər daha da dəqiqləşdirilir. Məlumat bazasının formalaşdırılmasında həm inzibati məlumat bazası olan statistik göstəricilərdən lazım gəldikdə isə statistic müayinə təyin etməklə həmin məlumatların tapılması qeyd edilmişdir.

Dewhurst J.H.L. öz tədqiqat işində regional sahələrarası balans modelinin region üçün yaradılmasını və onun hibrid üsulu ilə alınmasını özündə əks etdirir. Bundan başqa regional sahələrarası balansın hər il yenilənməsi üçün RAS metodunun köməkliyi ilə yenilənməsinin metodologiyası göstərilmişdir.

Kronenberg T. öz tədqiqat əsərində regional sahələrarası balans modelini qurarkən müayinə üsulundan istifadə etməmiş bəzi makro göstəriciləri yuxarıdan aşağıya metodunun köməyi ilə həmin gəstəriciləri təyin etmişdir. Kəsişmiş sahələrin bir-biri ilə əlaqəsini ölçərək bu istiqamət üzrə həyata keçirilmiş aralıq istehlakın bölgüsünə nəzər cəlb etmişdir.

Jensen R.C. yazdığı tədqiqat işində regional xərc buraxılış modellərinin qurulması və gələcək dövrlər üçün bu modelin təsir imkanlarını araşdırmışdır. Modelin qurulması üçün kompleks məlumatların toplanmasını və müvafiq göstəricilərin regionlar üzrə bölgüsünü həyata keçirtdikdən sonra yerdə qalan göstəriciləri isə modelə müayinə təşkil edərək daxil edilməsini vurğulamışdır. Bundan sonraki mərhələdə isə modelin istifadəsi zamanı qarşıya çıxan bir sıra problemləri önə çəkərək milli hesablar sistemlərinin müxtəlif ölkələrdə fərqli olduğundan bu sistemin göstəricilərinin beynəlxalq standartlara uyğun olaraq eyniləşdirilməsinin vacibliyini vurğulamışdır.

Tobias K. regional sahələrarası balans modelinin qurulması ilə bağlı bir sıra araşdırmalar həyata keçirdmiş və balansın kvadrantlarının qurulması ilə bağlı ümumi qaydaların tətbiq edilməsi ilə bağlı bəzi çatışmazlığı önə çəkərək regional ticarətin dəqiqləşdirilməsi üçün (regiona gətirmə və regiondan götürmə) müayinənin həyata keçirilməsini vacib saymışdır. Bundan başqa bu modelin daha dərindən öyrənilərək transformasiya olunmuş forması ilə regionda iqtisadi sahələrin bir-biri ilə qarşılıqlı əlaqələrinin daha dərindən tədqiq etməklə regionun daha da inkişafına nail olmaq olar.

J.Holt Yeni Zenlandiyanın regional sahələrarası balansını formalaşdıraraq onun vasitəsi ilə nəqliyyat infrastrukturunun vacibliyini ortaya çıxartmışdır. Yeni

Zenlandiyanın sahələrarası balansı 5 ildən bir hazırlanır. Bunu nəzərə alaraq həmin müddətdə regionlar üçün də bu balansın formalaşdırılmasının vacibliyi vurğulanmışdır. Regional sahələrarası balansın ölkə üçün olan sahələrarası balansdan bir sıra fərqlərinin olduğunu nəzərə çatdıran müəllif bunun üçün müşahidə və müayinələrin həyata keçirilməsini vacib saymışdır və lazım gəldikdə isə yuxarıdan aşağıya medodunun köməyi ilə regional sahələrarası balansın formalaşdırmasını vurğulamışdır.Tədqiqat işində qeyd edilmişdir ki, Milli sahələrarası balans istehsal və son istehlaka aiddirsə, regional sahələrarası balans istehsal, istehlak və ticarətlə bağlıdır. Yeni Zenlandiya Statistika Bürosu 1995-ci ildən başlayaraq 5 ildən bir ölkə regionları üçün sahələrarası balans modeli qurulmuşdur.

A.L.M.Sargento Regional giriş-çıxış cədvəlləri və modelləri barədə tədqiqatında regional sahələrarası balansın yığılması üçün bir neçə metodları araşdırmışdır. Esas tədqiqat məqsədi regional səviyyədə balansın qurulmasında regional göstəricilərin yığılması vasitəsi ilə balansın qurulması və bəzi göstəricilərin regionlar üçün bölünməsi vasitəsi ilə qurulmasını araşdırılmışdır. Alınmış regional sahələrarası balans modelinin hər üçün yenilənməsi üçün RAS metodunun tətbiqi vasitəsi ilə yenilənməsi yollarını göstərmişdir. Sonrakı tədqiqat üsullarında isə regionlararası modelin qurulması və multiregional modellərin qurulması usullarını araşdırmışdır. Bundan başqa tədqiqat işində ticarət əmsalından istifadə üsulları tədqiq edərək bəzi sahələrə bu əmsalın tətbiqini vacib saymışdır. Lakin bundan istifadə üçün sahələrin bir biri ilə ticarət əlaqələrini ilkin olaraq təyin etməyin çətinliyi olduğundan bu sahədə müayinənin həyata keçirilməsi vacibliyi qeyd edilmişdir. Bundan başqa tədqiqat işində Brazilya nümunəsində regional sahələrarası balans cədvəllərinin qurulmasını göstərmişdir.

**Regional xərc-buraxılış cədvəllərinin tərtibinin nəzəri-metodoloji əsasları**

Sahələrarası balans cədvəlləri əsasında regional sahələrarası balans modelin tərtib olunmasını ilk dəfə 1951-ci ildə professor V.Leontief təklif etmişdir. Leontiefin təklif etdiyi model xərclər-buraxılış modeli adlanır. Regional sahələrarası balans modellərinin qurulmasında ölkə və regional səpgidə bəzi fərqli xüsusiyyətlər nəzər alınmaqla standart xərc-buraxılış metodologiyası tətbiq edilir. Hazırda müxtəlif ölkələrdə bu istiqamətdə kifayət qədər empirik tədqiqatlar mövcuddur.

Regional sahələrarası balans modelinin nəzəri əsasları və praktiki tətbiqi ilə bağlı aparılmış tədqiqatlardan məlum olur ki, ilk dəfə bu üsuldan Mur və Petercon istifadə etmişlər. Onlar ABŞ-ın Yuta ştatı üçün regional sahələrarası balans modelini qiymətləndirmişlər.

Ümumiyyətlə, regional sahələrarası balans cədvəllərinin hazırlanmasına 1950-ci illərdən başlanmışdır. Belə balans modelləri aşağıdakı kimi fərqləndirilir.

1. Modeldə nəzərə alınan regionların sayına görə (regiondaxili effektləri nəzərə alan bir regionun və ya bir neçə regionun modeli (multiregional);
2. Regional əlaqələrin nəzərə alınmasına (və ya nəzər alınmamasına) görə;
3. Regionlararası ticarət əlaqələrinin təfərrüfatlılığına görə;
4. Ticarət əsallarının qiymətləndirilməsində irəli sürülən hipotezlərə görə;

İstənilən halda regional sahələrarası balans modellərini (modelin növüdən asılı olaraq) qurmaq üçün regionlararası ticarət haqqında müxtəlif təfərrüatlı məumatlar tələb olunur. ən mühüm məlumatlar regionun digər regionlarla ticarət əlaqələridir. Belə ticarət əlaqələri başqa regionlardan çox regionun özünə təsir edir.

Regional modelin qurulması zamanı əsas diqqət əlyetər məlumatlara yetirilir. Çünki modelin strukturu məhz bu məlumatlrın mövcudluğundan asılıdır. Regional sahələrarası balans modelləri regionda son tələblə ümumi regional buraxılış arasında təsirləri qiymətləndirməyə imkan verir. Belə modellər regional sahələrarası balans cədvəlləri əsasında hazırlanır. Balans cədvəlləri isə regionun ümumi buraxılışının istifadəsi cədvəli (total use table) və ya regiondaxili ticarət axınları cədvəli (intra-regional flow table) əsasında tərtib edilə bilər. Balans cədvəllərinin növündən asılı olaraq regional sahələrarası balan modelləri fərqləndirilə bilir.

Regional sahələrarası balans modellərinin bir təsnifatı da onların statik və dinamik əlaməti baxımından fərqləndirilməsidir. Statik modellər arasında Leontyevin məkan modeli, Ayzard modeli və onun modifikasiyaları, regionun sahələrarası balansının hazır proqram kompleksləri ( məsələn, IMPLAN, RIMS və s.) xüsusilə fərqləndirilir.

Hələ 1953-cü ildə V.Leontyev məkan modeli hazırlamışdı ki, bu modeli regionlararası modelə aid etmək olar. Model balans və ya ölkə daxili regional model adlanırdı. Bu modeldə əmtəələr iki növə görə fərqləndirilirdi: regionaal əmtəələr və milli əmtəələr. regional əmtəələr yalnız regionda istehssal olunaraq öz istehlakçısına çatdırılırdı. Milli əmtəələr isə öz istehlakçısına çatmaq üçün daha çox məsafə qət edir. regional əmtəələr az nəql olunan milli əmtəələr isə çox nəl olunan əmtəələr hesab olunurdu. Modelin əsas məqsədi regional və milli əmtəələrə son tələbdəki ekzogen dəyişikliklərin təsirlərini müəyyən etməkdən ibarətdir.

Digər məşhur regionlararası model – Ayzard (W.Isard) modelidir. Ayzard göstərmişdir ki, adi milli modellər regionların qarşılıqlı əlaqə effektini nəzər ala bilmir. Onun modelinin ilkin versiyaları xeyli məlumat tələb etdiyindən praktikada istifadəsi çox çətin idi. Odur ki, bu model sonralar digər iqtisadçılar tərəfindən modifikasiya edilərək inkişaf etdirildi. Belə modellərdən biri olan Çeneri- Mozes (Chenery–Moses) modeli belə bir fərziyyəyə əsaslanır ki, regionlararası ticarət əlaqələri region mənşəyinə və təyinat regionuna ayrılır. Bu zaman əlaqənin konkret olaraq hansı regiona aid olduğuna əhəmiyyət verilmir. Çeneri- Mozes modeli bu yolla ABŞ-ın bütün ştatları üçün sahələrarası balans modelinin qurulması üzrə Ayzardın yanaşmasını sadələşdirdi. Amma zəruri məlumat problemi yenədə qalamaqda davam etdi. Çünki regiondaxili və regionlararası məlumatlar müqayisəyə gələn olmalı idi. Bu şərt isə praktikada heç də həmişə təmin oluna bilmirdi. Amerika iqtisadiyyatı üçün regional sahələrarası balans cədvəlləri və bu əsasda regional modellərin qurulması 1970-ci illərdə mümkün olmuşdur. ABŞ-da ilkin olaraq belə modellərin qurulması üçün məlumatların toplanmsı üsulu tətbiq olunurdusa, sonralar bu cədvəllərin və modellərin qurulması üçün həmin cədvəlləri generasiya edən üsullara keçildi. Bu zaman kəsə (short-cut) üsullardan, yəni texnoloji əmsallardan istifadə olunur.

Sadələşdirilmiş qısa yol metodlarından istifadə edilməsi ölkə üzrə texnoloji əmsallar lokallaşma əmsallarına vurulurdu ki, bu da qeyri dəqiq nəticələr verirdi. Nəticədə iqtisadçılar tədricən hibrid modellərə keçməyə başaldılar. Hibrid modellər generasiya olunmuş sahələrarası cədvəllərin əlavə toplanmış məlumatlarla təshih edilməsinə əsaslanırdı.

Regional modelləri yaxşılaşdırmaq üçün müxtəlif mənbələrdən toplanmış əlavə məlumatlardan istifadə edərək ekzogen dəyişənlərdə daxil edilir. Bu həddən çox vaxt və maliyyə vəsaiti tələb edir.

Ədəbiyyatlarda alternativ yanaşma kimi verilməsinə baxmayaraq, regional modellər adətən ekonometrik və sahələrarası yanaşmanı birləşdirir. Məsələn, son

tələbin proqnozlaşdırılmasında ekonometrik tənliklərdən region üzrə ümumi buraxılışın proqnozunda isə sahələrarası balans modelindən istifaə edilə bilər. Belə modellərdən biri kiçik Riçard Konvey (Richard Conway Jr.) tərəfindən Vaşinqton ştatı üçün hazırlanmışdır. O həmçinin 1977-ci ildə qurulmuş dinamik regional sahələrarası WPSM (Washington Projection and Simulation Model – Vaşinqton modeli vəsimulyasiya modeli) - modelinin müxtəlif modifikasiyaları üzrəndə çalışmışdır. Model bir neçə dəfə modifikasiya olunmuş və Vaşinqton ştatının iqtisadiyyatının təhlilində aktiv istifadə olunmuşdur. Vaşinqton üçün həm də statik sahələrarası balans modeli qurulmuşdur. Ölkə üzrə sahələrarası balans cədvəllərinin regionlaşdırılması üsullarının təhlili çərçivəsində Vaşinqton üçün həmdə məlumat toplamamağa əsaslanan digər bir variantda da model qurulmuşdur. Oxşar model o qədər də təfərrüatlı olmayan formada Qərbi Virciniya üçün də qurulmuşdur.

Sahələrarası ekonometrik modellər arasında İllinyos universitetində Cefri Huvinqsin (Geoffrey Hewings) rəhbərlik etdiyi REAL qrupu tərəfindən hazırlanmış modellər də diqqət çəkəndir. Bu modellər WPSM modellərinə əsalanır. REAL qrupu tərəfindən 1989-cu ildə ilkə dəfə Çikaqo üçün ekonometrik sahələrarası balans modeli qurulmuşdur. Model CREIM (Chicago Region Econometric Input-Output Model) adını almışdır. Modeldə tələb və təklifdə baş verən dəyişikliklərə müvafiq olaraaq sahələrarası balans əmsalları təshih edilir və illik dövriliklə sahələrarası əlaqələri proqnozlaşdırmaq olur. Bununla da bir çox sahələrarası balans modellərinə xas olan əmsalların sabitliyi kimi çatışmazlıq aradan qaldırılmış olur.

Bəzən regionun inkişaf proqnozu ilə məşğul olan təhlilçilər müvafiq modellərə və vəya onları qurmaq üçün tələb olunan mlumatlara əlyetər olmurlar. Bu halda hazır proqram paketlərindən istifadə olunur. Hazır modellər ölkə iqtisadiyyatını xarakterizə parametrlərin regionlara uyğunlaşdırılmasına əsaslanır. Belə modellər universal modellərdir və hər bir regiona tətbiq edilə bilir. Lakin praktika göstərir ki, belə modellərin. ABŞ-da regionlararası sahələrarası balans modelləri ilə müxtəlif qruplar məşğul olur. Onlar planlamanın təsir təhlillərini aparan IMPLAN (Impact Analysis for PLANning), regional dinamikanı təhlil edən REDYN (Regional Dynamics), ştatların milli iqtisadi modeli olan NIEMO (National Interstate Economic Model) kimi modellər hazırlamışlar. Lakin bu modellərin məlumat bazaları açıq deyildir və modeldəki multiplikatorlar regional multiplikatorlardan heç də fərqlənmir. Onların üstünlüyü barədə model müəlliflərindən başqa heç kim bir fikir söyləməmişdir.

Yuxarıda qeyd edilən regionla sahələrarası balans modellərinin mövcud hazır proqram komplekslərindən olan IMPLAN, RIMS II və başqaları V. Leontyevin standart yanaşmalarına əsaslanır. IMPLAN və RIMS II statik sahələrarası balans modellərinin müxtəlif modifikasiyaları kimi çıxış edir. IMPLAN modeli MİG (Minnesota IMPLAN Group) qrupu tərəfindən hazırlanmışdır. IMPLAN özündə proqram təminatını və iqtisadi amillər, multipliktorlar və demoqrafik statistika üzrə məlumat bazasını birləşdirir. Model sahələrarası balancs cədvəlini də özündə birləşdirən sosial heablar matrisinə (SAM, social accounting matrix) əsaslanır. IMPLAN lokal səviyyədə (region səviyyəsində) iqtisadiyyatı təhlil etməyə və hətta regionda yeni subyektlərin məsələn müəssisələrin, idman komandalarının, turizm və rekreasiyaların obektlərinin meydana gəlməsindən yaranan təsirləri izləməyə imkan verir.

Regional sahələrarası sistem olan RIMS II (Regional Input-Output System II) İtisadi təhlil bürosu (The Bureau of Economic Analysis (BEA)). tərəfindən hazırlanmışdır. Model ilk dəfə 1970-ci illərdə müxtəlif iqtisadi aktiv regionlarda

regional iqtisadiyyata potensial təsirlərin təhlili üçün təklif edilmişdir (məsələn, zavod və stationların və sairənin tikintisi). Hal hazırda model geniş istifadə edilməkdədir. Onun köməyi ilə regionun itisadi aktivliyindəki dəyişiklikləri qiymətləndirməyə imkan verən regional multiplikatorları əldə etmək mümkündür. Model regiona turizm potensialının axınlarının, müxtəlif infrastruktura, sənaye və mədəniyyət obyektlərinin tikintisinin regional iqtisadiyyata təsirini müəyyən etməyə imkan verir. Ona görə də RIMS II modeli müxtəlif səviyyəli dövlət orqanları tərəfindən, habelə kommersiya təşkilatları tərəfindən aktiv istifadə edilməkdədir. Regionun iqtisadi aktivliyində baş baş verən dəyişikliklərin effekti həm bütövlükdə, həm də sahələr üzrə ayrılqda olmaqla ümumi buraxılışda, satışda, regionun ümumi məhsulunda, əlavə dəyərdə, əmək haqqında və məşğulluqda baş verən dəyişikliklər vasitəsilə ifadə olunur.

NIEMO – modeli 47 sahəni özündə birləşdirən amerika ştatlarının, Kolumbiya mahalının və “qalan region kimi qalan dünya”nın sahələrarası modelidir. Onun milli səviyyədə regionlararası ticarət axınlarının əlavə oluduğu TransNIEMO, o cümlədən təklif baxımından qurulmuş FlexNIEMO kimi müxtəlif modifikasiyaları Leontyev yanaşmasindan fərqlənir. Bu modellər istehsal əmsallarının təsbit olunması kimi fərziyyəni zəiflətməyə imkan verir. Ümumilikdə NIEMO modeli özündə ölkə səviyyəsindəki sahələrarası axınları və əmtəə axınları CFS (Commodity Flow Survey) barədə məlumatları birləşdirir. Modelin üstünlüyü ondan ibarətdir ki, o təkrar məlumatlardan istifadə etməklə region səviyyəsində tədqiqatlar aparmağa imkan verir.

Dinamik regional sahələrarası balans modellərinə REDYN, REMI kimi proqram kompleksləri aiddir. REDYN modeli dinamik multi regional sahələrarası iqtisadi və demoqrafik model olub ABŞ iqtisadiyyatı üçün qurulmuşdur. Bu model həm müəssisə, həm regional, həm də ölkə səviyyəsində iqtisadi, maliyyə və büdcə effektlərini təhlil etməyə imkan verir. Model social hesablar matrisinə əsaslanır. onun məllifləri hesab edir ki, bu ABŞ iqtisadiyyatının ən təfərrüatlı modelidir.

1980-ci ildə əsası qoyulmuş Regional Economic Models Inc. şirkəti bir neçə yanaşmanı özündə birləşdirən dinamik REMI modelini yaratdı. Bu model sahələrarası balans, ümumi tarazlıq (general equilibrium) (tələb və təklifi tarazlaşdıran), iqtisadi və iqtisadi coğrafi (nəqliyyat xərcləri, aqlomerasiya və sairəni nəzərə alan) metodların bir platformada nəzərə alınması demək idi. Bu modeldə qeyd edilən dörd metodun güclü üstünlüklərindən istifadə etməyə və zəif tərəfləri isə müəyyən səviyyədə azaltmağa cəhd edilmişdi. Ilkin olaraq model dövlət siyasi qərarlarının qəbulundan yaranan iqtisadi effektləri testləşdirmək üçün yaradılmışdı. REMI və RIMS II modellərinin istifadəçiləri sırasında federal və yerli hökumət orqanları, universitetlər, məsləhət agentlikləri var idi. Model iqtisadi inkişaf, ətraf mühit problemləri, energetika, nəqliyyat və vergi sahəsində tədqiqatlarda, regionun iqtisadi inkişafının planlaşdırılmasında və proqnozlaşdırılmasında geniş istifadə edilmişdir.

İqtisadi ədəbiyyatlarda ABŞ iqtisadiyyatı üçün belə modellərin xeyli çox olduğu və strukturuna görə onların biri-birindən çox fərqləndiyi, habelə onların müqayisəsisinin çətinliyi də qeyd edilir.

Sahələrarası tədqiqatlarla həm də INFORUM (Interindustry Fore casting at the University of Maryland – Merilend universitetində sahələrarası proqnozlaşdırma) qrupu da məşğul olur. K.Almonun rəhbərliyi ilə milli və beynəlxalq səviyyədə makroiqtisadi və sahələrarası INFORUM modeli hazırlanmışdır. INFORUM modelləri sahələrarası ekonometrik modellərdir. Bu tip modellər müxtəlif modifikasiyalarda bir çox ölkələrdə istifadə olunmaqdadır. Qrup Amerika ştatlarının və Çin əyalətlərinin regional modelləri ilə də məşğul olmuşdur. ABŞ-n regional modeli STEMS (State

Employment Modeling System) ştatlar üzrə məşğulluq modeli sistemi adlanır. Bu model ştatlarda sahələr üzrə təfərrüatlı məlumatlarla məşğulluq səviyyəsini qiymətləndirməyə imkan verir.model dinamik makroiqtisadi proqnoz modeli olan LIFT (Long-term Interindustry Forecasting Tool) ilə bağlıdır. LIFT – illik modeldir, lakin o addımlarla ilbə il proqnozlar verməyə imkan verir. O ABŞ iqtisadiyyatının 110 sahəsini əhatə edir. Model Merilend ştatı üçün məşğulluq sferasında meyllərin təhlilində istifadə edilmişdir.

Regional sahələrarası cədvəl və modellərin qurulması ilə Türkiyə, Polşa, İaliya, Çin, İsrail və digər ölkələrdə məşğul olmuşdur. Onların əksəriyyətində Yapaoniya istisna olmaqla statistika sahələrarası balansı ölkə səviyyəsində təqdim edir. Burada isə 27 prefektura üzrə regional hesablar tam standartlaşmış dəstlə işlənir və hər beş ildən bir dərc edilir. Məsələn Türkiyədə regional sahələraası balans cədvəllərinin və modellərin hazırlanması cəhdləri olsa da onlar həm rəqəm səhvləri, həm də konseptual səhvlərlə qurulmuşdu. Türkiyənin sahələrarası balansının təhlili üzrə işlər heç də aktiv aparılmamışdır. Amma tükr iqtisadçıları məlumat toplama üsulu ilə regional sahələrarası modeli qurmaq cəhdlərindən heç də əl çəkmirlər.

Böyük Britaniyada hələ 1968-ci ildə İngiltərə üçün birinci dəfə Piterboro (Peterborough) şəhəri üçün sahələraras balans modeli qurulmuşdur. Model Leontyevin standart statik modeli əsasında qurulmuşdur. Sonralar York universitetində Böyük Britaniya üçün multiregional UK-MRİO modeli qurulmuşdur. Lokallaşma əmsalı nəzər alınmaqla regional sahələrarası balans cədvəlləri də qurulmuşdur ki, bu əsasda İngiltərənin cənub-şərqində və şimal-şərqində və su problemlərini nəzərə alan model işlənmişdir. Digər kompleks ingilis modeli olan dinamik sahələrarası balans modeli - MDM-E3 (Multisectoral Dynamic Model of the UK economy, energy-environment-economy) də vardır ki, bu model iqtisadi energetika və ətraf mühit sahələrini təhlil etməyə imkan verir. modelin əsas xüsusiyyəti sahəvi, regional və makroiqtisadi təhlilləri hər bir region və ya sahə üzrə aparmağa imkan verir.

Hələ 2000-ci illərədək Çinin muxtar vilayətləri və əyalətləri üçün məlumat toplama üsulu ilə regional sahələrarası balans cədvəlləri qurulmuşdu. Çin iqtisadçıları tərəfindən regionlararası sahələrarası cədvəllərin hazırlanması metoları da öyrənilmişdir. Bu cədvəllərin məlumatları müxtəlif iqtisadi və ekoloji problemlərin öyrənilməsində istifadə edilmişdir. Məsələn, regional sahələrarası balans cədvəlləri Lyaonin əyalətində enerji təchizatında "su izləri" (water footprint) öyrənilmişdir. Bundan başqa İNFORUM qrupu ilə əməkdaşlıq çərçivəsində Çin dinamik sahələrarası modellər sistemi (CHIOMS, Chinese Input-Output ModelingSystem) qurulmuşdur. Sistem Çinin 31 əyalətindən 29-nu özündə birləşdirir. Sistem bütün Çin iqtisadiyyatının dinamik makroiqtisadi modeli Mudanın idarəçiliyi altında işləyir. Bundan başqa hər əyalət üçün ayrıca makroiqtisadi modeli də qurulmuşdur.

Regionların sahələrarası balans modellərinin tədqiqi məslələləri ilə Niderland iqtisadçıları da geniş məşğul olmuşlar. Jan Oosterhaven və başqaları bu cür cədvəl və modellərin hazırlanmasında öz ənnələrini yaratmışlar. Onların regional sahələrarası balanas modelləri ingilis və amerikan cədvəl və modellərindən fərqlənir. Belə ki, onlar məlumatları toplayarkən idxal barədə məlumatlardan deyil ixrac barədə məlumatlardan daha çox istifadə edirlər. Məhz bu fakt müəssisələrin istifadə etdikləri məhsulların mənşəyi barədə bilmədikləri məlumat problemini aradan götürməyə kömək edir. çünki, onlar ixrac etdikləri məhsul barədə daha çox məlumatlı olurlar. Niderland iqtisadçıları həm də mövcud üsulları aktiv öyrənir və onları modifikaiya etmək üçün yeni metodlar təklif edirlər. Onlar nəinki, Niderland həm də digər olkələr üçün də məsələn,

İndoneziya üçün də belə modellər qurmuş, bəzi yeni yanaşmalarını ispan dilli ölkələrdə tətbiq etmişlər. Qroningen universiteinin nümayəndələri regionlararası sahaələrarası proqram təminatı - IRIOS (Inter Regional Input-Output Software) hazırlamışlar. Model tələb nöqteyi nəzərindən iqtisadiyyatı təhlil etməyə imkan verən standart statik Leontyev modelinə əsaslanır.

Müasir dövrdə isə rus iqtisadçları regional sahələrarası balans modellərinin qurulması ilə sıx məşğul olurlar. İ.V.Çerdantseva və Q.A.Barışeva qeyd edilər ki, regionların bütün işlək proqnoz-təhlil modelləri sahələrarası metoda əsaslanır [10]. Rusiya üçün ən məşhur regional modellər Primorye ölkəsi, Saxa və Başqırdstan respublikaları, İvanova vilayəti və Moskva şəhərinin regional sahələrarası balans modelləridir [10]. Bu tədqiqatlar Rusiya Elmlər Akademiyasının (PAH) Xalq Təsərrüfatının Proqnozlaşdırılması İnstitutunda İNFORUM qrupu ilə əmkdaşlıqla RİM modeli əsasında işlənib hazırlanmışdır. Xalq Təsərrüfatının Proqnozlaşdırılması İnstitutunun əməkdaşları Q.R.Serebryakov, M.N.Uzyakov və A.A.Yantovskiy Primorye ölkəsi, Saxa və Moskva şəhərinin regional sahələrarası balans modellərinin hazırlanmasında ölkənin 1999-cu ildəki dəyişməz texnoloji əmsallarından istifadə etmişlər. Bu model Rusiyanın dinamik sahələrarası balans modeli (RİM) ilə əlaqələndirilmişdir. Modelin müəllifləri regional moellərin qurulması üçün statistik məlumatların çatışmazlığından şikayətlənirlər [6]. A.A.Yantovskiy qeyd edir ki, regional qitisadiyyata təsir edən amillərin əksəriyyəti region hüdudlarından kənarda yerləşir. Ona görədə regionun ölkə iqtisadiyyatı ilə əlaqələrinə xüsusi diqqət yetirilməlidir. Bundan ötəri müəllif Rusiya və onun regional modellərinin qarşılıqlı əlaqədar olan üç səviyyəli sisteminin qurulmasını təklif edir. yuxarı səviyyədə dinamik sahələrarası balans modeli olan RİM istifadə edilir. Ikinci səviyyədə RİM modelinin dəyişənlərinin proqnoz məlumatlarından giriş (ekzogen) göstəriciləri kimi istifadə etməklə Uzaq Şərqin iriləşdirilmiş sahələrarası modeli qurulur.üçüncü səviyyədə isə daha yüksək səviyyədəki modellərdə istifadə olunmuş ekzogen göstəricilərdən istifadə etməklə federasiyanın Uzaq Şərq subyektlərinin ekonometrik modelləri qurulur. Uzaq Şərq üçün qurulmuş model İvanova vilayəti üçün qurulmuş modeldən fərqlənmir [11].

K.Voloşenko və A.Kuzhetsova statistik məlumatların toplanası ilə əlaqədar böyük çətinliklərə diqqət yetirirlər. onlar haqlı olaraq qeyd edirlərlər ki, bu çətinliklər balans metodunun tətbiqi zamanı sətir və sütünlar üzrə böyük kənarlaşmalara gətirib çıxarır. Belə fərqlərin yaranmaması üçün dövlət idarəetmə tələblərinin ödənilməsi məqsədilə onlar Kalininqrad vilayəti üçün regional sahələrarası balans modeli hazırlamışlar [1]. Fikrimizcə bu iqtisadi məkan anlayışına müvafiq olaraq regional hesabların düzgün tərtib edilməsi və istifadəsi təcrbəsinin qazanılması baxımından ən yaxşı yanaşmadır. Çünki Kalininqrad vilayətinin Rusiya ilə sərhəddi olmadığından bütün regional əlaqələr dolayı yolla da olsa üçota alına bilinir. Belə bir təcrübə gələcəkdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası üzrə tətbiq edilsə daha yaxşı olar.

2011-ci ildə Buryatiyada iri və orta müəssisələr üçün 50 iqtisadi fəaliyyət növü üzrə hazırlanmış “xərc-buraxılış” cədvəlini xüsusi qeyd etmək lazımdır [3]. Digər tədqiqatlardan fərqli olaraq bu region üzrə məlumat bazası iqtisadi fəaliyyət növlərinin Ümumrusiya təsnifatına (ОКВЭД) və iqtisadi fəaliyyət növləri üzrə məhsulların Ümumrusiya təsnifatına (ОКПД) görə bir neçə mərhələdə formalaşdırılmışdır.

- əmtəə və xidmətlərinin resurs cədvəlinin qiymətləndirilməsi;
- əmtəə və xidmətlərinin istifadə cədvəlinin formalaşdırılması;
- cədvəlin balanslaşdırılması
- nəqliyyat və ticarət-vasitəçilik əlavələrinin qiymətləndirilməsi;

- simmetrik xərc-buraxılış cədvəlinin tərtib edilməsi.

N.V.Suvorov, A.V.Suvorov və V.N.Borisov (Xalq Təsərrüfatının proqnozlaşdırılmaı institutu) regional iqtisadi artımın proqnoz-təhlil sistemini qurmuşlar. Bu sistem sahələrarası balansdan istifadə etməklə regionlarda sahələlərarası əlaqə amili nəzərə alınmaqla iqtisadi artımı nəzərdən keçirir [7]. Modelin əsas çatışmazlığı ixrac və idxal barədə məlumatların ehtimallı əsasda formalaşdırılmasıdır.

Rusiyada əsas regional qrup modellərindən biri də Rusiya Elmlər Akademiyasının Sibir bölməsinin İqtisadiyyat və Sənayenin Təşkili İnstitutunun (ИЭОПП СО РАН) mütəxəsisləri tərəfindən hazırlanmış modellərdir. Bu modellərə optimallaşdırılmış regional sahələrarası balans modelləri (OMMM) СИРЕНА (Синтез региональных и народнохозяйственных решений) и СИРЕНА-2. aiddir. Model kompleksi özündə baza ilində ölkə iqtisadiyyatını əks etdirən statik sahələrarası balans modelini, "nöqtəvi" (dinamik sahələrarası balans modelini) və "məkan" optimallaşdırılmış regional sahələrarası balans modellərini birləşdirir [5]. Rusiyada regional sahələrarası balans modellərinin tədqiqi A.Q.Qranberqin adı ilə bağlıdır. Bu sahədə anlayış və modellərin iqtisadi riyazi metodologiyası üzrə nəzəri və praktik məktəbi o yaratmışdır. Burada xüsusilə optimallaşdırılmış regionlararası sahələrarası balans modellərini xüsusilə qeyd etmək lazımdır.

Məkan baxımından sahələrarası balans modelləri yarımdinamik qoyuluşla realizasiya olunur. Model həll edilərkən birbaşa rekursiyadan istifadə olunur [4]. СИРЕНА-2 model-metodik sistemi ИЭОПП СО РАН tərəfindən 1980-ci illərdə hazırlanmış СИРЕНА sisteminin bir qoludur. Onun nüvəsini optimallaşdırılmış regional sahələrarası balans modelləri, regionların qarşılıqlı iqtisadi təsiri modeli (МЭВР) və regional makromodellər təşkil edir [9]. A.Q.Qranberq, V.İ.Suslov və S.A.Suslov hesab edirlər ki, məkan yanaşması Rusiya iqtisadiyyatının tədqiqində iqtisadi, sosial və təbii xüsusiyyətləri nəzərə aldığına görə daha məhsuldardır. [2,c.121]. СИРЕНА-2 model-metodik sistemi bir neçə moduldan ibarət olmaqla iqtisadiyyatı bir neçə səviyyədə Rusiya, federal mahallar, makro regionlar və federasiya subyektləri səviyyəsində təhlil və proqnozlaşdırmaq üçün nəzərdə tutulub [2]. V.İ.Suslov qeyd edir ki, optimallaşdırılmış regional sahələrarası balans modelləri ölkənin regionlarının qarşılıqlı əlaqədə inkişafını planlaşdırmaq və proqnozlaşdırmaq, həm onun makroregionlarını, həm də vilayətlərinin mümkün vəziyyətlərini təhlil etmək üçün müxtəlif ssenarilərin qurulmasında istifadə oluna bilər [8, c. 98].

Dünyada regional sahələrarası balansın tərtibi və bununla bağlı yaranmış problemlərin həlli ilə əlaqədər bir sıra konkret yanaşmalarda vardır. yanaşmalar, ya regional sahələrarası balansın tərtibi problemlərinə, yaxud da konkret bir ölkə və region üçün balans modelinin qurulmasına həsr edilmişdir. Yerinə yetirilmiş işlərin bir hissəsinin icmalı regional balans modellərinin qurulma metodologiyalarını geniş xülasə etməyə imkan verir.

**Azərbaycanda regional xərc-buraxılış modellərinin qurulması istiqamətində görülmüş işlərin təhlili**

Yerli müəlliflərin işləri araşdırıldığı zaman regional sahələrarası balans modelindən istifadə edilməsi çox az rast gəlinir. Bunun da bir neçə məxsusi səbəbləri vardır. Əsas mühüm amillərdən biri regional sahələrarası balans modelinin qurulmasında lazım olan məlumat bazasının əldə edilməsi problemlərinin ortaya çıxmasıdır. Bildiyimiz kimi makroiqtisadi səviyyədə, yəni ümumilikdə ölkə iqtisadiyyatı üzrə sahələrarası balans modeli qurularkən məlumatların əldə edilməsi müəyyən qədər

əlçatandır. Eyni zamanda, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK) hazırda 5 ildən bir olmaqla məhsul və xidmətlərin ehtiyat istifadə cədvəlləri əsasında sahələrarası balans cədvəlini tərtib edir ki, bunun da əsasında sahələrarası balans modelini tərtib etmək praktiki olaraq mümkündür. Lakin region səviyyəsində regiona gətirilən və regiondan aparılan məhsulların sahələrarası balans cədvəlinə uyğun bir statistikası mövcud deyil. Bu baxımdan, region üzrə belə bir qiymətləndirmələrin aparılmasında tədqiqatçı üzərinə daha çox yük düşür ki, artıq o özü müəyyən sorğular və statistik məlumatlar əsasında bu tipli məlumatları emal etməlidir.

Azərbaycanda regional sahələrarası balans modellərinin qurulması imkanları və perspektivlərinə həsr olunmuş tədqiqatlar, habelə yuxarıdan aşağı üsulla 10 iqtisadi rayon üzrə regional sahələrarası balans modelinin qurulması praktikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun tədqiqatlarında geniş yer almışdır. İnstitutun əməkdaşlarından biri məqaləsində regional sahələrarası balansların xərc-buraxılış cədvəllərinin tərtib edilməsi və onların təhlili üzrə Birləşmiş Millətlər Təşkilatının Tövsiyyələri çərçivəsində tərtib edilməsi imkanını araşdırıb və belə nəticəyə gəlmişdir ki, hazırki dövrdə Azərbaycanda regional sahələrarası balansları tərtib etmək mümkündür.

Regional sahələrarası balansların tərtib edilməsi elmi-nəzəri əsaslarla yanaşı ən mühüm olaraq məlumatların toplanması və əldə edilməsi imknalarını özündə əks etdirir. Bu istiqamətdə isə əsas dövlət qurumu ARDSK hesab olunur. ARDSK ümumi ölkə üzrə məhsul və xidmətlərin ehtiyat istifadə cədvəlləri əsasında sahələrarası balansını hazırki dövrdə beş ildən bir (2001, 2006, 2011, 2016) tərtib edərək nəşr etdirməkdədir. Lakin regional səviyyədə balansların tərtib edilməsi olduqca kompleks iş olmaqla həmçinin, hüquqi-normativ sənədlərin olmasını da tələb edir. Eyni zamanda, bu istiqamətdə işlərin həyata keçirilməsi əlavə ciddi maliyyə və kadr potensialı tələb edir. Beləliklə, qənaətə gəlirik ki, hazıırki dövrdə ARDSK regional balansların hazırlanması istiqamətində işlər həyata keçirməməkdədir. Lakin bu istiqamətdə aparılan tədqiqat işləri və sürətlə inkişaf etməkdə olan informasiya texnologiyaları yaxın gələcəkdə bu istiqamətdə işlərin yerinə yetirilməsinə imkan verəcəkdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda sahələrarası balans modelləri və onun multiplikator modelləri geniş şəkildə işlənilmişdir. Balans modelləri ilə bağlı treninqlər, seminarlar keçirilmiş, yüksək səviyyəli jurnallarda məqalələr dərc etdirilmiş və tədqiqat işləri yerinə yetirilmişdir. İnstitutda Azərbaycanın Ümumi Tarazlıq Modeli - AZMOD işlənilmişdir. Hansı ki, bu modellərin məlumat bazası sahələrarası balans əsasında qurulmuş Sosial Hesablar Matrisidir. Qeyd olunanlarla yanaşı İnstitutda həm sahələrarası balans modelinin, həm də Sosial Hesablar Matrisinin bütün modifikasiya və multiplikator modelləri qurulmuş və praktiki məsələlərin həllində istifadə edilmişdir. Qeyd olunan modellərin qurulması tam olaraq BMT-nin təlimatlarına əməl edilməklə və Milli Hesablar Sisteminin göstəricilərinə əsaslanmışdır. Bu işlərin gedişində eyni zamanda, regional iqtisadi məsələlərin həllini nəzərə alaraq regional sahələrarası balans modelinin hazırlanması istiqamətində işlər yerinə yetirilmişdir. Regional sahələrarası balans modelinin nəzəri çərçivəsi işlənilmiş və 10 iqtisadi rayon üzrə yuxarıdan aşağıya üsulu ilə regionlar üçün sahələrarası balans tərtib edilmişdir .

**Nəticə**

Ümumilikdə həm aparılmış tədqiqatlara, həm də nəzəri çərçivəyə baxdıqda belə qənaətə gəlmək olur ki, regional iqtisadi təsirlərinin qiymətləndirilməsində sahələrarası

balans metodu xüsusi əhəmiyyətə malik olmaqla onun tərtibi və tətbiqi imkanları geniş tədqiqat obyektidir. Tərtib edilməsi ciddi problemlərlə müşahidə olunmasına baxmayaraq, müəyyən fərziyyələr əsasında tərtib edilməklə tətbiq edilməsi mümkündür. Regional sahələrarası balans modelinin tərtib edilməsi nəticəsində iqtisadi sahələr üzrə təsir analizlərinin aparılması və prioritetlərin ortaya çıxarılması imkanına sahibdir. Qeyd olunan təsirlərin qiymətləndirilməsi nəzəri çərçivəyə uyğun olmaqla balans modelləri və onların modifikasiya və multiplikator modellərinin qurulmasına əsaslanır.

## ƏDƏBİYYAT

1. Волошенко К.Ю., Кузнецова А.Л. Опыт разработки и применения балансовой модели управления региональным развитием в специфических территориальных условиях // Балтийский регион. 2014, № 3 (21). с. 7-26.

2. Гранберг А.Г., Суслов В.И., Суспицын С.А. Экономико-математические исследования многорегиональных систем // Регион: экономика и социология. 2008, № 2. с. 120–150.

3. Дондоков З.Б.Д., Дырхеев К.П., Мунаев Л.А., Абзаев П.Б., Ринчино С.В. Межотраслевой анализ экономики Республики Бурятия на основе таблиц “затраты – выпуск” // Региональная экономика: теория и практика. 2014, № 28, с. 55–62.

4. Ершов Ю.С., Мельникова Л.В., Суслов В.И. Практика применения оптимизационных мультирегиональных межотраслевых моделей в стратегических прогнозах российской экономики // Вестник Новосибирского государственного университета. Серия: Социально-экономические науки. 2009, № 4, с. 9–23.

5. Ершов Ю.С., Суслов В.И. Межрегиональные межотраслевые модели как инструмент долгосрочного прогнозирования экономики [Электронный ресурс] // Новая экономическая ассоциация: web-сайт. – URL: http://www.econorus.org/consp/fi les/0hmy.doc (дата обращения: 17.10.2016).

6. Серебряков Г.Р., Узяков М.Н., Янтовский А.А. Межотраслевая модель экономики Ивановской области // Проблемы прогнозирования. 2005, № 2. с. 64–74.

7. Суворов Н.В., Суворов А.В., Борисов В.Н. Экономический рост, межотраслевые пропорции и приоритеты развития реального сектора в среднесрочной перспективе // Проблемы прогнозирования. 2002, № 4. с. 49–64.

8. Суслов В.И. Анализ и прогнозирование пространственного экономического развития России с использованием межотраслевых моделей // Управленческое консультирование. 2011, № 3. с. 93–105.

9. Суспицын С.А. Концепция и методология измерения устойчивых пространственных трансформаций экономики России // Регион: экономика и социология. 2009, № 4. с. 32–54.

10. Черданцева И.В., Барышева Г.А. Сравнительный анализ прогнозных моделей регионального развития // Известия Томского политехнического университета. 2007, № 6. с. 55–60.

11. Янтовский А.А. Макроэкономический анализ и моделирование региональной экономики в системе межотраслевого народнохозяйственного прогнозирования: автореф. дис. канд. экон. наук. – М., 2005.

# *ИССЛЕДОВАНИЕ РЕГИОНАЛЬНЫХ МОДЕЛЕЙ ЗАТРАТ-ВЫПУСКА (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА)*

*Эльнур РУСТАМОВ*

**_Резюме_**

*В представленной статье анализируются теоретические и методологические аспекты межотраслевых балансовых и региональных моделей затрат-выпуска, сформированных на основе национальной системы бухгалтерского учета стран.*

*На примере разных стран в первую очередь были представлены анализы и оценки исследователей изученные на основе региональных моделей затрат-выпуска.*

*В то же время была отмечена работа, проделанная в экономике Азербайджана по разработке региональных моделей затрат-выпуска, и проанализированы будущие перспективы и возможности с точки зрения генерации данных.*

*В результате были обобщены теоретические и методологические аспекты региональных моделей затрат-выпуска, систематизирован опыт страны и определены возможности для создания региональных моделей затрат-выпуска и их применения с точки зрения экономики Азербайджана.*

***Ключевые слова:*** *модель затрат-выпуска, таблица межотраслевого баланса, региональная экономика, региональная модель затрат-выпуска*

# *RESEARCH OF REGIONAL İNPUT-OUTPUT MODELS (İN CASE OF THE AZERBAİJAN)*

*Elnur RUSTAMOV*

**_Abstract_**

*The presented article analyzes the theoretical and methodological aspects of the inter-sectoral balance and regional input-output models formed on the basis of the national accounting system of the countries.*

*First of all, the analyzes and estimates of researchers on the basis of regional input-output models on the example of different countries were studied and presented systematically. Then, the existing literature and methodologies are analyzed and the theoretical and methodological features, formation and application opportunities of regional input-output models are explained.*

*At the same time, the work done in the Azerbaijani economy in the development of regional input-output models was noted and future prospects and opportunities were analyzed in terms of data generation.*

*As a result, the theoretical and methodological aspects of regional input-output models were summarized, the country's experience was systematized, and opportunities for the establishment and application of regional input-output models from the point of view of the Azerbaijani economy were identified.*

***Keywords:*** *input-output model, cross-sectoral balance table, regional economy, regional input-output model*

*UOT 338.51*

# *AZƏRBAYCANDA İCTİMAİ NƏQLİYYAT TARİFLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ MƏSƏLƏLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ*

*Fuad ƏMİRHÜSEYNOV,*
*Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, magistr,*
*famirhuseynov2019@ada.edu.az*

**_Xülasə_**

*Məqalədə ictimai nəqliyyat tariflərinin dövlət tənzimlənməsi prosedurunun təhlili aparılmışdır. Eyni zamanda burada Azərbaycanda ictimai nəqliyyat xidmətləri tariflərinin formalaşması və tənzimlənməsi xüsusiyyətlərinin təhlili aparılır. Nəqliyyat şirkətlərinin maraqları nəzərə alınaraq sərnişindaşıma üçün minimum tarifin hesablanmasına adi nümunələr verilmişdir. Hesablama, bir sərnişinin səyahət xərcinin iqtisadi cəhətdən əsaslandırılmış dəyərinin müəyyənləşdirilməsinə əsaslanan və eyni zamanda daşıyıcının gəlirliliyini nəzərə alan iqtisadi cəhətdən əsaslandırılmış xərclər metodu ilə aparılmışdır.*

*Mövzunun aktuallığı bazar iqtisadiyyatı şəraitində sərnişin avtomobil nəqliyyatı sahəsində dövlət tarif siyasətinin müasir iqtisadi və sosial şəraitə uyğunlaşdırılmasına imkan verən qiymətlərə yeni yanaşmaların, sərnişin tariflərinin qurulması prinsip və metodlarının tələb olunması ilə müəyyən edilir. Məqalənin məqsədi Azərbaycanda nəqliyyat tariflərinin formalaşması və tənzimlənməsi xüsusiyyətlərini müəyyənləşdirmək və sərnişindaşıma sisteminin səmərəliliyinin artırılması mexanizmini müəyyənləşdirməkdir.*

***Açar sözləri****: ictimai nəqliyyat, nəqliyyat sistemi, tariflər, tallin modeli, tariflərin müəyyənləşdirilməsi*

## Giriş

Nəqliyyat sisteminin inkişafı Azərbaycan Respublikası üçün böyük əhəmiyyətə malikdir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil və səhiyyə ilə yanaşı, nəqliyyat cəmiyyətin əsas ehtiyaclarını ödəmək üçün sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə çatmaqda mühüm rol oynayır.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası nəqliyyat sisteminin inkişafında yeni bir mərhələyə qədəm qoydu. Ölkə iqtisadiyyatı sürətli inkişafın növbəti mərhələsinə keçdi və bu da bazar iqtisadiyyatı şəraitində nəqliyyat üçün hüquqi bazanın yaradılmasına, bazar iqtisadiyyatının tələblərini əks etdirən güclü tələb mərkəzli fəaliyyətə səbəb oldu.

Son illərdə ölkəmizdə əldə edilmiş ictimai həyatın bütün sahələrinin dinamik inkişafı respublikamızın geosiyasi əhəmiyyətini xeyli artırmışdır. Bütün bunlarla yanaşı, qlobal iqtisadi məkanda gedən sosial-iqtisadi proseslərdə fəal iştirak etmək, xarici bazarlara səmərəli çıxış əldə etmək, rəqabətə davamlı milli sənayeyə sahib olmaq vacibdir. Bu gün qlobal gündəmdə əsas olan qloballaşma, sürətli inteqrasiya, davamlı inkişaf və s. amillər ölkəmiz üçün xüsusilə aktualdır [10].

İctimai nəqliyyat, əhalinin hərəkətdə olan müxtəlif ehtiyaclarının ödənilməsində böyük rol oynayır, əksər hallarda yaşayış şəraitində maddi dəyişikliklər gətirən hərəkətverici qüvvəyə çevrilir [6].

İctimai nəqliyyatın inkişafı iqtisadi inkişafa kömək edir, şəxsi avtomobillərin istifadəsini azaldaraq tıxacların sayını azaldır, şəhərlərin mərkəzi hissələrində parklanma probleminə təsir edir və çirkləndiricilərin tullantılarının azaldılmasına kömək edir. Nəqliyyat şirkətləri, vətəndaşların həyat tərzini dəyişdirəcək və ictimai nəqliyyatın üstünlük verilən səyahət növünə çevriləcək sərnişin xidməti formalarından istifadə etməlidirlər. Günümüzdə əsas vəzifələrdən biri şəhər nəqliyyat sisteminin inkişafına inteqrasiya olunmuş bir yanaşma inkişaf etdirmək üçün ictimai nəqliyyat sərnişinlərinin nəqliyyat xidmətləri sahəsində yeniliklərə münasibətini qiymətləndirməkdir.

Ərazinin nəqliyyat sisteminin səmərəli işləməsi iqtisadiyyatın və sosial sahənin inkişafı üçün lazımi şərait yaradır. Dünyada əhalinin artımı, fərdi nəqliyyat sayının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Yol infrastrukturunun inkişafı üçün kifayət qədər məhdud imkanların mövcudluğu şəhərlərdə həqiqi hərəkət sürətinin kəskin azalmasına gətirib çıxarmış, yəni, şəhər sakinlərinin hərəkətliliyinin pisləşməsinə səbəb olmuşdur. Trafik axınlarının yenidən bölüşdürülməsi və yolun genişləndirilməsi səbəbindən yol vəziyyətinin optimallaşdırılması imkanları böyük ölçüdə tükənmişdir. Bu şərtlərdə yol vəziyyətində keyfiyyətcə yaxşılaşma və vətəndaşların hərəkətliliyində artım yalnız avtomobil sahiblərinin şəxsi istifadə vasitələrindən ictimai nəqliyyat vasitələrinin xeyrinə imtina etməsi ilə mümkündür. Bunun üçün ictimai nəqliyyat müasir sərnişinlərin dəyişən ehtiyaclarını ödəməli və yenilərini cəlb etməlidir [3].

**Metod**

Ümumiyyətlə, optimal tarif siyasətinə uyğunsuzluq, sağlam rəqabət mühitinin olmaması, subyektiv yanaşmaların olmaması və tənzimləyici orqanların öhdəliklərini tam yerinə yetirməməsi kimi amillər səbəbindən ölkədə müasir və keyfiyyətli ictimai nəqliyyat tariflərinin müəyyənləşdirilməsi mümkün olmamışdır. Həmçinin, hazırda ictimai nəqliyyatda belə tariflərin müəyyənləşdirilməsi üçün səmərəli mexanizmlər də mövcud deyil. Buna görə də sərnişin tarifləri sosial təminat və əhalinin müxtəlif sosial qrupları üçün xidmət keyfiyyəti nəzərə alınmadan tətbiq olunur. Bu, sosial siyasətdəki ən zəif əlaqələrdən biri hesab olunur və daha effektiv maliyyələşdirmə üçün uyğun bir mühitin formalaşmasına mane olur.

Təşkilati və iqtisadi mexanizmin iqtisadi elementləri sərnişin nəqliyyatının tarif tənzimlənməsi, daşıyıcıların xərclərinin iqtisadi təhlili və tarif formalaşması prosesinin alqoritmləşdirilməsidir. Sərnişin nəqliyyatının tarif tənzimlənməsi yalnız iqtisadi cəhətdən əsaslandırılmış tarifin hesablanmasını deyil, həm də sosial tarifin hesablanmasını nəzərdə tutur. Sosial əhəmiyyəti nəzərə alınmaqla əhaliyə nəqliyyat xidmətləri tariflərinin təkmilləşdirilməsi həyata keçirilir.

Tarifin formalaşdırılması prosesinin alqoritmləşdirilməsi tariflərin tənzimlənməsi və xərclərin iqtisadi təhlilini ümumiləşdirir və sərnişindaşıma tariflərinin formalaşdırılması üçün bir mexanizm hazırlanmasını nəzərdə tutur. Beynəlxalq təcrübədən istifadə edərək bu istiqamətdə hərtərəfli fəaliyyət planının həyata keçirilməsi zəruri hesab edilir.

İctimai nəqliyyat sistemlərinin subsidiya səviyyəsi dünya sistemləri arasında xeyli dəyişir. Estoniyanın Tallin şəhərində, ictimai nəqliyyat tariflərinin müəyyənləşdirilməsi modelinin tətbiqi, post-sovet respublikalarında, həmçinin Azərbaycanda da bu modelin tətbiqi məsələlərini araşdırmaq əsas məsələlərdən biridir.

**Araşdırma Modeli**

Mobillik sisteminin idarə olunması üçün mexanizmlərin seçilməsi hədəfdən asılıdır. Tallin modelindən istifadə edərək nəqliyyat yüklərini azaltmağa və davamlı istehlak nümunələri yaratmağa kömək edənləri nəzərdən keçirmək olar. Ölkəmizdə ictimai nəqliyyat tariflərinin müəyyənləşdirilməsi istiqamətində müəyyən tarif modellərindən istifadə olunur.

**Analiz**

Tariflərin formalaşması problemini həll etmək üçün ictimai nəqliyyat xidmətləri bazarında iştirakçıların maraqlarını nəzərə alan optimal bir modeldən istifadə edilməsi təklif olunur. Optimizasiya problemləri vacib bir riyazi problem sinfini təşkil edir, çünki hər hansı bir fəaliyyət sahəsində insan xərclərə, vaxta və mənbələrə qənaət etməyə yönəlmiş optimal həlləri seçməyə çalışır. Optimal, əsaslandırılmış qərarların seçilməsi keyfiyyət və səmərəliliyin artırılması üçün vacib ehtiyatlardan biridir.

Model, sadələşdirilmiş bir nüsxədir, süni şəkildə yaradılmış bir obyektdir ki, onun üzərində həqiqi bir obyektin müəyyən xüsusiyyətləri çoxaldılır. Bu obrazları öyrənmək və nəticələrini real aləmin cisimlərinə və hadisələrinə ötürmək üçün həqiqi cisimlərin və ya hadisələrin açıq şəkildə sadələşdirilmiş obrazları (modelləri) ilə əvəzlənməsindən ibarət bir model qurulur ki, bu proses də modelləşdirmə adlanır [5].

Azərbaycanda ictimai nəqliyyat dövlət və özəl sektordan ibarətdir. Bakı Metropoliteni metro üzrə sərnişindaşıma sahəsində təbii inhisardır. Dövlət (Baku Bus MMC) və özəl sektor avtobus nəqliyyatında paralel olaraq fəaliyyət göstərir.

Ölkədəki ictimai nəqliyyat tarifləri dövlət tərəfindən tənzimlənir (Tarif Şurası). Sərnişin daşınması yalnız xüsusi icazə (lisenziya) tələb edən bir fəaliyyət növüdür. Bu günə qədər bir sıra dövlət proqramlarının həyata keçirilməsinə baxmayaraq, ölkədə müasir tələblərə uyğun olan ictimai nəqliyyat sisteminin yaradılması mümkün olmamışdır. 2015-ci ildə Bakı şəhərində sərnişindaşıma sahəsində dövlət siyasətini və nəzarətini bir qurum tərəfindən həyata keçirmək üçün Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi yaradılmışdır [13]. Son illərdə əhalinin təbii artımı, şəhərləşmə, turizm sektorunun inkişafı, yanacaq qiymətlərinin bahalaşması və paytaxt Bakıda tıxac problemi kimi amillər səbəbindən ictimai nəqliyyat xidmətlərinə tələbat artmışdır.

**Cədvəl 1. İctimai nəqliyyat sektorunda sərnişin dövriyyəsi (milyon sərnişin-km)**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Sərnişin dövriyyəsinin ümumi həcmi - cəmi** | **26316** | **27125** | **27650** | **28289** | **28714** | **29533** |
| **Yol nəqliyyatı** | | | | | | |
| Sərnişin dövriyyəsi | 22992 | 23825 | 24429 | 24886 | 25276 | 25950 |
| Ümumi sərnişin dövriyyəsində payı, % | 87,4 | 87,8 | 88,4 | 88,0 | 88,0 | 87,9 |
| **Xüsusi avtomobillər** | | | | | | |
| Sərnişin dövriyyəsi | 1296 | 1370 | 1413 | 1455 | 1494 | 1550 |
| Yol nəqliyyatı dövriyyəsində payı, % | 5,6 | 5,8 | 5,8 | 5,8 | 5,9 | 6,0 |
| **Şəhərlərdə ictimai nəqliyyat** | | | | | | |
| Sərnişin dövriyyəsi | 15191 | 14214 | 14369 | 14628 | 14845 | 15241 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yol nəqliyyatı dövriyyəsində payı, % | 66,1 | 59,7 | 58,8 | 58,8 | 58,7 | 58,7 |
| **Şəhərlərdə şəhərlərarası ictimai nəqliyyat** | | | | | | |
| Sərnişin dövriyyəsi | 6505 | 8241 | 8647 | 8803 | 8937 | 9159 |
| Yol nəqliyyatı dövriyyəsində payı, % | 28,3 | 34,6 | 35,4 | 35,4 | 35,4 | 35,3 |
| **Yeraltı nəqliyyat (metro)** | | | | | | |
| Sərnişin dövriyyəsi | 2378 | 2450 | 2400 | 2525 | 2549 | 2611 |
| Ümumi sərnişin dövriyyəsində payı, % | 9,2 | 9,0 | 8,7 | 8,9 | 8,9 | 8,8 |
| **Bir nəfərə düşən sərnişin dövriyyəsi, km** | 2759,91 | 2811,08 | 2833,63 | 2870,8 | 2888,8 | 2981,8 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır*

2017-ci ildə nəqliyyat sektorunda sərnişin dövriyyəsi 1 milyard 973,4 milyon nəfər (2007-ci ilin müvafiq göstəricisi 1 milyard 148 milyon nəfər) olmuşdur ki, bunun da 84,7% -i və ya 1 milyard 672,2 milyon nəfəri avtobus, 11,6% -i və ya 228,8 milyon insan metronun payına düşür. Ümumiyyətlə, ölkədə sərnişin axınının 96,3% -i avtobus və metro ilə həyata keçirilib. 10 il ərzində avtobus nəqliyyatından 487,7 milyon manat, metro nəqliyyatından 44,3 milyon manat qazanılmış və nəticədə ümumi gəlir 532 milyon manat olmuşdur. Xatırladaq ki, son qiymət dəyişikliyi baş verən 2007-ci ildən bəri avtobus gəlirləri dörd dəfə artmışdır. 2011-ci ildə qiymət dəyişikliyindən sonra metro gəliri 54 % artdı. Gəlirin artması sektorun əvvəlki illərlə müqayisədə şəffaflığının artması, şəhərlərarası sərnişindaşıma qiymətlərinin yüksəlməsi və sərnişin dövriyyəsinin artması ilə əlaqədardır.

Sərnişin axını hər il artır. 2019-cu ildə sərnişin axını 29,533 milyon sərnişin-km təşkil edib və bu da 2000-ci illə müqayisədə 2,7 dəfə artım deməkdir. Ölkədə sərnişin axınının əsas hissəsi şəhər və şəhərlərarası ictimai nəqliyyatın payına düşür və ümumi nəqliyyat vasitələrinin yüzdə 82,6 %-ni təşkil edir (Qrafik 1).




*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır*

**Qrafik 1. 1 ilə düşən sərnişin dövriyyəsi**

Statistik təhlillər göstərir ki, 2007-2017 illər aralığında sərnişin dövriyyəsi xərclərində əhəmiyyətli bir artım olmuşdur. Lakin, bu müddət ərzində tariflərdə heç bir artım qeydə alınmayıb. Artıma təkan verən amillər arasında yanacaq və elektrik qiymətlərinin artması, istifadə olunan avadanlıqların yenilənməsi və sektorda əmək haqqının artması nəticəsində çoxalan maliyyə xərcləri göstərilir [2]. 2019-cu ildə bu istiqamətdə maliyyə dəyişikliyinin dinamikası aşağıdakı diaqramda daha ətraflı təsvir edilmişdir.




*Mənbə: Azərbaycanda nəqliyyat, Bakı-2020, Statistik məcmuə, s.76*

**Qrafik 2. Sərnişin daşıma xidməti üzrə çəkilən xərclər, milyon manatla**

Qeyd etmək lazımdır ki, xüsusən son üç ildə Azərbaycanda yeni iqtisadi vəziyyət yaranıb. Belə ki, 2015-2017-ci illərdə neftin ucuzlaşması səbəbindən milli valyuta (Azərbaycan manatı) 54% -dən çox dəyər itirdi, yanacaq qiymətləri 63,6%, elektrik enerjisi qiymətləri isə orta hesabla 34% artdı. Bundan əlavə, ölkənin istehlak qiymətləri indeksi 2015-ci ildə 4%, 2016-cı ildə 12,4% və 2017-ci ildə 12,9% təşkil edib. Bu şərtlərdə, digər sənaye sahələri ilə yanaşı, ictimai nəqliyyat seqmentində fəaliyyət göstərən təsərrüfat subyektləri üçün də yeni problemlər meydana çıxdı. Bu problemlər ictimai nəqliyyat sahəsində çalışan təsərrüfat subyektlərinin investisiyalarını azaltdı. 2012-ci ildə sərnişin daşınması üçün ölkəyə 1038 avtobus gətirilmişdisə, 2017-ci ildə müvafiq rəqəm 6 dəfə az və ya 187 ədəd təşkil etmişdir. Nəticədə sektorun mənfəəti azalmış, ictimai nəqliyyat xidmətlərinin keyfiyyəti zəifləmiş, nəqliyyat parkı o cümlədən, avtobus parkı köhnəlmişdir. Xüsusilə, yerli valyutanın kəskin devalvasiyası idxaldan asılı nəqliyyat sektorunu texniki avadanlıq baxımından modernləşdirmək və təmir etmək xərclərini xeyli artırmışdır. Bütün bunların fonunda ictimai nəqliyyat xidmətləri sahəsində müəyyən addımların atılması zərurəti yaranır.

Bu addımlar arasında ən mühim hesab olunan sərnişindaşıma üzrə mövcud tariflərin optimallaşdırılmasıdır. Lakin, Azərbaycan Respublikası Tarif Şurasının 30 iyul 2018-ci il tarixli qərarı ilə avtobus və metro ilə daxili sərnişindaşıma qiymətləri artırıldı. İctimai nəqliyyatda qiymət artımının gözlənilməz olduğunu söyləmək rasional fikir kimi hesab edilməməlidir. Çunki, 2011-ci ildə metroda gediş haqqı artırıldıqda rəsmilər bu artımın yetərli olmadığını bildirmişdilər. Növbəti illərdə ictimai nəqliyyat

qiymətlərində artım xəbəri ictimai rəy mövzusu oldu. Artıq 2016-cı ildə yerli media hökumət mənbələrinə istinadən sərnişindaşıma xidmətlərinin qiymətlərinin 50% artırılacağı bildirilmişdir. 2017-ci ilin iyun ayında benzinin qiymətinin qaldırılması qərarı müzakirələrə səbəb oldu. Nəticədə, həmin ilin oktyabr ayında sərnişindaşıma üzərində dövlət nəzarətini həyata keçirən şöbələrdən biri kimi Bakı Nəqliyyat Agentliyi tarifləri artırdı. 2018-ci ildə Tarif Şurası qərarından sonra Azərbaycanda fərqli kateqoriyalı sərnişindaşıma xidmətlərinin qiymətlərinin necə dəyişəcəyini görmək olar.

**Cədvəl 2. Nəqliyyatda sərnişindaşıma üzrə tairflər üzrə dəyişikliklər**

| Nəqliyyat növü | Əvvəlki tarif | Yeni tarif | Artım səviyyəsi |
|---|---|---|---|
| *Metro* | 0,20 | 0,30 | 50% |
| *Avtobus (şəhərdaxili)* | 0,20 | 0,30 | 50% |
| *Avtobus (şəhərlər arası), hər km yol üçün* | 0,16 | 0,24 | 50% |

*Mənbə: http://www.tariffcouncil.gov.az/?/az/content/184/*

Azərbaycan Respublikası Tarif Şurası, 2018Tariflərin optimallaşdırılması zəruri olduğu halda Tarif Şurasının ictimai nəqliyyatdan istifadə tariflərini 50% artırması və bu artımla əlaqədar olaraq qurum tərəfindən verilən açıqlamada bu tarif dəyişikliyinin nəqliyyat infrastrukturunu daha da yaxşılaşdırmaq və maliyyə təhlükəsizliyini artırmaq məqsədilə edildiyinin qeyd olunması o qədər də uğurlu addım hesab edilməməlidir. Buna əsas səbəblərdən biri kimi keyfiyyətin artmadığı halda tarifin artırılması və keyfiyyətlə tarif arasındakı əlaqəsizliyin gələcəkdə bu sahədə baş verə biləcək müsbət dəyişikliklərə mənfi təsir göstərməsi qeyd oluna bilər. İkinci səbəb kimi tariflər müəyyən olunarkən əhali arasında sosial bölgü cəhətdən qiymət fərqləndirilməsinin aparılmaması göstərilə bilər. Sosial bölgü deyildikdə tələbələr, pensiyaçılar, çoxuşaqlı analar və s. nəzərdə tutulur. Öz növbəsində bu addım gəlirlərin bərabər paylanması prinsipinin pozulmasına gətirib çıxarmışdır. Digər bir səbəb kimi müvafiq infrasturukturun formalaşdırılması və nağdsız ödəniş sisteminin yekunlaşdırılması başa çatmadan tariflərə artım edilməsini qeyd etmək olar. Həmçinin, qeyd edilməlidir ki, ölkədə ictimai nəqliyyatın cari vəziyyəti müasir standartlara cavab vermədiyindən mövcud qiymətlərin artırılması bu sektorun inkişafını daha da ləngidəcəkdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, dövlət şirkətlərinin fəaliyyətində, xüsusən də sərnişindaşıma sahəsində şəffaflıq səviyyəsi qənaətbəxş deyil. Məsələn, 20 ən böyük dövlət müəssisəsindən biri olan Bakı Metropoliteninin hesabatlılığı çox zəif təşkil olunmuş və hətta dövlət standartlarına uyğun təşkil edilməmişdir. Bu qurumun orta illik dövriyyəsinin təxminən 100 milyon manat olmasına baxmayaraq maliyyə fəaliyyətinin qiymətləndirilməsi üçün kənar auditor qismində sadəcə 1 fiziki şəxs cəlb edilmişdir. Eyni zamanda, bu qurumun illik maliyyə hesabatları məlumatverici deyil [12]. Bu, fəaliyyətin yüksək keyfiyyətli maliyyə monitorinqi qabiliyyətini zəiflədir.

Nəqliyyat sektorunda sərnişin daşınması üçün nağdsız ödənişlər sisteminə natamam keçid bu sahədə gizli trafikin mövcudluğunu təmin edən əsas amillərdən biridir. 2011-ci ildən bəri Bakıda ictimai nəqliyyatda nağdsız ödəniş sisteminin tətbiqi üçün addımlar atılsa da, bu proses hələ başa çatdırılmayıb. Nəhayət, Bakı Nəqliyyat Agentliyi nağdsız ödəniş sisteminin tam tətbiqinin 2018-ci ilin birinci yarısında başa çatdırılacağını elan etsə də, bunun qeyri-mümkün olduğu zamanla aydın oldu. Qeyd etmək lazımdır ki, hələ də xeyli sayda avtobus nağd şəkildə ödəniş qəbul etməyə davam edir. Statistikaya əsasən, hazırda 2021 avtobus Bakının 150 marşrutu üzrə sərnişin daşımalarına xidmət göstərir ki, bunlardan da 25 marşrut üzrə cəmi 500 avtobusun nağdsız ödəniş sisteminə keçidi başa çatdırılıb. Başqa sözlə, Bakıda işləyən

avtobusların 75% -i nağd ödənişi qəbul edir [7].

Tariflər yeniləndikdən sonra da Azərbaycanda ictimai nəqliyyat xidmətləri tarifləri MDB ölkələrində və regionlarında mövcüd olan tariflərin əksəriyyətindən aşağı olaraq qalmışdır. Qeyd edək ki, hazırda metroda sərnişinlərə xidmət əvəzində qoyulmuş tariflər Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusiyada 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat və Türkiyədə 0,44-1,75 manat təşkil edir. Müntəzəm şəhərlərarası avtobus xidməti tariflərinə gəldikdə isə bu Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,45 manat, Belarusiyada 0,44-0,52 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,91manat təşkil edir. Müntəzəm şəhərlərarası avtobus marşrutları üçün tariflər Rusiyada 5,2-9,2 qəpik/km, Gürcüstanda 4,2-7,5 qəpik/km, Türkiyədə 4,9-8,0 qəpik/km təşkil edir [9].

Bir zamanlar Azərbaycanın müqayisə olunduğu Estoniyanın paytaxtı Tallin şəhərində 2013-cü ildən bəri qeydiyyatda olan vətəndaşlar üçün ictimai nəqliyyatdan istifadə tarifləri aradan qaldırılmışdır. Lakin, şəhər daxilində turistlər onlar üçün müəyyən edilmiş qiymətlərə uyğun olaraq ödəniş edib ictimai nəqliyyatdan istifadə edirlər. Tallində həyata keçirilən bu layihə dövlət büdcəsindən maliyyələşdirilir. Hətta bu qərarın müzakirəsi zamanı Tallin Şəhər Şurasının 60 deputatından 40-ı bu qərarın lehinə səs vermişdir. Dövlətin ortalama hesablamalarına görə bu qərarın alınması ilə hər ailənin 50 avro dəyərində öz büdcəsinə qənaət edə biləcəyi qeyd olunur. Bundan başqa, bəzi ölkələrdə də ictimai nəqliyyat müəyyən şərtlər daxilində öz vətəndaşlarına pulsuz xidmət göstərməyə başladı. Buna nümunə olaraq Lüksemburq göstərilə bilər. 2019-cu ildən etibarən ölkədə bütün ictimai nəqliyyat pulsuz olaraq xidmət göstərməyə başladı. Bu modelin artıq bir neçə ölkə və şəhər tərəfindən tətbiqi artıq digər ölkərin də diqqətini çəkmişdir. Hətta bəzi ölkələr bu istiqamətdə araşdırmalara da başlamışdır.

Belarusiya və Rusiya Federasiyası kimi ölkələrdə sərnişindaşıma gediş haqqını iqtisadi xərclərdən aşağı tutmaq üçün qismən subsidiyalaşdırılır və buna görə də vətəndaşların ödədiyi gediş haqqı dövlətin onların daşınması üçün çəkdiyi xərci tam qarşılamır [4]. Sərnişin nəqliyyatının subsidiyalaşdırılması onun uğurlu fəaliyyətinin ayrılmaz hissəsidir.

**Nəticə**

Ölkənin nəqliyyat sisteminin inkişafı istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi geniş və keyfiyyətli statistik məlumatların olması ilə mümkündür. Ölkə nəqliyyatının beynəlxalq nəqliyyat sisteminə uğurla inteqrasiyası üçün respublikanın nəqliyyat sektorunun inkişafı və inkişaf istiqamətlərinin proqnozlaşdırılması üçün konkret rəqəmlər olmalıdır. Beynəlxalq nəqliyyat dəhlizlərinin respublika ərazisindən keçən hissələrində infrastrukturun inkişafı, tranzit trafikin intensivləşdirilməsi və planlaşdırılması, intermodal və multimodal nəqliyyatın inkişafı üçün geniş məlumat şəbəkəsi yaratmaq lazımdır. Eyni zamanda, nəqliyyat infrastrukturunun yenidən qurulması, nəqliyyat parkının yenilənməsi nəqliyyat sənayesinin inkişafında mühüm mərhələlərdən biri hesab edildiyi üçün bu sahədəki məlumat istifadəçilərinin ehtiyacları təmin edilməlidir. Buna görə əsas təkliflərdən biri budur ki, nəqliyyat və yol kompleksi üçün vahid bir məlumat sisteminin yaradılması əsas prioritetlərdən biri olsun və həmin sistem tam və etibarlı statistik məlumatlarla əsaslandırılsın.

Dövlətin nəzarətində olan ictimai nəqliyyat sektoruna (Bakı Metropoliteni QSC və Baku Bus MMC) subsidiya vermək də bu sektorda qeyri-bərabər rəqabət mühiti yaratmışdır. Beləliklə, özəl biznesin müasir tələblərə cavab verən avtomobilləri istismara verməsi çətinləşdi və bu da xüsusilə Bakı şəhərində zəif rəqabət mühiti

yaratdı. Təklif olunur ki, əgər Tallin modelinin tətbiq olunmasına ölkədəki şərait imkan verirsə, dövlətə məxus şirkəti subsidiya ilə təmin edib qeyri-rəqabətcil bazar yaratmaq əvəzinə dövlət ictimai nəqliyyat sahəsində təbii inhisarçıya çevrilsin, bütün avtobuslar üçün martşrut xətlərini müəyyənləşdirsin.

Tarifləri 50% artırma qərarının, xüsusilə aşağı gəlirli qruplar üçün ailə büdcələri üçün ciddi bir xərc yükü yaratdığı və sosial təminata mənfi təsir göstərdiyi güman olunur. İlkin hesablamalara görə, tariflərin artması nəticəsində əhali ildə 260 milyon manat əlavə xərclə üzləşəcək. Təklif olunur ki, dövlət ictimai nəqliyyat xərclərinin müəyyən hissəsini subsidiyalaşdırmaq əvəzinə Estoniyanın Tallin şəhərində ictimai nəqliyyat üçün tətbiq olunan tarif modellərini Azərbaycanda da tətbiq etmək üçün həmin xərcləri tam subsidiyalaşdırsın. Əgər bu modelin tətbiqi mümkün olmasa, o zaman sərnişindaşıma xidmətlərində qiymət fərqləndirməsi etsin (məs: tələbələr, pensiyaçılar və s. qruplar üçün daha aşağı gediş haqqı) və ümumilikdə tariflərin müəyyənləşdirilməsi üçün optimal mexanizmdən istifadə olunsun. Nəticədə, vətəndaşa bu paketlər arasında seçim etməklə özünün uzunmüddətli büdcə planlamasını etmə imkanı yaradılır.

Təklif olunur ki, bu sahədə fəaliyyət göstərən dövlət şirkətlərinin hesabatlılığı daha peşəkarcasına və dövlət standartlarına uyğun hazırlansın və şəffaflaşdırılsın. Təklif olunur ki, qısa müddət ərzində nağdsız ödəmə sisteminin ictimai nəqliyyatda tam tətbiqi yekunlaşdırılsın. Çünki, bu proses həm də məlumat sisteminin formalaşmasına da öz töhvəsini verəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycanda nəqliyyat, Bakı-2020, Statistik məcmuə, s.76 86
2. İctimai nəqliyyatda tarif artımlarının mənfi və müsbət tərəfləri, CESD tədqiqat qrupu, 2018, s.12.
3. Берман Н.Д., Белов А.М. (2019). Общественный транспорт и инновации, Международный журнал перспективных исследований, Т. 9, №2, стр.8-13.
4. Рязанова А.В. (2016). Зарубежный опыт финансирования городского пассажирского транспорта общего пользования // Учёные заметки ТОГУ. – Т. 7. – № 4. – С. 218–220., s. 220
5. Левда Н.М., Постников В.П. (2012). Экономические задачи линейного программирования и их решения с использованием Microsoft Excel: учеб. пособие. Пермь: ПНИПУ, 155 стр.
6. Общественный транспорт Беларуси: состояние и пути развития Киев 2012 68 стр.
7. http://bna.az/az/ictimai-neqliyyat.
8. http://www.tariffcouncil.gov.az/?/az/content/184/.
9. https://1news.az/az/mobile/news/qiymet-tenzimlenmesi-neqliyyat-xidmetlerinin-keyfiyyetini-yukseldecek.
10. https://azerbaijan.az/related-information/280.
11. https://www.stat.gov.az/source/transport/.
12. http://metro.gov.az/az/about/metropoliten/fin.
13. https://president.az/articles/17196.

